AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# TARİX, İNSAN VƏ CƏMİYYƏT

*Elmi-nəzəri və elmi-metodik jurnal*

ISBN: 9000000060074

*2020, 2 (29)*

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

**2020, 2 (29)**

**BAKI-2020**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 2 (29), 2020

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# DONALD TRAMP ADMİNİSTRASİYASI DÖVRÜNDƏ ABŞ-ın YAXIN ŞƏRQ SİYASƏTİ: TÜRKİYƏ VƏ İSRAİLLƏ MÜNASİBƏTLƏR

***Aytən Zabil qızı Abbasova-Quliyeva***
***Bakı Dövlət Universiteti***
*aytan.abbasova.guliyeva@gmail.com*

**Açar sözlər:** *Donald Tramp, ABŞ, Yaxın Şərq, İsrail, Türkiyə*

*ABŞ Soyuq müharibədən sonrakı dövrdə dünyanın bir çox regionlarını öz maraq dairəsinə daxil etmiş və onları həyati əhəmiyyətli regionlar adlandırmışdır. Yaxın Şərq regionu da məhz həmin zonalardan biri olaraq, ABŞ-ın xarici siyasətinin əsasını təşkil etmiş, bu məram Donald Tramp administrasiyası dövründə də özünü biruzə vermişdir.*

*Məqalədə Barak Obama administrasiyası dövründə ABŞ-ın Yaxın Şərq siyasəti nəticəsində zərər görmüş ABŞ-İsrail və ABŞ-Türkiyə münasibətlərinin Donald Trampın prezidentliyi dövründə hansı zəmində davam etməsi, habelə D.Trampın Yaxın Şərq regionunda baş verən hadisələrə və region ölkələri ilə ikitərəfli əlaqələrə fərqli münasibəti tədqiq edilmişdir.*

*Qarşıya qoyulan problemlərin mahiyyətini araşdırmaq üçün hadisə və faktların müqayisəli və tənqidi təhlilinə, ümumiləşdirmələrə, elmi obyektivliyə, habelə məlumatların öyrənilməsində kompleksli yanaşma və tarixilik prinsipinə əsaslanmış, məqalənin yekununda son dönəmdə ABŞ-İsrail-Türkiyə münasibətləri zəminində baş vermiş hadisələr təhlil edilmişdir.*

# ПОЛИТИКА США НА БЛИЖНЕМ ВОСТОКЕ ПРИ АДМИНИСТРАЦИИ ДОНАЛЬДА ТРАМПА: ОТНОШЕНИЯ С ТУРЦИЕЙ И ИЗРАИЛЕМ

***Айтан Аббасова-Кулиева***

**Ключевые слова:** *Дональд Трамп, Соединенные Штаты Америки, Ближний Восток, Турция, Израиль*

*В период после окончания холодной войны Соединенные Штаты включили многие регионы мира в сферу своих интересов и назвали их жизненно важными регионами. Ближневосточный регион, как одна из этих зон, составлял основу внешней политики США, и эта цель проявилась во время администрации Дональда Трампа.*

*В статье исследуется продолжение американо-израильских и*

*американо-турецких отношений во время президентства Дональда Трампа, которым был нанесен ущерб в результате Ближневосточной политики администрации Барака Обамы, а также различный подход Трампа к событиям на Ближнем Востоке и двусторонним отношениям с регинальнами странами.*

*Статья, которая основанна на сравнительном и критическом анализе событий и фактов, обобщениях, научной объективности, а также комплексном подходе к изучению информации и принципе историчности, завершается анализом событий, произошедших на основе американо-израильско-турецких отношений.*

## THE MIDDLE EAST POLICY OF THE U.S. UNDER THE ADMINISTRATION OF DONALD TRUMP: BILATERAL RELATIONS WITH TURKEY AND ISRAEL

***Aytan Abbasova-Guliyeva***

**Keywords:** *Donald Trump, The United States of America, The Middle East, Turkey, Israel*

*Since the end of the Cold War, the United States has included various regions of the world in its sphere of interests and named them as vital regions. The Middle East region, as one of these zones, constituted the backbone of U.S. foreign policy, and this goal manifested itself during the Donald Trump administration.*

*The article examines the new context of US-Israeli and US-Turkish relations during the presidency of Donald Trump, which had been damaged as a result of the Middle East policy of the Barack Obama administration, as well as Trump's unordinary approach to the events in the Middle East and bilateral relations with regional countries.*

*The article, which is based on a comparative and critical analysis of events and facts, generalizations, scientific objectivity, as well as an integrated approach to the study of information and the principle of chronology, concludes with an analysis of the events that took place on the ground of American-Israeli-Turkish relations.*

**Giriş.** Tarixən Amerika Birləşmiş Ştatlarının xarici siyasəti vahid amala – dövlətin həyati əhəmiyyətli regionlar üzərində təsirinin möhkəmləndirilməsi və beynəlxalq münasibətlər sistemində fövqəlgücünün bərqərar edilməsinə qulluq etmişdir. Bu siyasət eyni olmasına rəğmən, ayrı-ayrı dövrlərdə, ayrı-ayrı

prezidentlər tərəfindən fərqli aspektdə həyata keçirilmişdir.

11 Sentyabr 2001-ci il hadisələrindən sonra qabaqlayıcı zərbə və təktərəflilik (uniletarizm) prinsiplərindən çıxış edərək Yaxın Şərqdə rejimlərin dəyişdirilməsi siyasətini yürüdən Corc Uolker Buş administrasiyasından fərqli olaraq, Demokratlar partiyasının nümayəndəsi Barak Hüseyn Obama hakimiyyətinin ilk illərində region ölkələrinə münasibətdə daha liberal strategiya yürüdəcəyini bildirmişdi. Lakin tarix B.Obama administrasiyasının "yumşaq güc" ("soft power") siyasətinin ABŞ-ın Yaxın Şərq regionu ilə bağlı siyasətinə, habelə ABŞ-ın Türkiyə və İsraillə münasibətlərinə mənfi təsir etdiyini göstərmişdir.




2011-ci ildən etibarən Yaxın Şərqdə tüğyan edən "Ərəb baharı" zəminində avtoritar dövlətlərin demokratikləşdirilməsinə üstünlük verən B.Obama administrasiyası Misirdə əzəli müttəfiqi H.Mübarəkin "Müsəlman qardaşları" təşkilatının fəallarından olan M.Mursi ilə əvəz edilməsinə göz yumaraq, Misir-İsrail münasibətlərinin korlanmasına, habelə İsrailin regional təhlükəsizliyinin təhdid altına düşməsinə rəvac vermişdi. Bununla yanaşı, ABŞ-ın 2015-ci ilin aprelində İran hökuməti ilə "Nüvə Çərçivə Sazişi", həmin ilin iyulunda isə "Uzunmüddətli Birgə Mütəşəkkil Fəaliyyət Planı" (JCPOA) sənədini imzalaması B.Netanyahu hökümətinin narazılığı ilə qarşılanmışdı.

Obama administrasiyası Suriya və İraqdakı İD (İD-2014-cü ilədək İŞİD adlanmışdır) təhlükəsinə qarşı Suriya kürdlərinin köməyindən istifadə etməklə və onları hərbi cəhətdən dəstəkləməklə Türkiyə hökuməti ilə də münasibətlərin korlanmasına səbəb olmuşdu. Eyni zamanda ABŞ-ın R.T.Ərdoğan hökümətini 2016-cı ilin iyulunda devirməyə cəhd etmiş Fətullah Güləni Türkiyənin tələbinə rəğmən ekstradisiya etməməsi də iki ölkə arasındakı münasibətlərə mənfi təsir göstərmişdi.

B.Obamadan sonra hakimiyyətə gəlmiş D.Tramp Yaxın Şərq siyasəti kontekstində həyata keçirdiyi tədbirlərlə ABŞ-ın region ölkələri ilə

münasibətlərinin daha fərqli ampulada davam edəcəyini sübut etmişdir.

**ABŞ-ın Yaxın Şərq siyasətində yeni təmayüllər**. 2016-cı il prezident seçkilərində qalib gəlmiş Respublikaçı namizəd Donald Tramp son 4 il ərzində demək olar ki, Obama administrasiyasının Yaxın Şərqlə bağlı həyata keçirdiyi bütün tədbirlərə tənqidi yanaşmış, onları dəyişdirmiş, bu da öz növbəsində ABŞ-Türkiyə-İsrail münasibələrinə təsirsiz ötüşməmişdir. D.Tramp prezidentlik dövrünün ilk illərindən Əfqanıstan və İraq əməliyyatlarına fərqli münasibət bəsləmişdir. Belə ki, ABŞ-ın yeni prezidentinin Əfqanıstan müharibəsi ilə bağlı ***"Gərək, qüvvələrimizi buradan daha tez çıxarardıq..."***, İraq əməliyyatı ilə bağlı isə ***"Gərək bu müharibəni ümumiyyətlə başlamazdıq..."*** söyləməsi D.Trampın daha çox nəticə ilə maraqlandığını, ortaqları qarşısındakı məsuliyyətdən daha çox praqmatizmi yüksəkdə tutduğunu, habelə maliyyə qazancının onun üçün demokratiyadan daha vacib olduğunu söyləməyə əsas yaratmışdır [1, 9].

**Donald Tramp administrasiyasının Türkiyə və İsraillə münasibətləri.** D.Tramp administrasiyası dövründə ziddiyyətlərin aradan qaldırılmasına səy göstərilməsinə rəğmən ABŞ-ın Türkiyə ilə gərgin münasibətləri davam etmişdir. Bu gərginliyin əsasını isə Türkiyə hökümətinin Rusiya ilə hərbi-strateji tərəfdaşlığı təşkil etmişdir. Belə ki, hələ Obamanın prezidentliyi dövründə ABŞ-ın Türkiyə ərazisindən "Patriot" raket kompleksini yığışdırmasından sonra, Ərdoğan höküməti Rusiya ilə 2,5 milyard dollar dəyərində S-400 zenit raket kompleksinin alınması ilə bağlı razılaşma imzalamışdı [2]. Türkiyənin orbitindən kənara çıxmasına yol vermək istəməyən ABŞ isə Ərdoğan hökümətini F-35 təyyarəsinin istehsalı ilə bağlı hərbi əməkdaşlıq konsorsiumundan çıxarmaqla və ona qarşı sanksiyalar tətbiq etməklə "itaətkar" müttəfiqini geri qaytarmağa cəhd etmişdir. Lakin son zamanlarda baş vermiş hadisələrin gedişi onu göstərir ki, ABŞ-Türkiyə münasibətlərini əvvəlki vəziyyətinə qaytarmaq heç də asan olmayacaqdır. Belə ki, S-400-lərdən başqa "Türk axını" adlı Avropanı maye-qazla təmin edəcək qaz kəməri barədə Rusiya hökuməti ilə razılığa gəlmiş Türkiyə üçün hələ də Suriya ərazisindəki kürd birləşmələrini və ölkəsindəki FETO-çuları dəstəkləyən ABŞ-la münasibətlər artıq etibarsızlıq və antoqonizm dövrünə qədəm qoymuşdur [8].

İsraillə münasibətlərə gəldikdə isə Tramp administrasiyası B.H.Obama dövründə iki ölkə arasındakı münasibətlərin korlanmasına səbəb olan bir çox məsələdə yenidən yəhudi dövləti ilə eyni mövqedən çıxış etmişdir. Məsələn, İranla nüvə məsələsində prezident D.Tramp Obama dövründə imzalanmış sazişləri ləğv etmiş, ABŞ-ın 2015-ci ildə imzaladığı JCPOA-dan 2018-ci ilin mayında çıxmış və İİR-ə qarşı yenidən sərt sanksiyalar tətbiq etmişdir. İsrail baş naziri B.Netanyahu isə 2017-ci ilin fevralında D.Trampla Vaşinqtonda ilk görüşündən sonra ABŞ-İsrail münasibətlərində "yeni gün"ün başladığını bildirmiş, 2020-ci ilin yanvarında isə onu "İsrailin bu günədək Ağ Evdəki ən

yaxın dostu" adlandırmışdır [4; 6, 136].

Ümumilikdə, D.Trampın İsrailmeylli siyasəti özünü daha çox ABŞ-ın bu dövrdə Ərəb-İsrail münaqişəsi və Fələstin problemi ilə bağlı siyasətində biruzə vermişdir. D.Tramp administrasiyasının münaqişə ilə bağlı İsraillə siyasətlərinə müsbət təsir etmiş qərarları aşağıdakılar olmuşdur:

- ABŞ 2017-ci ilin dekabrında Qüdsü İsrailin paytaxtı olaraq tanıdı və 2018-ci ilin mayında səfirliyini Qüdsə köçürdü;
- Administrasiya 2018-ci ilin avqustunda Fələstin qaçqınlarına yardımı, həmin ilin sentyabrında isə İordan çayının Qərb sahili və Qəzza bölgəsinə FY2017 proqramı çərçivəsində göstərilən iqtisadi yardımı dayandırdı;
- ABŞ 2019-cu ilin martında BMT TŞ-nın 242 saylı qətnaməsini və II Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hüquq normalarını pozaraq Suriyaya məxsus olan və 1967-ci ildə İsrail tərəfindən işğal edilmiş Colan təpələri üzərində İsrailin suveren hüququnu tanıdı;
- ABŞ Dövlət katibi M.Pompeo 2019-cu ilin noyabrında bildirdi ki, ABŞ administrasiyası 1978-ci ildə Dövlət Departamenti tərəfindən elan olunmuş və İordan çayının Qərb sahilində salınmış yəhudi məskənlərinin beynəlxalq hüquq normalarına zidd olması ilə bağlı qərarı ilə razı deyil;
- Prezident D.Tramp 2020-ci ilin yanvarında Fələstin probleminin həlli ilə bağlı yeni sülh planını açıqladı (Plan "Sülh görüşü" və ya "Çiçəklənmə üçün sülh" adlanırdı). Ümumilikdə, İsrailin mənafeyinə uyğun olan bu plana əsasən, İordan çayının Qərb sahilinin 30%-i və İordaniya vadisinin mütləq əksəriyyəti Qüdsün böyük hissəsi daxil olmaqla İsrailə verilməli, Qəzza sektoru və İordan çayının Qərb sahilinin 70%-ni əhatə etməklə və Əbu-Dis və ya Şərqi Qüds paytaxt olmaqla hərbsizləşdirilmiş Fələstin dövləti yaradılmalı idi [9; 10].



ABŞ prezidenti D.Tramp Colan təpələri üzərində İsrailin suveren hüququnu tanıyır. 25 mart 2019-cu il.

ABŞ-ın Yaxın Şərq sülh prosesində tutduğu bu mövqe öz növbəsində Türkiyə-İsrail münasibətlərinin də yenidən gərginləşməsinə səbəb olmuşdur. Birləşmiş Ştatların Qüdsü İsrailin paytaxtı kimi tanıması qərarına qarşı BMT Baş Assambleyasının isə 21 dekabr, 2017-ci il tarixində məhz Türkiyə və Yəmənin tələbilə ABŞ-ın Qüdsü İsrail paytaxtı kimi tanıdığı qərarının əksinə olaraq qanun layihəsi hazırlaması (layihəyə ABŞ tərəfindən veto qoyulmuşdur) Türkiyə-İsrail münasibətlərini yenidən kölgələmişdir. Türkiyə Fələstin xalqına dəstək verməyə davam etmiş, Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyinin Qəzza bölgəsində 2011-ci ildən bünövrəsini qoyduğu Türkiyə - Fələstin Dostluq Xəstəxanasının tikintisini 2017-ci ilin dekabrında yekunlaşdırmış, Mənzil İnkişafı İdarəsi Rəhbərliyinin 2014-cü ildə tikməyə başladığı 320 mənzil isə elə qeyd olunan vaxtda (2017-ci ilin dekabrında) fələstinlilərə təhvil vermişdir [3].

25 sentyabr 2017-ci ildə İraqda Şimali Kürdistanın müstəqiliiyi ilə bağlı keçirilmiş və Yaxın Şərq regionunda status-quonu çətinləşdirən referendumun BMT müstəvisində müzakirəsi zamanı region ölkələrinin əksəriyyəti (Türkiyə, İran, SƏK, Suriya əleyhinə, İordaniya isə neytral olmuşdur) Kürdistanın müstəqil olması ilə bağlı qərara etiraz etsələr də, bircə İsrailin referendumun nəticəsini dəstəkləməsi 2011-ci il böhranından sonra onsuz da əvvəlki strateji tərəfdaşlıq münasibətlərinə qayıda bilməyən Türkiyə-İsrail əlaqələrini daha da gərginləşdirmişdir [7]. 2018-ci ilin martında fələstinlilərin "Böyük Dönüş Yürüşü"nə qatılması və İsrailin mülki şəxslərə güc tətbiq etməsi nəticəsində İsrailin Türkiyədəki səfiri Xarici İşlər Nazirliyinə çağırılmış və 15 may 2018-ci il tarixindən etibarən iki dövlət arasındakı əlaqələr müvəqqəti işlər vəkilliyi səviyyəsində həyata keçirilməyə başlamışdır.

**Yekun.** Beləliklə, məqalədə nəzərdən keçirilmiş məsələlərdən də göründüyü kimi, D.Tramp sələfi B.Obama administrasiyasından fərqli olaraq, Türkiyə kimi geostrateji dövləti itirməmək üçün, aralarındakı narazılıqlara baxmayaraq, Ərdoğan hökuməti ilə ortaq fikrə gəlməyə çalışır və iki dövlət arasındakı münasibətlərin korlanmasında isə məhz B.Obama administrasiyasını günahlandırır. Bununla yanaşı, ABŞ prezidenti Yaxın Şərq siyasəti zəminində daha çox İsrail dövlətinin maraqlarını nəzərə alaraq, siyasət həyata keçirir. Bunu ABŞ-ın təşəbbüsü ilə İsraillə Ərəb dövlətləri arasındakı münasibətlərdə yeni dövrün başlanması göstərir.

Körfəz ölkələri arasında ilk dəfə, ərəb ölkələri arasında isə üçüncü olaraq (Misir və İordaniyadan sonra), Birləşmiş Ərəb Əmirliklərinin İsrail dövləti ilə 13 avqust 2020-ci ildə sülh müqaviləsi imzalaması, həmin ilin sentyabrında BƏƏ-İsrail arasında hava uçuşlarının açılması və Səudiyyə Ərəbistanı Krallığının öz hava sahəsindən istifadə edilməsinə etiraz etməməsi məhz Tramp administrasiyasının səyi nəticəsində reallaşdırılmışdır. Təsadüfi deyil ki, 01 sentyabr 2020-ci il tarixdə İsraildən BƏƏ-yə uçan ilk təyyarənin sərnişinləri

D.Trampın kürəkəni və baş məsləhətçisi J.Kuşner və İsrailin Milli Təhlükəsizlik üzrə müşaviri M.Ben-Şabbatın daxil olduğu ABŞ-İsrail nümayəndə heyəti olmuşdur [5].

## Ədəbiyyat


1. Безруков А.Е. Дональд Трамп: Профессиональный профиль нового президента США / А.Е. Безруков, О.Ребро, А.Сушенцов // Международный дискуссионный клуб Валдай, - Январь 2017, - 16 с.
2. Братерский, А. Сделка на $100 млрд: Трамп подкупает Эрдогана: [Электронный ресурс] / - 13 Ноября 2019. URL: https://www.gazeta.ru/politics/2019/11/13_a_12809894.shtml
3. Geldi, M. Türk heyeti, "Filistin-Türkiye Dostluk Hastanesi"nde incelemelerde bulundu: [Elektronik kaynak] / -21 Aralık 2017 URL:https://www.aa.com.tr/tr/dunya/turk-heyeti-filistin-turkiye-dostluk-hastanesinde-incelemelerde-bulundu/1010626
4. Gilboa, E. Trump: The Most Pro-Israel President in American History: [Electronic resource] / - July 8, 2020. URL:https://spectator.clingendael.org/en/publication/trump-most-pro-israel-president-american-history
5. İsrael and UAE in historic direct flight following peace deal: [Electronic resource] / - September 1, 2020. URL: https://www.bbc.com/news/world-middle-east-53971256
6. Карасова, Т.А. Новая страница в израильско-американских отношениях. Д.Трамп: ожидания, надежды и опасения // - Москва: Контуры глобальных трансформациях: политология, экономика, право, - 2017, 10 (2), - с.128-142.
7. Крохолов, Ю.Ю. Проблема курдской государственности в международных отношениях конца XX-начала XXI в. [Электронный ресурс] / Екатеринбург, 2018. – 88 с. URL: https://core.ac.uk/download/pdf/159631967.pdf
8. Ялчин, Р. «Турецкий поток» усилит геополитические позиции Анкары и Москвы – эксперт: [Электронный ресурс] / - 7 Января 2020. URL: https://eurasia.expert/turetskiy-potok-usilit-geopoliticheskie-pozitsii-ankary-i-moskvy-ekspert/
9. Zanotti, J. Israel: Background and U.S. Relations in Brief: [Electronic resource] / Congressional Research Service/ - August 10, 2020. URL: https://fas.org/sgp/crs/mideast/RL33476.pdf
10. Ziadeh, R. Trump and the Occupied Syrian Golan Heights: [Electronic resource] / - March 25, 2019. URL:http://arabcenterdc.org/viewpoint/trump-and-the-occupied-syrian-golan-heights/

# HERALDİKANIN PREDMETİ VƏ ELEMENTLƏRİ

***Afiq Nəsrəddin oğlu Abdullayev***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***afigabdullayev@mail.ru***

**Açar sözlər:** *heraldika, simvol, bayraq, sancaq, skeptr, fors, tuğ*

*Məqalədə heraldika elminin tədqiqat sahələrindən, heraldikanın elementlərindən və simvolik xarakter daşıyan maddi mədəniyyət nümunələrindən, onlarda olan simvollardan istifadə edilir. O cümlədən, bayraqlardan və sancaqlardan bəhs edilməklə yanaşı, bu sahədə istifadə edilən bəzi terminlərin izahı verilir. Məlum olduğu kimi, simvollar həm də heraldikanın əlifbası sayılır. Müasir dünyada heraldika elmi demək olar ki, bir çox başqa sahələrə də sirayət etmişdir.*

## ПРЕДМЕТ И ЭЛЕМЕНТЫ ГЕРАЛЬДИКИ

**Афиг Абдуллаев**

**Ключевые слова:** *геральдика, символ, флаг, штандарт, скептре, форс, туг*

*В статье описывается о областях исследований геральдики, элементах геральдики и образцах материальной культуры носящих символический характер, в том числе флагах и штандартах, дается объяснение некоторых терминов, используемых в этой области. В образце любой материальной культуры входящей в область исследования геральдики используются символы. Потому что символы также считаются алфавитом геральдики. В современном мире наука о геральдике распространилась почти на многие другие сферы.*

## OBJECT AND ELEMENTS OF HERALDIC

**Afig Abdullayev**

**Key words:** *heraldic, symbols, flag, standart, skeptre, furs, tug*

*The article deals with research areas of heraldic science, elements of heraldic and symbolic examples of material culture, including flags and standarts, and explains some terms used in this area. Symbols are used in any material culture pattern included in the research area of heraldic. Because the symbols are also considered the alphabet of the heraldic. In the modern world, heraldic science has spread to many other areas.*

Məlum olduğu kimi, heraldika elmi tarix elminin köməkçi bölmələrindən biridir. Belə ki, tarix elmi üçün əlavə məlumatların araşdırılmasında və öyrənilməsində heraldika elminin rolu az deyil. Heraldika elmi mahiyyət etibarilə insanların məfkurəsinə, ideologiyasına, mifologiyasına, mədəniyyətinə və mənsubiyyətinə aid məlumatları araşdırmağa və aşkarlamağa yönəlmiş elmi tədqiqat sahəsidir [1, s.46]. Qeyd etmək lazımdır ki, üzərində simvolik xarakter və ya rəmzi əlamət daşıyan bütün maddi mədəniyyət nümunələri heraldikanın predmetinə və ya tədqiqat sahəsinə daxildir: sancaqlar, bayraqlar, damğalar, döymələr, bullalar, möhürlər, monetlər, markalar, medallar, rozetlər, ordenlər, gerblər, emblemlər, amuletlər, talismanlar, ekslibrislər, uniformalar, monoqramlar, anaqramlar, əşyalar, alətlər və s.

Heraldikanın elementləri dedikdə isə biz, əsasən hər hansı simvolik xarakter və ya rəmzi əlamət daşıyan fiqurları, ornamentləri, atributları, petroqlifləri, piktoqramları, ideoqramları, qrafemləri, işarələri, rəqəmləri, hərfləri, rəngləri, daşları, metalları və təsvirləri (həndəsi, astral, nəbati, insani, heyvani və s.) nəzərdə tuturuq. Bunlar heraldikanın elementləri olmaqla, həm də heraldikanın əlifbası sayıla bilər. Yəni heraldika sahəsində istifadə edilən bütün elementlər özlüyündə heraldikanın əlifbası kimi də qəbul edilir [11, c.9].

“Simvol” latınca “symbolum” sözündən götürülüb, ümumi mənada “anlatma işarəsi, tanıtma işarəsi” kimi mənalar verir [3, s.91]. Həmçinin, əlavə olaraq, qeyd etmək lazımdır ki, simvol sözü latın dilindən öncə yunan dilində istifadə edilib. “Simvol” yunan dilində “symbollon” kimi ifadə edilir, “uyğunlaşdırma və ya birləşdirmə” kimi mənalar daşıyır [8, c.42]. Hələ qədim Yunanıstanda uzaq məsafələrə gedən tacirlər koloniyalardakı ticarət müttəfiqləri ilə aralarında sazişin olmasına dair sübut olaraq üzərində təsvir olan bir saxsı lövhəsini iki hissəyə bölürdü ki, onları birləşdirəndə bütöv bir təsviri olan saxsı lövhəsi ortaya çıxırdı [15, c.9]. Daha sonralar üzərində təsvir olan bu cür saxsı lövhələr başqa məmulatlar ilə əvəz olunsa da, onlara verilən “symbollon” sözü olduğu kimi saxlanılmışdır.

“Rəmz” sözü isə ərəbçə “rumuz” sözündən götürülüb, simvol sözü ilə eyni mənanı ifadə edir. Əgər biz simvolun tərifini bir cümlə ilə ifadə etsək, simvol (rəmz) hər hansı konsepti (məfhumu) ifadə edən işarələrdir. Hər bir konseptin izahı yalnız həmin məfhumun mənsub olduğu ideologiya, mifologiya və qneseologiya haqqında məlumatlı olmağımız ilə mümkündür. Bunun üçün

də biz simvolu “oxuyarkən” mütləq bu simvolun təmsil etdiyi konseptin arxasında gizlənən mücərrəd məfhumu da araşdırmalıyıq və aydınlaşdırmalıyıq. Bəzən metaforik və alleqorik obrazlar vasitəsilə də simvolik məlumatlar öz əksini tapır. Bu zaman simvolu “oxuyarkən” həmin obrazın xüsusiyyətlərinə nəzər yetirmək lazımdır.

Fransız tədqiqatçısı M.Sone qeyd edir ki, simvollar bəzən bizə “nə olub və nə olmalıdır” fikrini çatdırır [9, c.10]. Türkiyəli tədqiqatçı N.Ərsoy isə simvolların tərifini verərkən onları “səssiz danışma dili” və ya “şifrələnmiş dil” adlandırır [5, s.9,11]. Digər bir tədqiqatçı Q.Biderman simvolları “mənəvi həyatın idrakı üçün açar” kimi qiymətləndirir [10, c.6].

Əgər nəzərə alsaq ki, bəşər cəmiyyətinin ilk danışıq dili qayalara və daşlara həkk edilmiş bir mənada həm də simvollar sayılan petroqriflər ilə başlayır, zamanla inkişaf nəticəsində petroqliflər piktoqramlara və ideoqlaramlara çevrilir, onlar isə öz növbəsində qrafemlərlə əvəz olunur, deməli, bəşər tarixinin ilk yazı dili simvollar olmuşdur. Nəticə etibarilə, bəşər cəmiyyəti ilk dəfə yazı dili kimi simvolları icat etmişdir.

Simvolları təmsil etdikləri məfhuma görə iki qrupa bölmək olar:

1. Sakral (gizli) simvollar;
2. Pablik (rəsmi) simvollar.

Sakral simvollar adətən hər hansı təşkilatın, təriqətin məxfi məfkurəsini təmsil edir. Bunlar həmin təriqət və ya təşkilatın yalnız rəhbərləri, mənsubları tərəfindən qəbul edilir və dərk edilir. Bəzən bu cür sakral simvolların mistik təsiri olduğuna da inanılır. Onlar görünən maddi aləm ilə görünməyən qeybi aləm arasında keçirici təsirə malik olduğunu qeyd edirlər [4, s.10]. Ümumiyyətlə, okultizm tərəfdarları hesab edir ki, sakral simvollar mistik enerji yayır və onları müşahidə etmək insanın aurasına, fikirlərinə, hislərinə, hərəkətlərinə hər hansı metafizik təsir edir.

Pablik simvollar hamı tərəfindən idrak edilməsi mümkün olan ümumi məfhumları təmsil edir.

Bir daha qeyd etmək lazımdır ki, simvollar və ya rəmzlər heraldika elminin tədqiqat sahəsinə daxil olan maddi mədəniyyət nümunələrinin üzərində olan heraldik elementlərin araşdırılmasında və öyrənilməsində də əlifba rolunu oynayır.

Heraldika elmində sancaqların və bayraqların tədqiqinə xüsusi diqqət yetirilir. Təsədüfi deyil ki, heraldika deyiləndə, əksər şəxslərin fikrində sancaqlar, bayraqlar, gerblər və s. canlanır.

**Sancaq** – bu söz türkçə “sancmaq” sözündən götürülmüşdür. Tarixə nəzər salsaq görərik ki, sancaqlar əslində mənşə baxımından nizələrin törəməsidir. Hələ Üst Paleolit dövründə insanlar sivri uclu ağac çubuqlardan ağacda olan meyvələri toplamaqda, həmçinin heyvanların ovlanmasında silah kimi istifadə ediblər. Lakin daha sonra Mezolit dövründə biz artıq sivri uclu

ağac çubuqların təkmilləşərək nizə şəklini almasını müşahidə edirik. İbtidai nizələrin saplağı ağacdan, ucluğu isə Mezolit və Neolit dövründə daşdan, Tunc dövründə isə metaldan hazırlanırdı. Arxeoloji materiallar əsasında daha sonralar məlum olur ki, bəzi nizələr bütünlükdə metaldan hazırlanıb. Son Tunc və İlk Dəmir dövründə isə bu nizələrin bəzilərinin başlığının və gövdəsinin simvolik xarakter və ya rəmzi əlamət daşıması üçün müxtəlif heraldik element formasında düzəldilməsi diqqəti cəlb edir. Məsələn, e.ə. XIII əsrdə qədim Assuriya hökmdarı Tukulti-Ninurta dövrünə aid kitabədə əlində nizə tutan və nizənin başında səkkiz guşəli Günəş rəmzi olan halqa təsvir edilmişdir [2, s.42-43].



Daha sonralar bu sancaqların forması dəyişdirilmiş, bəzən toppuz, sopa, tuğ və hətta əsa kimi formalara salınmışdır. Heraldikada bu cür simvolik xarakter daşıyan toppuzlara bəzən “fors” da deyilir və hakimiyyət rəmzi sayılır. Üzərində lent, bant, tük və s. bəzək əşyaları əlavə edilmiş bu cür əsalar da tarixdə müxtəlif formalarda qeydə alınmış və “skeptron” adlandırılmışdır.

Skeptron-üzərində heraldik elementlərin də istifadə edildiyi əsadır. “Skeptron” sözü yunan dilində “skeptre” sözündən götürülüb, hərfi mənası “güvənmə” demək olsa da, ümumi mənası “əsa” kimi tərcümə edilir. Bu cür hakimiyyət rəmzi olan əsalar ilk dəfə qədim Misirdə istifadə edilmişdir [14, c.9].



"Tuğ"sözü türkçə kəlimədir. Altay xalqları tuğa bəzən "boncuq (muncuq)" da deyirlər və tuğ atın quyruğu ilə oxşar məna daşıyır [2, s.46]. Türk xalqlarında tuğ üçün əsasən totemik simvol olan heyvanın tüklərindən istifadə edirdilər. Tuğda bəzən at, qoyun, keçi, öküz tükü və s. ola bilərdi. Qədim türklər "Tibet öküzünün" quyruğundan istifadə etsələr də, bu heyvanın nəsli kəsildikdən sonra at quyruğundan istifadə etmişlər [7, s.211].

Azərbaycan Milli Tarix Muzeyinin inventarında olan Gəncə xanlığına aid tuğ xüsusilə maraqlıdır. Bu tuğ hakimiyyət rəmzi olmaqla bərabər, həm də qədim türk xalqlarına görə Göy və Yer arasında əlaqəni təmsil edir.



Ümumiyyətlə, tarixdə sancaqlar və onun təkmilləşərək müxtəlif formalara düşmüş növlərinin dini, hərbi, mülki, nəsli, hətta milli mənsubiyyət bildirməsini müşahidə edirik.

**Bayraq** – qədim türk sözüdür. "Batırmaq" sözündən götürülüb. Belə bir iddia var ki, "bayraq" sözü qədim türk dilində "batraq" sözünün təhrif edilmiş

ifadəsidir. “Batraq” kimi ifadə edilən əşya, üzərində ipək parça bağlanmış sopaya deyilirdi [12, c.79-89]. Belə bir ehtimal irəli sürmək olar ki, bayraq sözü türkmən dilində sancaq sözünün qarşılığı olan “baydaq” sözündən götürülüb [6, s.57].

Tarixdə ilk dəfə bayraqlara İranın Xabisə ərazisində e.ə. III minilliyin sonuna aid metal lövhə üzərində qartal, öküz, iki şir və üç tanrıça təsvirləri olan artefaktda rast gəlinib [16, c.5]. Bundan başqa, e.ə. XIII əsrdə qədim Misirdə III Ramzesin dövrünə aid gəmilərin təsvirində bayraqlara rast gəlinir [13, c.5]. Lakin zamanla bayraqlar da təkamül edərək müxtəlif formalar halında təzahür etmişdir. Elmi ədəbiyyatda müxtəlif formalı bayraqlara verilən müxtəlif adlar vardır. Məsələn, üçbucaqlı və ya dördbucaqlı bayraqlar - flaq (ing. “flag”), lentvari və ya saçaqlı bayraqlar - oriflama (ing. “oriflamme”- “qızıl alov”), uzunsov bayraqlar - vimpel (ing. “wimpel”), müqəddəs şəxslərin təsvirləri olan bayraqlar - xoruqva (ing. “khorugv”) kimi adlanan müxtəlif bayraq növləri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir.

Bayraq dəridən, parçadan və ya hər hansı yumşaq materialdan hazırlanmalıdır ki, dalğalana bilsin. Bayraqlar da rəmzi məlumatların əks olunduğu heraldik elementlər daşıyır və bu elementlərin bayrağı hazırlayan şəxslər tərəfindən müxtəlif izahı və şərhi olur. Adətən bayraqlar və sancaqlar bir bütünlük təşkil edir və birlikdə istifadə edilir. Məhz buna görə də çox vaxt xalq arasında sancaq deyiləndə bayraq, bayraq deyiləndə sancaq nəzərdə tutulur. Əksər müəlliflər bayraqların məhz sancaqların davamı kimi, sancaqların təşəkkül etmiş forması olduğunu qeyd edir [16, c.5]. Bayraqları və sancaqları öyrənən elm sahəsi isə Veksillologiya (latınca “vexillum”(bayraq) və yunanca “logos”(təlim)) adlanır.

## Ədəbiyyat


1. Abdullayev A.N. Heraldika və onun inkişaf tarixi. “Tarix, insan və cəmiyyət” jurnalı, № 4(27). Bakı, 2019
2. Ahmedov S. “Türk halklarında devlet ve hakimiyet sembolleri: sancak, bayrak, tuğ”. “İrs” dergisi, № 2(14). İstanbul, 2015
3. Altunay E. Paganizm. c. I. İst. 2015
4. Dharma ansiklopedi dizisi – Semboller c. I cilt. İstanbul, 2009
5. Ersoy N. Semboller ve yorumlar. İstanbul, 2000
6. Karşılaştırmalı türk lehçeleri sözlüğü. Ankara, Başbakanlık basımevi, 1991, c. I, 1183 s.
7. Soysal. M.E. Tarihsel süreçlerde bayrak ve sancaklarımız. Türkiyat Araştırmaları Enstitüsü Dergisi, A.Ü. Erzurum, 2010
8. Абдуллин А.Р. Культура и символ. Уфа, 1999

9. Бауэр В., Дюмотц И., Головин С. Энциклопедия символов. М.1998
10. Бидерманн Г. Энциклопедия символов. М., 1996
11. Драчук В.С. Рассказывает геральдика. М., 1977
12. Древнетюркский словарь. Ленинград, 1969
13. Мамаев К.К. Флаги рассказывают. Л.1971
14. Медведев М. Геральдика или истинная наука о гербах. СПб., 2008
15. Свирепо О.А., Туманова О.С. Образ, символ, метафора в современной психотерапии. М., 2004
16. Спаткай Л.В. Геральдика стран мира (Европа). Минск, 2005

# ERMƏNİLƏRİN QUZEY AZƏRBAYCANA KÖÇÜRÜLMƏSİ MƏSƏLƏSİ XIX ƏSR RUSİYA TARİXŞÜNASLIĞINDA

***Naibə Əhmədova***
ADPU,Azərbaycan tarixi kafedrası
naiba.ahmedova@mail.ru

**Açar sözlər**: *rus tarixşünaslığı, erməni məsələsi, köçürülmə, Cənubi Qafqaz,*

*Məqalədə XIX və XX əsrin əvvəllərində rus tarixşünaslığında ermənilərin Azərbaycan ərazisinə köçürülməsi məsələsindən bəhs edilir. XIX əsrin birinci yarısında tanınmış rus yazıçısı A.S.Qriboyedovun "Ermənilərin Persiyadan bizim vilayətlərə köçürülməsi haqqında" qeydləri, XIX əsrin birinci yarısında rus yazıçısı, tarixçisi və memuaristi S.Qlinkanın "Ermənilərin Azərbaycandan Rusiyaya köçürülmələri", XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiyada ictimai-siyasi xadim N.N.Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə: Muğanın özgə xalqlara nöbbəti satışı", XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yaşamış tarixçi, publisist, ictimai xadim V.Veliçkonun "Qafqaz. Rus işi və tayfalararası məsələlər" əsərləri problemlə bağlı məsələlərə aydınlıq gətirir və onlar xüsusi maraq kəsb edir. Çünki bu müəlliflər əsrdə cərəyan edən tarixi proseslərin içində olmuş, müşahidə etmiş, izləmiş və ona münasibət bildirmişlər.*

# ВОПРОС О ПЕРЕСЕЛЕНИИ АРМЯН В СЕВЕРНЫЙ АЗЕРБАЙДЖАН В РУССКОЙ ИСТОРИОГРАФИИ XIX ВЕКА

Наиба Ахмедова

**Ключевые слова**: *российская историография, армянский вопрос, переселение, Южный Кавказ*

*Статья посвящена переселению армян в Азербайджан в русской историографии XIX - начала XX веков. Известный русский писатель А.С.Грибоедов в первой половине XIX века «О переселении армян из Персии в наши края», в первой половине XIX века русский писатель, историк и мемуарист С.Глинка «Переселение армян из Азербайджана в Россию», во второй половине XIX - начале XX вв. политический деятель Н.Н.Шавров «Новая угроза русскому бизнесу на Кавказе: очередная продажа Мугани другим народам», историк второй половины XIX -*

*начала XX века, публицист, общественный деятель В.Величко «Кавказ. Российские дела и межплеменные вопросы» разъясняет вопросы, связанные с проблемой, и представляет особый интерес. Потому что за этими авторами наблюдали, наблюдали и комментировали исторические процессы, происходящие в работе.*

## THE PROBLEM OF RESETTLEMENT OF ARMENIANS TO NORTHERN AZERBAIJAN IN RUSSIAN HISTORIOGRAPHY OF THE XIX CENTURY

**Naiba Ahmadova**

**Key words**: *russian historiography, armenian question, resettlement, South Caucasus*

The article is devoted to the resettlement of Armenians to Azerbaijan in the Russian historiography of the 19th - early 20th centuries. Famous Russian writer A.S. Griboyedov in the first half of the 19th century "On the resettlement of Armenians from Persia to our lands", in the first half of the 19th century, Russian writer, historian and memoirist S.Glinka "Resettlement of Armenians from Azerbaijan to Russia", in the second half XIX - early XX centuries. - Politician NN Shavrov "A new threat to Russian business in the Caucasus: another sale of Mugan to other peoples", historian of the second half of the XIX - early XX century, publicist, public figure V. Velichko "Caucasus. Russian affairs and inter-tribal issues ”explains the issues related to the problem and is of particular interest. Because these authors were observed, observed and commented on the historical processes taking place in the work.

Rusiya tarixşünaslığında XIX əsr - XX əsrin əvvəllərində yazılan bir sıra elmi əsərlərin mənbə bazasını Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı 12 cildlik sənədlər toplusu təşkil edir. Məşhur qafqazşünas alim Adolf Berjenin redaktəsi ilə hazırlanaraq 1866-cı ildən Tiflisdə çap olunan bu toplularda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın Baş komandanı və hakimlərinin hesabatları, raportları, məktub və reskriptləri və s.) yanaşı, statistik materiallar, qeyri-müsəlmanların Azərbaycan torpaqlarında yerləşdirilməsi, çar hökumətinin azərbaycanlılara qarşı həyata keçirdiyi siyasi, dini, milli bərabərsizlik və s. kimi problemlər də öz ifadəsini tapmışdır. Toplanılan sənədlər böyük elmi əhəmiyyət daşımaqla yanaşı, yanlış fikirlərdən, qeyri-dəqiq məlumatlardan da xali deyildir.

XIX əsrin birinci yarısında tanınmış rus yazıçısı **A.S.Qriboyedov** öz ermənipərəstliyi ilə seçilirdi. O, Qacar dövlətində çar Rusiyasının səfiri olmuş, şahidi olduğu, gördüyü, eşitdiyi hadisələri qələmə almışdır. Müəllif çox hallarda hadisələrə obyektiv yanaşmasa da, onun siyasi xarakterli məqalələri XIX əsr tariximizi öyrənmək baxımından maraqlıdır.

A.Qriboyedov ”Rus eiçiliyi Persiyada” adlı məqaləsində (fransızcadan ruscaya tərcümə edilmişdir) göstərir ki, Persiyaya rus diplomatik missiyasında daimi çalışmaq üçün Tiflisdən yola düşür, Təbrizdə şahzadə Abbas Mirzə tərəfindən fövqəladə dərəcədə təntənə ilə qarşılanır, sonra Tehrana gəlir, burada elçilər heyəti eyni hörmətlə qarşılanır. Şah (Fətəli şah – N.Ə.) rus elçi heyətinin üzvlərini tez-tez saraydakı bayramlara və qoşunların paradına dəvət edir, səlahiyyətli müvəkkil Mazaroviç və digər rus məmurları ilə dostcasına söhbət edir [1,s.385]. Heç şübhəsiz ki, bütün bunlar iki imperiya arasındakı mehribanlığın, həmrəyliyin sübutudur. A.Qriboyedov yazır ki, o Tiflisdən səfir təyin olunduğu ölkəyə (Persiyaya) öz heyəti ilə yola düşür. Bu, qış vaxtına təsadüf edirdi. Yolda Erivan sərdarı çox gözəl bir səhər yeməyinə onu qonaq edir. Orada, hətta oturmaq üçün stol və stul var idi. Hər yerdə bizi xoş nəvazişlə qarşılayırdılar. Lakin A.Qriboyedov bilərəkdən və ya bilməyərəkdən onların hansı xalqın nümayəndəsi olduğunu demir [1, s.385]. O, qeyd edir ki, onun elçi heyəti Təbrizə yaxınlaşan zaman şahzadə Abbas Mirzə onları qarşılamaq üçün üç dəfə mühafizə dəstəsi göndərdi. Onları şahzadənin birinci naziri (qaimməqam) Mirzə Bozorq və bəylərbəyi, Təbriz səhərinin qubernatoru adından salamladılar. Nazir dərviş Mirzə Bozorq məni bütün heyətlə birlikdə günorta yeməyinə dəvət etdi. Biz süfrəyə Avropa qaydasında oturduq. O, fars adət-ənənələrinə əməl edir, xristian adətlərinə isə açıq düşmən idi. Toplardan açılan atəş bizim şahzadənin paytaxtına (Təbrizə) girməyimizi xəbər verdi. Sonra da biz onun qəbulunda olduq [1, s.386]. Abbas Mirzə məktubu oxuyub, məni yenidən görməyinə şad olduğunu bildirdi. O, imperator həzrətlərini təriflədi, onun gözəl xarakteri olduğunu qeyd etdi.

A.Qriboyedov Abbas Mirzəyə çatdırır ki, Gülüstan traktatına Rusiyanın əməl etdiyi kimi, Müqəddəs imperator ümid edir ki, Persiya da onun şərtlərinin toxunulmazlığına əməl edəcəkdir. Müəllif yazır ki, səhəri gün Tehrana yola düşdük. Novruz bayramı ərəfəsində 14 gündə 500 verst yol qət edərək, Tehrana gəldik. Ertəsi gün şahın qəbuluna getdim. Məni şahın general adyutantı və kürəkəni Əliyar xan müşayiət etdi [1, s.387]. Ona bir səfir kimi məktub təqdim etdim. A.Qriboyedov Təbrizdə Abbas Mirzənin, Tehranda isə Fətəli şahın sarayının daxili gözəlliyini və saray adət-ənənələrini təsvir edir.

Yuxarıda yazılanlara aydınlıq gətirərək, onu qeyd etmək lazımdır ki, İranda daimi diplomatik missiyanın təyin edilməsi haqqında fərman 1828-ci il aprelin 15-də verilmiş, A.Qriboyedova Persiyada (İranda) nazir-rezident vəzifəsi həvalə olunmuşdur. Sentyabrın 9-da missiyanın bütün ştatı Təbrizə

yola düşmüş və oktyabrın 6-da ora çataraq ratifikasiya fərmanını (Türkmənçay müqaviləsi) Abbas Mirzəyə təqdim etmişdir. A.Qriboyedov 1829-cu il yanvarın 29-da missiyanın bütün üzvləri ilə birlikdə Tehranda öldürülmüşdür [2, s.285].

A.Qriboyedov "Ermənilərin Persiyadan bizim vilayətlərə köçürülməsi haqqında" qeydlərində yazırdı ki, ermənilərin buraxıldığı torpaqlara (əsasən Quzey Azərbaycanı – N.Ə.) əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və (sonuncuların) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə, onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişdik. Azərbaycan torpaqlarında yerləşdirilməsindən narahat olan müsəlman əhalisinə onların bu torpaqlarda müvəqqəti məskunlaşdırılması barədə yalan məlumatlar verilirdi. A.Qriboyedov yazırdı ki, indi biz müsəlmanları düşdükləri bu çətin vəziyyətlə razılaşdırmalı, ermənilərin burada müvəqqəti qalacaqlarına onları inandırmalıyıq ki, azərbaycanlılar "ermənilərin ilk dəfə ayaqları dəyən torpaqlara həmişəlik yiyələnirlər" fikrindən daşınsınlar. O, göstərir ki, köçürülmüş ermənilərin əksəriyyəti müsəlman mülkədarlarının torpaqlarında məskunlaşdırılır və az sonra onları sıxışdırmağa başlayırdılar [1, s.388].

A.Qriboyedov Türkmənçay traktatının ayrı-ayrı maddələrinin irəli sürülməsində mühüm rol oynamışdı. F.Paskeviç qeyd edir ki, dördüncü və on üçüncü maddələr A.Qriboyedov tərəfindən "yaxşılaşdırılmış", on dördüncü maddə isə genişləndirilmişdir [3, s.644-645]. Ermənistana və təzminatın həcminə aid maddələr dəyişikliyin əsas hissəsini təşkil edirdi. Tarixi ədəbiyyatda 12, 14 və 15-ci maddələrin müəllifi A.Qriboyedov olduğu göstərilir.

Ermənilərin Güney Azərbaycanından Rusiyaya köçürülməsi məsələsi ilk dəfə olaraq XIX əsrin birinci yarısında rus yazıçısı, tarixçisi və memuaristi S.Qlinkanın "Ermənilərin Azərbaycandan Rusiyaya köçürülmələri" kitabında verilmişdir [4]. Əslində kitab Qacar (İran) dövlətinin Azərbaycan vilayətindən ermənilərin Rusiyanın yeni işğal etmiş olduğu Quzey (Şimali) Azərbaycan torpaqlarına köçürülmələri şəklində başa düşülməlidir. Əsər hadisələrdən az sonra hazırlanıb nəşr edilmişdir.

S.Qlinka yazır ki, Persiyada (Qacar dövləti) yaşayan bütün ermənilərin qəlbi, diqqəti köçürmə siyasətinə yönəldiyindən, sarsılmaz bir ruhla Rusiyaya, xaçpərəst qardaşlarına doğru can atırdılar [4, s.43]. Alman müəllif F.Neuman görünür S.Qlinkanın əsərindən istifadə edərək, 1828-ci ildə İran vilayəti olan Azərbaycandan Rusiyaya 40 min erməninin köçürülməsi və yerləşdirilməsindən bəhs edir [6]. Bu əsər hətta S.Qlinkanın əsərinin alman dilinə tərcüməsi kimi də görünür.

Çar Rusiyası öz ağalığını bütün Qafqazda möhkəmləndirmək üçün yerli əhali və Osmanlı, Qacar dövlətləri ilə süngü və top dilində danışmaqla kifayətlənməyərək, burada köklü etnodemoqrafiya dəyişikliyi yaratmağa çalışırdı. Məlumdur ki, I Pyotrun zamanından Güney Qafqazın müsəlman

toplumlarının xaçlı ermənilərlə "əvəz edilməsinə" yönəlmiş bir siyasət yeridilməkdə idi. Hətta Rusiya azadlıq hərəkatının təmsilçiləri də bu siyasətin güclü təsiri altında idilər. P.Pestelin "Russkaya Pravda" adlanan "zadəgan-inqilabçı proqramından bunu aydın görmək olar: 1.Rusiya ilə İran (Qacar-N.Ə.), həm də Türkiyə arasında ...yaşayan bütün xalqlar... tabe edilməli; 2.Bütün Qafqaz xalqları iki çeşid sayılmalıdır: dinc olanlar və quduzlar. Birinciləri yurdlarında saxlamalı, onlara Rusiya idarəsi ... vermək, ikinciləri isə Rusiyanın içərilərinə köçürüb kiçik sayla səpələmək lazımdır [5, s.671].

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiyada ictimai-siyasi xadim olan N.N.Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə: Muğanın özgə xalqlara növbəti satışı" əsərinin [7] elmi dəyəri böyükdür. Çünki bu elmi dəyəri artıran bir sıra xüsusiyyətlər vardır. Əvvəla, müəllif əsərdə cərəyan edən tarixi proseslərin içində olmuş, müşahidə etmiş, izləmiş və ona münasibət bildirmişdir. Əsərdə statistik faktların üstünlük təşkil etməsi ilə yanaşı, müəyyən məsələlərə aydınlıq gətirməkdən ötrü müəllif cədvəllər tərtib etmiş, hadisələri xronoloji ardıcıllıqla vermişdir. Bunlara baxmayaraq, N.N.Şavrov təəssüf ki, istifadə etdiyi mənbələri göstərməmiş, yalnız bir-iki müəllifin adını çəkmişdir. O, əsərdə qoyulmuş məsələlərə velikorus millətçiliyi və Rusiya imperiyasının mövqeyindən yanaşmışdır.

Əsərdə həm iqtisadi, həm də sosial-siyasi hadisələrə toxunulur. Burada işıqlandırılan məsələlər indi də aktuallıq baxımından öz dəyərini itirməyib. Əsərdə Muğan çölünün qısa təsviri, Muğanın əmələ gəlməsi, buranın iqlimi, bitki örtüyü və faunası, kənd təsərrüfatı, Muğanın ruslar tərəfindən məskunlaşmasının siyasi və iqtisadi əhəmiyyəti, buradakı rus qəsəbələri, Rusiyanın Cənubi Qafqazda məskunlaşdırma siyasəti kimi məsələlər öz əksini tapır.

Müəllif göstərir ki, Muğanın necə və nə vaxt yaranması sualına tam doğru elmi cavab vermək çətindir. Bəlli olan odur ki, Muğan bir zaman dəniz suyunun altında, Kaspi dənizinin körfəzi olmuşdur. Müəllif Muğana həyat verən su mənbələri, əsas arteriyalar olan Kür və Araz çayları haqqında da məlumat verir [7, s.8-11].

Muğandakı suvarma sisteminin tarixinə nəzər salan müəllif qeyd edir ki, təxminən 1500 il əvvəl Qubad şah (I Qubad (488-531), Sasani şahı - N.Ə.) Muğanda Gour-arx adlı arx qazdırmışdır ki, ondan Çingiz xan qoşunlarının 1220-ci ildəki yürüşünədək istifadə olunmuşdur. Monqolların yürüşü nəticəsində arx məhv edilmişdir. 1320-ci ildə italiyalı Marino Saluto xatırlayır ki, Muğanda ancaq köçərilər qışlayırdı. Tamerlanın vaxtında - 1379-1405-ci illərdə arx bərpa olunmuşdur. Nadir şahın vaxtında (1688-1747) Muğan yenə də əhali yaşamayan çölə çevrilmiş və 1828-ci ildə bu görkəmdə bizə keçmişdi. 578 ildir ki, Muğan bu vəziyyətdədir, necə ki, indi olduğu kimi. Lakin 1220-ci ilədək buralar insanların məskunlaşdığı mədəni bir ölkə olmuşdur. Bu

mədəniyyətin izləri olan suvarma arxları və 11 yaşayış məntəqəsi dövrümüzədək gəlib çatmışdır. Xüsusən, Biləsuvardan bir qədər aralıda - Bolqar çayı yaxınlığında XVIII əsrə aid bir neçə böyük qalanın xarabalıqları qalmışdır. Müəllif Muğan tarixi ilə bağlı bilikləri öyrənmək üçün K.F.Qanın "Qədim yunan və Roma yazıçıları Qafqaz haqqında" əsərindən və xüsusən, Strabonun məlumatlarından geniş istifadə etmişdir [7, s.15].

N.N.Şavrovun məlum əsəri XIX əsr tariximizin bir sıra məsələlərini - əsasən çar Rusiyasının müstəmləkəçilik siyasətinin təzahürlərindən olan Azərbaycan ərazilərinin xristian xalqları ilə məskunlaşdırma siyasətini öyrənmək baxımından əhəmiyyətlidir. Müəllif göstərir ki, Muğanda boş sərbəst torpaqların olması rusların burada yerləşdirilməsinə şərait yaratdı. Bu istiqamətdə ilk addım knyaz Dundukov – Korsakovun idarəçiliyi zamanında atıldı. 1868-ci ildə qəza şəhəri olan Cavad, Dundukov – Korsakovun əmri ilə ləğv edilərək, burada daş kilsə və bazar meydanı ucaldıldı. 1887-ci ildə Kiçik Rusiyadan, Vladiqafqazın cənubundan və müxtəlif yerlərdən yığılmış 70 rus ailəsi burada yerləşdirildi. Bu yaşayış məntəqəsi Petropavlovka adlandı. Hər ailəyə 27 desyatin müxtəlif məhsuldarlıqlı torpaq verildi. Onlara ilkin olaraq verilmiş 1960 desyatin torpaq əvəzinə daha 3531 desyatin torpaq da icarəyə verildi [7, s.38]. Sonra Petropavlovkada evlərin sayı 92-yə çatdı. Burada hər iki cinsdən 759 adam yaşayırdı. Petropavlovkalıların məişət və təsərrüfatda qazandığı nailiyyətlər digər rus köçkünlərinin Muğana cəlb edilməsində böyük rol oynadı. Onlar Cənubi Qafqazdakı bütün dövlət idarələrinə orada yerləşmək üçün müraciət etdilər. Bu zaman Cənubi Qafqazın idarəçiliiyinin başına Q.S.Qolitsın qoyulmuşdu. O, rus əhalisinin Cənubi Qafqazda təşkilati cəhətdən düzgün məskunlaşmasının başlanğıcını qoymuşdur [7, s.39].

Təşkil olunmuş köçürmə siyasətinin olmadığını görən Bakı quberniyası Dövlət Əmlak İdarəsinin direktoru Şapoşnikov vəziyyətdən çıxmaq üçün köçürülən ruslara qəsəbələr saldırmağa başladı. Onlara icarə hüququ əsasında torpaq verildi. Belə ilk qəsəbələrdən Novo-Nikolayevka (Kara Nuru), Novo-Aleksandrovka (Bayramqulu) və başqalarını göstərmək olar. İlk köçkünlər bura Yekaterinoslav, Xerson, Bessarabiya və Podolskiy quberniyalarından köçrülmüşdür [7, s.39-40]. Köçürülənləri su ilə təmin etmək üçün 1902-ci ildə Muğanda Araz çayından 5 verst uzunluğunda "Qolitsın" adlandırılan kanal çəkildi. Kanal ətrafında Yeni Araz rayonunda qəsəbələr salındı: Pokrovskiy, Alekseyevskiy, Mixaylovskiy. Bu qəsəbələrdə Yekaterinoslav, Tavruçekiy və Xerson quberniyalarından köçürülənlər məskunlaşdı. 1906-cı ildə Kür çayının sol sahilində Xil-Yeri adlı yerdə İllarionov qəsəbəsi salındı. İndi (XX əsrin əvvəlində) Muğandakı rus qəsəbələrinin sayı 26-ya çatmışdır [7, s.41-42].

Yalançı şahidlərdən istifadə etməklə gəlmə, torpaqsız ermənilər, sonra isə erməni monastırları Şərqi Zaqafqaziyada çox geniş dövlət torpaqlarını ələ keçirdilər. Buradakı dövlət torpaqlarının da taleyi belə kədərli oldu. Yaxın

zamanlarda geniş miqyasda xəzinə torpaqlarının itirilməsi gözlənilirdi. Ona görə ki, xəzinə kəndlilərinin becərdiyi dövlət torpaqlarının xəzinəyə məxsus olduğunu təsdiqləyən sənəd yox idi. Xəzinə kəndlilərinin sübutu üçün şahidləri o idi ki, həmin torpaqlar onların daimi istifadəsində olmuşdur [7, s.65-66].

N.N.Şavrov rus əhalisinin köçürülməsi, yerləşdirilməsi və burada möhkəmləndirilməsi barədə öz təkliflərini irəli sürür. Müəllif Muğanın ruslarla məskunlaşdırılmasının bol xammal, xüsusən pambıq istehsalına imkan yaratdığını, pambıq emaledici sənayesinin təşəkkülünə kömək etdiyini, balıq sənayesinin inkişaf etdiyini göstərir [7, s.60].

Cənubi Qafqazda rus imperiyasının 100 illik ağalığı dövründə dövlət tərəfindən fəth olunmuş boş torpaqlarda 1.200.000 özgə xalqın nümayəndəsi və güc-bəla ilə 240.000 rus yerləşdirildi. Bununla da dövlət torpaq fondunun böyük bir hissəsini itirdi. Bunu da əlavə etmək lazımdır ki, mədən və meşə sərvətləri xaricilərin xüsusi mülkiyyətinə keçdi. Ticarət və ixracat əməliyyatı yəhudilərin, iqtisadi ağalıq ermənilərin əlində toplandı. Onlar indi ölkənin ağası sayılırlar. Nəticədə Zaqafqaziyada bizim köçürmə siyasətimiz ağlamalı oldu [7, s.69-70].

Muğanı vacib məskunlaşma rayonu etmək mümkün olduğu halda burada rusların məskunlaşmasına mane olmaq cəhdlərinin təşkili ilə üzləşdik. Müxtəlif yerli carçılar, sonra isə rus məmurları, turistləri şayiə yayırdılar ki, Muğan istiqızdırma olan yerdir. Bədbəxt rus köçkünləri burada məhv olacaq.

Peterburqdan bir erməni aqronomunu Muğanı tədqiq etmək üçün ezamiyyətə göndərdilər. Oraya müxtəlif ixtisas sahibi olan ermənilər də gəldi. Onlar dövriyyəyə belə bir bəyanat buraxdılar ki, Muğanı şoranlaşma gözləyir. Ora rusları köçürmək ağılsızlıqdır. Onlar elə ucadan və inadkarlıqla qışqırdılar ki, hətta bəzi yerli yüksək rütbəli məmurlar da köçürmənin perspektivindən qorxdular. Dörd il rusların Muğana köçürülməsi dayandırıldı. Torpaqdan nümunə götürüldü, yoxlanıldı. Aydın oldu ki, Muğanın şoranlaşması cəfəngiyyatdır.

Bundan sonra dövriyyəyə başqa bir ideya buraxıldı. Qəbul edilmiş əvvəlki qaydalar dəyişdirilsin. Muğanda torpaq köçkünlərin xüsusi mülkiyyətinə keçməklə, onlara satılsın. Beləliklə, köçkünlər bir anda torpaq sahibinə çevrilərək, bu torpağı kimə istəsə satmaq şansı əldə etdilər. Şübhə yoxdur ki, əgər Muğan rus köçkünlərinə satılsa, bu rəsmi ideyanın müəllifi bir qədər sonra bu torpaqların yad xalqlardan olan ünsürlərlə, xüsusən ermənilərlə məskunlaşdığını görüb heyrətlənəcək. Necə ki, Tiflis quberniyasında almanların məskunlaşması aqibəti də belə oldu. Ona görə də torpaqlar yad xalqlar və yəhudilərin əlinə keçdi [7, s.71].

Fövqəladə dərəcədə digər bir ziyanlı layihə Torpaq Departamentində torpaqların yaxşılaşdırılması şöbəsində hazırlandı. Bu layihədə pambıqçılığın sürətli inkişafına qayğı önə çəkilirdi. Layihədə xüsusi adamlara suvarılan dövlət

torpaqlarını ilkin olaraq 6 illiyə, icarənin davam etdiyi halda 24 illiyə icarənin vaxtını artırmaq, sonra bu torpaqların onların xüsusi mülkiyyətinə vermək nəzərdə tutulurdı. Bu isə torpaqların hüquqi şəxslərin və səhmdar cəmiyyətlərin əlinə keçməsinə səbəb olacaq, Muğanın ruslarla kütləvi məskunlaşmasına mane olacaqdı.

Köçürmə siyasəti barədəki faktlar ermənilərin həyasızlığına, saxtakarlığına tutarlı cavabdır. N.N.Şavrov yazır ki, biz Zaqafqaziyada məskunlaşdırma siyasətinə oraya rusları deyil, özgə xalqları köçürtməklə başladıq. 1819-cu ildə Vürtemberqdən (Almaniya) 500 alman ailəsini Tiflis və Yelizavetpol quberniyasının ən yaxşı dövlət torpaqlarına köçürdük [7, s.63]. 1826-1828-ci illər müharibəsi bitdikdən sonra, 1828-1830-cu illərdə Zaqafqaziyaya 40.000-dən artıq İran və 84.000 Türkiyə ermənisi köçürüldü. Erməni əhalisinin az miqdarda yaşadığı Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında, Tiflis quberniyasının Borçalı, Axalsıx, Axalkalı qəzalarında yerləşdirdik. Onlar üçün 200.000 hektar dövlət torpağı ayrıldı və müsəlman xüsusi torpaq sahiblərindən 2.000.000 rublluq torpaq satın alındı. Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölünün sahilləri ermənilərlə məskunlaşdırıldı. Rəsmi 124.000 erməni, qeyri-rəsmi olaraq daha çox 200.000 erməni yerləşdirildi. Krım müharibəsindən sonra da köçürmə davam etdi. 1864-cü ildə Qara dəniz sahilinə Kiçik Asiyadan ermənilər və yunanlar, sonra estonlar, latışlar, çexlər yerləşdilər [7, s.62-63].

N.N.Şavrov yazır: türklərlə qələbə ilə başa çatmış 1877-1878-ci illər müharibəsi bizə yeni məskənlər bəxş etdi:1877-1879-cu illərdə Qars vilayətinə 50.000 erməni, 40.000 min yunan, erməni mənşəli general Terqukasov tərəfindən Sürməli qəzasına 35.000 Türkiyə ermənisi köçürmüşdü.

Türkiyədə 1893-1894-cü illərdə erməni iğtişaşlarından sonra ermənilər fərdi və ya ailəvi şəkildə Zaqafqaziya diyarına gəldilər. Ermənilərin sayı 10.000 olmadığı halda 1894-cü ildə onların sayı 90.000 oldu. 1897-ci ildə Qafqazın mülki rəisi Q.S.Qolitsının onları Cənubi Qafqazdan çıxarmaq cəhdi baş tutmadı, Türkiyə onları qəbul etmədi. Kiçik Asiyadan erməni köçü davam edirdi və Qars vilayətində 35.000 erməni ailəsi məskunlaşmışdı. Ermənilərdən başqa aysorlar da, hətta Bakı quberniyasına müsəlmanlar da köçürülmüşdü. Ancaq N.N.Şavrov göstərir ki, köçürülüb məskunlaşanların çoxu ermənilərin payına düşürdü [7, s.64].

Generl-adyudant Şeremetyev 1896-cı ildə Əlahəzrətə qeydlərində yazırdı ki, Zaqafqaziyada 900.000 erməni yaşayırdı, 1908-ci ildə isə hər iki cinsdən olan ermənilərin sayı 1.300.000 olmuşdur. Onların sayı göstərilən vaxtda 400.000 artmışdır. Əgər təbii artım istisna olsa, onda 13 ildə biz ermənilərin sayını 300.000 artırmışıq [7, s.64]. Biz N.N.Şavrovun simasında rus imperiyasının alovlu müdafiəçisini, qatı rus millətçisini görürük.

N.N.Şavrov Zaqafqaziyaya özbaşına gələn və köçürülüb məskunlaşdırılan əhali ilə bağlı aşağıdakı cədvəli tərtib etmişdir [7, s.64-65].

| | |
|---|---|
| Ermәni | 1.000.000 |
| Polyaklar | 17.264 |
| Çexlər | 2.041 |
| Latışlar | 4.561 |
| Moldovanlar | 2.724 |
| Yunanlar | 82.043 |
| Yəhudilər | 30.890 |
| Estonlar | 5.241 |
| Aysorlar | 5.028 |
| **Cəmi:** | **1.147.972** |

Bu rəqəmlər 1897-ci ildə ermənilərdən başqa digər gəlmələrin də həddindən artıq çox olduğunu göstərir. İndi ermənilərin sayı daha çoxdur. 1 yanvar 1907-ci ildə Zaqafqaziyanın əhalisi hər iki cinsdən 6.318.000 nəfəri təşkil etmişdir ki, onun da 25 %-ni buraya köçüb məskunlaşan özgə əhali təşkil edir [7, s.65]. 13 il ərzində əhali təbii artım və köçüb gələn yeni insanların hesabına artmışdır.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yaşamış tarixçi, publisist, ictimai xadim V.Veliçkonun "Qafqaz. Rus işi və tayfalararası məsələlər" adlı kitabı bəhs olunan dövrdə Cənubi Qafqazda ictimai-siyasi prosesləri öyrənmək baxımından maraqlıdır. Əsər giriş və bölmələrdən (keçmişin səciyyəsi, gürcü qardaşlar, rus-gürcü münasibətləri, ermənilər, teokratiyaya keçid və monofizitlik, tayfa ayrıseçkiliyi və iqtisadi hökmranlıq, türk qəddarlığı haqqında həqiqət, kilsənin siyasi rolu və erməni proqramı, erməni-qriqoryan kilsəsi əmlakının idarə olunmasının islahatı və erməni azğınlıqları, Azərbaycan tatarları, Dağıstan dağlıları, ruslar Qafqazda, kazaklar, təriqətçilər və rus mühacirləri, rus ziyalıları və s. kimi bölmələr) ibarətdir (9). Müəllifin göstərilən əsəri ermənilərin xarakterinin öyrənilməsi. onların iç üzlərinin açılması sahəsində yazılan ilk sistemli əsərdir. Bu əsər, həmçinin 1905-1906-cı illər qırğınları ərəfəsində Cənubi Qafqazda baş verən ictimai-siyasi prosesləri işıqlandırmağa da kömək edir.

V.Veliçko XIX əsr və XX əsrin əvvəllərindəki erməni sosial mühitini belə xarakterizə edir: ermənilər haqqında qədimdən pis fikir yaranıb və bu, söz yox ki, əsassız deyil ... əvvəla, erməni xalq kütləsini yırtıcı, həris, öz varı-dövləti sayəsində nüfuza və hakimiyyətə sahib olan adamlardan, siyasətbazlıqla məşğul olan avam, cahil ruhanilərdən və pencəktikən saxta dərzi ziyalılardan, daha doğrusu, təkcə özgə xalqdan olan qonşularını yox, həm də öz tayfalarından olan günahsız rəiyyəti incidən hakim erməni ictimai təbəqələrindən ayırmaq

lazımdır. İkincisi, hakim siniflərin arasında da şübhəsiz pis olmayan və günahsız, əsasən öz başçılarının terroruna və qeyri-normal inkişaf etmiş tayfalarının ... milli ideyalarının iradəsinə ürəkdən tabe olmayan xeyli adam var [9, s.46]. İmperatriça II Yekaterinanın çarlığı dövründə ermənilərin arasından bir çox cəhətdən qəribə, azğın və böyük siyasi bacarığa malik olan ... bir adam meydana çıxmışdır. Bu gürcüləşmiş və gürcü çarlarından knyaz rütbəsi almış erməni mənşəli arxiyepiskop İosif idi. O, hərfi tərcüməsi "Enlikürək Arqutov" olan, sonra rusca "Arqutinski-Dolqoruki " kimi işlənən Arqutaşvili Mqrdzeli familiyasını daşıyırdı. Bu familiyanın rus tarixindəki Ryurik Dolqorukilərlə heç bir əlaqəsi yoxdur [9, s.58].

Gürcü çarı II İraklinin dövründə ermənilərdə özünüdərketmə oyatmağa çalışan ... Arqutinskinin sayəsində bəzi Qarabağ məlikləri və onların itaətində olan kəndlilər Gürcüstanda yerləşdirilmiş və Şulaveri kəndini salmışdılar. İki məlik – Məcnun və Abo (Qarabağ məlikləri – N.Ə.) yeni ağalarına xəyanət etmiş və 1795-ci ildə Tiflisi oda qalayan İran (Qacar) şahı Ağa Məhəmməd xanın bələdçi casusları olmuşlar.

XVIII əsrin sonunda arxiyepiskop İosif "rus hökumətinin məqsəd və planları ilə razılaşmayan" istiqamətdə çox çalışırdı. Bu fikrin təsdiqini 1796-cı ilin yayında yepiskop İosifin istila edilmiş Dərbənd xanlığının işlərinə qarışmaq fikrinə düşdüyünü, müsəlmanlara sürtüşmək fürsətini fövdə vermədiyini, onları ermənilərin qabağında alçaltmağa çalışdığını, bir sözlə Dərbənddə olduğu müddətdə bütün əhalini özünə qarşı qaldırdığını deyən akademik N.F.Dubrovində də görmək olar. Qraf Zubov onun fitnə-fəsadının qarşısını almaq üçün tədbirlər görmüşdü. İosif Eçmiədzin pravoslav kilsəsinin başçısı ilə əlaqəyə girərək "Qarabağda və Cənubi Qafqazın başqa yerlərində yaşayan ermənilərə kollektiv müraciətnamə" yazmışdı. Orada deyilirdi ki, rus qoşunları "erməniləri müsəlmanların əsarətindən qurtarmaq və onlara müstəqillik vermək" fikri ilə İrana girmişlər [9, s.59]. Bundan ruhlanan ermənilər "Böyük Ermənistan" çarlığının bərpası xülyasına düşməyə başladılar.

XVIII əsrin sonunda Eçmiədzin katalikosu Eçmiədzin ruhanilərinin seçdiyi Qukas (Luka) təyin olunmuşdur ... onun səyi ilə Ağvan patriarxı əvvəlcə həddindən artıq sıxışdırılmış, sonra isə Qarabağın və Gəncənin Rusiyaya birləşdirilməsi nəticəsində ləğv olunmuşdu [9, s.60].

V.Veliçko rus dövlət məmurlarının erməni din xadimlərinin hiyləgərliyinə aldandıqlarına, onların bəd əməllərini anlamamaqda, tədbir görməməkdə qınayırdı. Rus məmləkətlərində erməni məsələsi bəzən iri sıçrayışla irəli hərəkət edərək, o vaxtdan öz inkişafını durmadan davam etdirirdi. Türkmənçay müqaviləsinə görə Eçmiədzin Rusiyanın tərkibinə daxil olmuş və katalikos bütün ermənilərin ümumdünya patriarxı hüquqlarında qalmışdır ... ermənilər böyük nüfuz qazanan dövlətin içərisində teokratik dövlət yaratdılar [9, s.61].

Paskeviçin dövründə ermәniləri dәvət etmək üçün polkovnik Lazarev İrana göndərilmişdi. Nəticədə 40.000 erməni köçüb Zaqafqaziyaya gəlmişdi. Eçmiədzin patriarxı da bu tədbirdə iştirak etmişdi. Adrionapol (Ədirnə) sülhünə görə biz 100.000-dən artıq Türkiyə ermənisini qəbul etdik. Təkcə Ərzurum arxiyepiskopu Karapet 70.000-ə qədər erməni gətirmişdi. Həmin vaxtdan da müsəlman dövlətlərindən ermənilərin Rusiyaya köşürülməsi fasiləsiz axınla davam edir. İndi Qafqaz inzibatçılarının daha çox erməni dartıb gətirmək cəhdləri aydın olanda belə bir zərb - məsəl yada düşür: "Qarğaya göz verəndə qaş da istədi" [9, s.61]. Yəni V.Veliçko bununla ermənilərin gələcək iddialarına da işarə vurmuşdu. O, göstərir ki, XIX əsrdə Türkiyədə və İranda yaşayan erməni əhalisinin çoxu güman ki, muxtariyyət haqqında fikirləşirdi. Erməni xalqı qüdrətli Rusiyanın sərhədlərini keçəndən sonra ... dincəlir, varlanır, özü üçün iqtisadi zəmin hazırlayırdı [9, s.62].

V.Veliçko Cənubi Qafqazın iqtisadi həyatının ermənilər tərəfindən ələ keçirilməsini təhlükəli sayırdı. O, göstərir ki, bütün Cənubi Qafqazda ticarəti əllərinə alıblar... "harda qazanc var, orda da hökmən erməni var", - yazırdı... [9, s.62].

**Ədəbiyyat**

1. Грибоедов А..С. Горе от ума. Письма и записки. Баку, Маариф 1989. 401 стр.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, ADU nəşriyyatı, 1989, 328 səh.
3. АКАК,т.VII. Шостакович С.Б. Дипломатическая деятельность А.С. Грибоедова. М., 1960.
4. Глинка С.Н. Описанıе. Переселенıя армянъ аддербиджанскихъ въ предѣлы Россıи, съ краткимъ предварительнымъ изложенıемъ историческихъ временъ Арменıи. Москва,1831.
5. Əliyarlı S.S. Azərbaycan tarixi: uzaq keçmişdən 1870-ci ilə qədər. Bakı, 2009. 872 səh.
6. Neuman F. Geshicte der Übersiedluns von vienzigtaus end Armeniern, əelche im jahve aus der perzischen Provinz Adarbaidschannach Russland ənsəənderten. Leipzig, 1834.
7. Шавров Н.Н. Новая угроза Русскому Дѣлу въ Закавказьъ: Предстояшая Распродажа Мугани Инородцамъ. С.Петербургъ. Типографiя Редакцiи перiодическихъ изданiй Министерства Финансовъ.1911. Баку, Элм 1990, 156 стр.
8. Azərbaycan tarixi 7 clilddə, IV cild. Bakı, 2000, 456 səh.
9. Величко В.Л. Полное Собранiе Публицистическихъ Сочиненiй. Томъ первый Съ портретомъ гелиогравюрой автора. Изданıе М.Д.Муретовой. С-Петербургъ; Типографiя Артели Печатного Дѣла,1904. Кавказъ. Русское дѣло и междуплеменные вопросы. 224 стр.

# TƏCAVÜZKAR ERMƏNİSTANA TARIXI DƏRS: AZƏRBAYCAN XALQININ VƏTƏN MÜHARİBƏSİ

***İradə Hüseynova***
*Bakı Dövlət Universiteti*

**Açar sözlər:** *ermənilərin Qafqaza köçürülməsi, erməni terror təşkilatları, Cənubi Qafqaz, Xocalı soyqırımı, Dağlıq Qarabağ, Azərbaycan ordusu*

*Azərbaycanın qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Dağlıq Qarabağ probleminin əsasında XVIII əsrdən başlayaraq buraya köçürülən ermənilərin Azərbaycan torpaqlarına əsassız ərazi iddiaları dayanır. Ermənilərin Qafqaza güclü axınlarının bilavasitə səbəbkarı olan Rus Çarizminin ərazidə yürütdüyü siyasət nəticəsində imzalanan Gülüstan (1813) və Türkmənçay (1828) sülh müqavilələri olmuşdur ki, bununla ermənilər regionumuzda rus siyasətinin ən bariz forpostuna çevrilmişlər. Belə ki, bu siyasətin nəticəsi idi ki, bu məsələ ölkəmizdə süni surətdə sözügedən ən qlobal problemə - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə zəmin yaratmışdı. Bildiyimiz kimi, bu istilanın məntiqi davamı sayılan bu münaqişə artıq 30 ildir ki, Azərbaycan ən ağrılı bəlası idi. Bunun nəticəsində 20% ərazimiz işğal olunmuş və bir milyon soydaşımız ev eşiyindən didərgin düşmüşdü.*

*Lakin bu gün tarixi həqiqət öz yerini tapır. Rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa nəzarətində döyüş meydanında şücaətlə, qəhrəmanlıqla, torpaqlarımızı düşməndən azad edir. Və Azərbaycan əsgəri erməni vandallarının tam əksinə olaraq qadınlara, qocalara, uşaqlara toxunmur, onları ərazimizdən çıxararaq, tarixi torpaqlarımıza qayıdırlar. Bununla da döyüşçülərimiz Şanlı tariximizi qanları və canları bahasına yaddaşımıza həkk edirlər.*

# ИСТОРИЧЕСКИЙ УРОК АГРЕССИВНОЙ АРМЕНИИ: ОТЕЧЕСТВЕННАЯ ВОЙНА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

**Ирада Гусейнова**

**Ключевые слова:** *переселение армян на Кавказ, армянские террористические организации, Южный Кавказ, Ходжалинский геноцид, Нагорный Карабах, Азербайджанская армия*

*Нагорно-Карабахская проблема, являющаяся одним из древних жилых и культурных центров Азербайджана, основана на необоснованных территориальных притязаниях армян на азербайджанские земли, которые были переселены сюда с XVIII века. Гюлюстанский (1813) и Туркменчайский (1828) мирные договоры, подписанные в результате политики, проводимой русским царизмом в регионе, что явилось непосредственной причиной сильного притока армян на Кавказ, сделали армян самым очевидным форпостом российской политики в нашем регионе. Таким образом, в результате этой политики этот вопрос искусственно создал основу для самой глобальной проблемы в нашей стране - армяно-азербайджанского Нагорно-Карабахского конфликта. Как мы знаем, этот конфликт, который считается логическим продолжением этого потепления, вот уже 30 лет является самым болезненным бедствием Азербайджана. В результате было оккупировано 20% нашей территории и около миллиона наших соотечественников стали беженцами.*

*Но сегодня историческая правда находит свое место. Отважная азербайджанская армия под непосредственным руководством верховного главнокомандующего, Президента Азербайджанской Республики Ильхама Алиева освобождает наши земли от врага, мужественно, героически стоя на поле боя и руководствуясь принципами терпимости. А азербайджанский солдат, в отличие от армянских вандалов, не трогает женщин, стариков и детей, выводит их с нашей территории и возвращается на наши исторические земли. Таким образом, наши воины ценой своей крови и жизней запечатлевают в нашей памяти нашу славную историю.*

## HISTORICAL LESSON FOR AGGRESSIVE ARMENIA: PATRIOTIC WAR OF THE PEOPLE OF AZERBAIJAN

**İrada Guseinova**

**Key words:** *resettlement of Armenians to the Caucasus, Armenian terrorist organizations, the South Caucasus, the Khojaly genocide, Nagorno-Karabakh, the Azerbaijani army*

*The Nagorno-Karabakh problem, one of the ancient residential and cultural centers of Azerbaijan, is based on the groundless territorial claims of Armenians to Azerbaijani lands, who have been resettled here since the 18th century. The Gulustan (1813) and Turkmenchay (1828) peace treaties signed as*

*a result of the policy pursued by the Russian Tsarism in the region, which was the direct cause of the strong influx of Armenians to the Caucasus, made the Armenians the most obvious outpost of Russian policy in our region. Thus, as a result of this policy, this issue artificially created the basis for the most global problem in our country - the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. As we know, this conflict, which is considered a logical continuation of this warming, has been the most painful scourge of Azerbaijan for 30 years. As a result, 20% of our territory was occupied and one million of our compatriots were displaced.*

*But today the historical truth finds its place. The brave Azerbaijani Army, under the direct control of the Supreme Commander-in-Chief, President of the Republic of Azerbaijan Ilham Aliyev, liberates our lands from the enemy, standing on the battlefield with courage, heroism and the principles of tolerance. And the Azerbaijani soldier, unlike the Armenian vandals, does not touch women, the elderly and children, removes them from our territory and returns to our historical lands. In this way, our warriors engrave our glorious history in our memory at the cost of their blood and lives.*

***Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən İrandan və Osmanlı imperiyasına daxil olan ərazilərdən erməni əhalisinin köçürülüb yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905-ci və 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, Dağlıq Qarabağa muxtariyyət statusunun təmin edilməsi, 1948-1953-cü illərdə sovet rəhbərliyinin qərarı ilə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından deportasiyası xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir.***

**İlham Əliyev**

Azərbaycan Respublikası geosiyasi və geostrateji əhəmiyyətinə görə dünyanın ən əlverişli bölgələrindən birində yerləşir. Avropa ilə Asiyanın qovuşuğunda, Şərq-Qərb sivilizasiyalarının kəsişməsində, qədim karvan yollarının üzərində qərar tutan Azərbaycan lap qədim dövrlərdən səyyahların, yadellilərin, qonşu dövlətlərin marağını cəlb etmiş, öz azadlığı və müstəqilliyi uğrunda qanlı-qadalı mübarizələr aparmalı olmuşdur. Bu mübarizə bu gün də davam edir: müstəqil Azərbaycan dövləti artıq 30 ildir ki, erməni işğalı altında olan doğma torpaqlarımızın tam azad edilməsi üçün qətiyyətli addımlar atmaqdadır.

***Ümummilli liderimiz Heydər Əliyev 1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında torpaq məsələsinin xalqımızın***

***tarixində əsas amal olduğunu göstərərək deyirdi: "Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirmişdir. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparmışdır, ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qorumuş, onun yolunda canlarını, övladlarını qurban verməkdən çəkinməmişdir" [1, s. 55].***

***30 ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan və bu gün mübariz və qəhrəman Azərbaycan ordusunun əks-hücumları nəticəsində geri çəkilməyə məcbur olan Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən terror, soyqırımı və təcavüz siyasəti yüz illərlə əvvəl başlayan tarixə malikdir. XX əsrin 90-cı illərində yenidən amansızlıqla həyata keçirilən həmin işğalçı-terror siyasətinin prioritet istiqamətlərini "dənizdən-dənizə Böyük Ermənistan" dövlətinin qurulması, bu məqsədlə qonşu dövlətlərə, ilk növbədə isə Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının irəli sürülməsi təşkil edir.***

***Ermənistanın təcavüz hərəkətlərinin kriminal nəticələri təkcə ölkəmizin deyil, bütövlükdə Cənubi Qafqaz regionunun və Avropada inteqrasiya proseslərində maraqlı olan ölkələrin mənafelərinə toxunaraq, digər dövlətlərin də siyasi və iqtisadi təhlükəsizlik maraqlarını pozmuşdur. Lakin fövqəldövlətlər erməni amilindən xalqlararası münasibətləri kəskinləşdirmək aləti kimi istifadə etməkdədirlər.***

Tarixi faktlara və əldə edilmiş tədqiqat materiallarına əsasən qeyd edə bilərik ki, Albaniya dövlətinin varisi bu gün məhz Azərbaycan Respublikasıdır. Bu gün Azərbaycanda yaşayan udinlər, avarlar, xınalıqlar və digər tayfalar albanların nəslindəndir. Hazırkı ermənilər nə vaxtsa Kiçik Asiyada yerləşən Ermənistan coğrafi vilayətində yaşayan xalqın nəslindəndirlər. Ermənilərin etnogenezini tədqiq edən alimlərin fikrincə, onlar kimmerlərin Balkan yarımadasından qovub çıxartdığı və sonradan Kiçik Asiyada Dəclə-Fərat çayları arasında, yunanların Mesopotamiya adlandırdıqları ərazidə sığınacaq tapan muşk və digər kiçik xalqların konqlomeratından ibarətdir. Hay (erməni) xalqının Cənubi Qafqazda indiki yaşayış ərazisində peyda olması dünya dövlətlərinin Yaxın Şərqdə, Kiçik Asiyada və Qafqazda nüfuz sahibi olmaq uğrunda mübarizələrinin səbəb olduğu tarixi hadisələrin nəticəsidir.

Ermənilərin Qafqaz regionuna gəlmə olduqları və son bir neçə əsr ərzində İran və Türkiyədən kütləvi şəkildə tarixi Azərbaycan torpaqlarına miqrasiya etmələri barədə kifayət qədər elmi-tarixi faktlar vardır. Onların Cənubi Qafqazın yerli xalqı olmaması müxtəlif zamanlarda müxtəlif araşdırmaçılar tərəfindən birmənalı olaraq qəbul edilmişdir. Hələ e.ə. V əsrdə "tarixin atası" hesab edilən Herodot bildirirdi ki, ermənilər Kiçik Asiyaya qərbdən gəliblər və frigiyalıların nəslindəndirlər [2]. XIX əsrin fransız mənşəli rus tədqiqatçısı, qafqazşünas alimi İ.Şopen qeyd edirdi ki, "ermənilər mahiyyətcə gəlmədirlər.

Onlar Anadolu dağlarının şimal vadilərinə gələn frigiyalıların və ioniyalıların bir qoludurlar" [3, s. 26]. O, iddia edirdi ki, ermənilər haykanların (hay) və yəhudilərin qarışığından yaranıblar. V.Veliçko da bu məsələdə İ.Şopenlə eyni fikirdədir və qeyd edir ki, Babil əsarəti zamanı və Yerusəlimin dağılmasından sonra yəhudilərin bir hissəsi haylarla qarışmışlar.

Lakin ermənilərin regiona sonradan emiqrasiyası məsələsi təkcə Qərb alimlərinin deyil, habelə ayrı-ayrı erməni tədqiqatçılarının araşdırmalarında da öz əksini tapmışdır. XX əsrin tanınmış ermənişünası Q.A.Kapansyan yazır: "ermənilərin vətəni" - Xayasa-Asiya onların Balkanlardan miqrasiyasından sonra Kiçik Asiyada yerləşir" [4, s. 240,242]. XX əsrin görkəmli rus alimi-şərqşünas İ.M.Dyakonov isə bu fikrə gəlib ki, qədim erməni dili (qrabar) – frigiya dilidir. Ermənilər – frigiyalıların bir hissəsidir [5, s.202-203, 212]. Onun sözlərinə görə, haylar özlərinə heç vaxt "erməni" deməmişlər. Haylar yunan mənşəli frig tayfasından törəmişlər, sonradan bu tayfalar Kiçik Asiyaya və Mesopotamiyaya köçmüşlər. Erməni tarixi ilə bağlı bir sıra kitabların müəllifi olan məşhur erməni yazıçısı N.Adons 1908-ci ildə öz nəşrlərinin birində ermənilərin tarixi haqqında danışarkən bu fikirləri qeyd edib: "VII əsrdə kimmerlərin basqını xalqların yerdəyişməsinə səbəb oldu. Öz hüdudlarından sıxışdırılmış Frigiya tayfaları Kiçik Asiyanın şimal-qərbindən Fərat çayı sahillərinə gəldilər və yerli Aramey əhalisi ilə qarışdılar. Gəlmə frigiyalıların aramey mənşəli aborigenlərlə qarışmasından erməni xalqı formalaşdı" [6].

Erməni ictimai xadimi və publisisti B.İşxanyan yazırdı ki, "Tarixi qədimlik təsəvvürünə görə, ermənilərin Böyük Ermənistan hesab edilən həqiqi vətəni Rusiya hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir. Dağlıq Qarabağda yaşayan ermənilərə gəlincə, onların bir hissəsi aborigen olub, xristian dinini qoruyub saxlayan qədim albanların nəslindəndir. Bir hissəsi təqib və hücumlardan qurtarmaq üçün Azərbaycan torpaqlarında sığınacaq tapan İran və Türkiyə qaçqınlarıdır" [7, s.18]. İşxanyanın obyektiv fikirlərinin, necə deyərlər, əlavə şərhə heç bir ehtiyacı yoxdur.

1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqaviməti ilə rastlaşmışdı. O zaman rus imperatoru "erməni kartını" işə salmış, azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakıda və Dərbənddə ermənilərin məskunlaşdırılması ilə bağlı göstəriş vermişdi. I Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil edirdi. Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman vermişdi. 1802-ci ildə isə çar I Aleksandr Qafqaz canişini A.Sisianova konkret təlimat göndərmişdi: "Ermənilərdən nəyin bahasına olursa-olsun Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır". 1805-ci ilin mayında Qarabağ xanlığı Rusiya imperiyasına qatılır

və 1822-ci ildə isə çar xanlığı ləğv edir. Ərazinin daha yaxşı və ətraflı mənimsənilməsi üçün çar rejimi bir sıra tədbirlərə əl atır ki, onlardan biri də xristianların, xüsusən də ermənilərin İrandan bu imperiya torpağına köçürülməsi idi.

Bu, Azərbaycan torpaqlarının işğalının başlanğıcı olmuşdu. 1813-cü ilin "Gülüstan" və 1828-ci ilin "Türkmənçay" müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsi Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi prosesini sürətləndirmişdi. "Türkmənçay" müqaviləsinin 15-ci maddəsinin müəllifi olan Aleksandr Qriboyedov ermənilərin İrandan Cənubi Qafqaz ərazilərinə köçürülməsinin və burada onlar üçün güzəştli şərtlərin təmin edilməsi siyasətinin fəal iştirakçılarından olmuşdur. "Türkmənçay" müqaviləsindən dərhal sonra – 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" təşkil edilmişdir. Bu bədnam fərmanla tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistanın faktiki təməli qoyulmuşdur. Həmin vaxtın rəsmi statistikasına görə, "Erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7331 azərbaycanlı, 2369 erməni ailəsi yaşayırdı. 1828-ci ildə təkcə üç ay ərzində 40000 nəfərə qədər erməni göstərilən ərazilərdə yerləşdirildi. Türk-rus müharibəsindən sonra isə daha 90 min erməni köçüb gəldi [8, s.235-238]. Bu proses eyni zamanda minlərlə azərbaycanlının doğma torpağından qovulması və qətlə yetirilməsi ilə müşayiət olunmuşdur.

***Qeyd etmək yerinə düşər ki, 1782-ci ildə Qarabağda 34,8 faiz erməni və 64,8 faiz azərbaycanlı olduğu halda, yüz ildən də az bir vaxt ərzində - 1880-ci illərin sonuna doğru Şuşa qəzasında ermənilər artıq 58, azərbaycanlılar isə 42 faiz təşkil edirdi. Birinci dünya müharibəsi illərində isə qaçqınların sayəsində Qarabağda ermənilərin sayı daha da artdı [9, s.189].***

Rus alimi və tədqiqatçısı Nikolay Şavrov yazırdı: "Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənінin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb" [10, s.59-61]. Deməli, XX əsrin əvvəllərində yerli ermənilər cəmi 300 min nəfər təşkil edirdilər.

Qafqaz regionu qədim dövrlərdən bəri digər millət və etnoslara qarşı qonaqpərvər, fərqli konfessiyalara tolerant münasibət bəsləmiş, zülmdən, əsarətdən qaçan insanlar üçün, böyük imperiyaların təqiblərindən xilas olmağa çalışan xalqlar üçün əsl sığınacaq olmuşdur. Buna misal olaraq yəhudiləri göstərmək olar. Artıq min illərdir ki, qədim Azərbaycan ərazisinə pənah gətirən yəhudilər bu torpaqlarda sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Lakin Qafqaza köçürülən ermənilər isə yeni ərazilərdə möhkəmləndikdən sonra yerli xalqların tarix və mədəniyyətini, qədim abidələrini, məbədlərini, habelə toponimlərini mənimsəməyə başladılar. Azərbaycanın tarix elmi Ermənistanın Kiçik Asiyada coğrafi vilayət kimi mövcudluğunu təkzib etmir. Lakin müasir

erməni alimləri isə tarixi Ermənistanı, onun toponimlərini, kilsələrini və s. Kiçik Asiyadan Qafqaza "daşımağa" cəhd edirlər. Təəssüflər olsun ki, hazırda işğal altında qalan və ordumuzun rəşadəti ilə sürətlə azad edilməkdə olan Qarabağ torpaqlarında və indiki Ermənistan ərazilərində çoxsaylı alban məbədləri və digər tarixi-memarlıq abidələri qalmışdır. Alban kilsə, məbəd və monastırları özünün bir çox xüsusiyyətlərinə görə xristianlığın digər müvafiq abidələrindən və ibadət yerlərindən fərqlənir. Terroru və işğalçılığı dövlət siyasəti səviyyəsinə qaldıran, türk, Azərbaycan və alban tarixi və mədəniyyəti ilə bağlı hər bir şeyi görünməmiş şəkildə mənimsəyən ermənilər tərəfindən bu abidələr tamamilə erməniləşdirilmiş və ya məhv edilmişdir. Erməni millətçiləri öz işğal siyasətlərinə haqq qazandıraraq bəyan edirlər ki, bütün qədim alban abidələri "erməni abidələri"dir.

Artıq iki yüz ildir ki, ermənilər tərəfindən davam edən bu proses Azərbaycanın işğal altında qalan ərazilərində daha sürətlə həyata keçirilməkdədir. Sovet dövründə Azərbaycanın xanlıqlarından biri olan İrəvan xanlığında yüzlərlə toponim erməni adları ilə əvəzlənmişdir. "Qeyd edilməlidir ki, yeni erməni toponimləri əvəz etdikləri Azərbaycan toponimlərindən fərqli olaraq ərazinin, landşaftın xüsusiyyətlərinə və tarixi hadisələrə heç cür bağlanmamışdır. Əgər Ermənistan Respublikasının hazırkı xəritəsinə diqqət yetirilərsə, dərhal görmək olar ki, orada Azərbaycan toponimlərinin heç bir izi qalmayıb... Beləliklə, Basarkeçər – Vardenisə, Qaranlıq – Martuniyə, Hamamlı – Spitaka, Cəlaloğlu – Stepanavana, Qarakilsə - Sisiyana, başqa Qarakilsə - Vanadzora, Keşişkənd – Yexeqnadzora, Uluxanlı və ya Zəngibasar – Masisə, İstibulaq və ya Karvansaray – İcevana, Dəvəli – Ararat qəsəbəsinə, Gözlü Kəmərli – Metsamora, Üç-Müədzin – Eçmiadzinə, Alagöz – Araqatsa, Göyçə gölü – Sevana, Arpaçay - Axuryana və s. çevrilmişdir. Lakin bütün əsl toponimlər öz əcdadlarının tarixi yaddaşını yaşatmağa hazır olan yüz minlərlə azərbaycanlının yaddaşında yaşamaqdadır" [11, s. 24-26, s.56-57]. Yeri gəlmişkən onu da vurğulayaq ki, oktyabrın 3-də işğaldan azad edilən Madagizin tarixi adı – Suqovuşan artıq bərpa edilmişdir. Əminik ki, bütün torpaqlarımız azad ediləcək, vətəndaşlarımız öz qədim yurd-yuvalarına qayıdacaq və əvvəlki toponimlər də bərpa olunacaq...

Qeyd etmək lazımdır ki, ermənilərin qədim Azərbaycan torpaqlarına köçürülməsi sadəcə köçürülmə prosesi olmamış, mütəşəkkil qaydada həyata keçirilmişdir. Belə ki, onların İran və Türkiyədən miqrasiyası mütəmadi olaraq həyata keçirilir və sayları get-gedə artır, bunun əvəzinə yerli azərbaycanlılar öz yurd-yuvalarından didərgin salınır, ən yaxşı və münbit torpaqlar ermənilərə verilirdi. Lakin ən təhlükəli vəziyyət isə ondan ibarət idi ki, ermənilər azərbaycanlıları və türkləri fiziki cəhətdən məhv etmək məqsədilə daim silahlanır və terror təşkilatları yaradırdılar. Terrorizmi dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistan "zəngin" terrorçuluq təcrübəsinə malikdir.

Beynəlxalq terrorizmin ayrılmaz hissəsi olan erməni terrorizmi yüz ildən çoxdur ki, mövcuddur. Belə ki, 1885-ci ildə Osmanlı İmperiyasının ərazisində terror və gərginlik strategiyasının köməyi ilə türk dövlətinin süqutuna nail olmaq məqsədi daşıyan "Armenakan" partiyası yaradılmışdı. XIX əsrin 2-ci yarısından ermənilərin azərbaycanlılara qarşı soyqırımı təşkilatlanmış və planlı siyasət kimi aparılmış, Azərbaycan, Türkiyə və Gürcüstan ərazisində "Böyük Ermənistan" dövləti qurmaq xülyasına düşmüş ermənilər "Qnçaq" (1887-ci ildə Cenevrədə qurulub), "Daşnaksütyun" (1890, Tiflis), "Erməni Vətənpərvərləri İttifaqı" (1895, Nyu-York) kimi siyasi-terror təşkilatlarını bu istiqamətdə yönəltmişdilər. Sözügedən təşkilatların fəaliyyət proqramında azərbaycanlılara qarşı ardıcıl terror və qırğın aksiyaları həyata keçirmək məramı əsas yer tuturdu. "Qnçaq" və Daşnaksütyun partiyalarının silahlı dəstələri I Dünya müharibəsindən sonra Azərbaycan və Şərqi Anadolu ərazilərində şəhər və kəndləri yandırmış və qarət etmış, insanları kütləvi şəkildə məhv etmişdilər.

1890-cı ildə yaradılan Daşnaksütyun partiyası terror əsasında fəaliyyət göstərirdi. Partiyanın proqramında 8-ci və 11-ci bəndlərdə deyilirdi: "Hakimiyyət nümayəndələrini terrora məruz qoymaq, hökumət müəssisələrini viran qoymaq və dağıtmaq". Daşnaksütyun insanların girov götürülməsi üsulundan da hakimiyyətə təzyiq vasitəsi kimi istifadə etməyin qızğın tərəfdarı və reallaşdırıcısı idi. Məsələn, ilk dəfə bu üsuldan İstanbulda – Beynəlxalq Osmanlı Bankının tutulması zamanı istifadə edilmişdi. Belə ki, bankın 150 nəfər xidmətçisini girov götürən daşnaklar tələb edirdilər ki, əgər xarici ölkələr onların istəyini yerinə yetirməzsə, bankı insanlarla birgə partladacaqlar.

1975-ci ildə Ermənistanın azadlığı uğrunda "Erməni gizli ordusu" yaradıldı. Terrorçu dəstənin məqsədi türk diplomatlarını qətlə yetirmək olsa da, onların qurbanları arasında Avropa dövlətlərinin vətəndaşları da vardı. ASALA ilk aksiyasını Beyrutda Ümumdünya Kilsələr Şurasının binasını partlatmaqla həyata keçirdi. 1975-1982-ci illərdə təşkilatın silahlıları müxətlif ölkələrdə 136 hücum törədərək 50-dən yuxarı Türkiyə səfiri və konsulunu qətlə yetirmişlər. ASALA Avropada bir sıra Yaxın Şərq terror təşkilatları ilə birgə əməliyyatlar keçirmişdir. Bu fakt da bir daha onu göstərir ki, erməni terroru beynəlxalq terrorizmin ayrılmaz tərkib hissəsidir. ASALA-nın son antitürk aksiyası 1991-ci il dekabrın 19-da Budapeştdə türk diplomatının öldürülməsi olmuşdur [12]. Hələ 1983-cü ildə ABŞ prezidenti Ronald Reyqan ASALA-nı vəhşi, qeyri-insani və sivil cəmiyyətə uyğun gəlməyən cinayətkar təşkilat adlandırmışdı. ABŞ Dövlət katibi C.Şultsun 1985-ci il martın 4-də Nümayəndələr Palatasının spikeri Tomas O`Neylə yazdığı məktubda hazırkı erməni terrorizminin təhlükəli problem olması göstərilir: "Ən böyük erməni terrorçu təşkilatlarından olan ASALA belə bir fəaliyyət göstərir; o, başlıca hədəf obyektini amerikalılar təşkil edən digər terrorçu qruplara da yardım edir. ASALA Livan ərazisində terror

aktlarının əksəriyyətinə görə məsuliyyət daşıyan iranpərəst «İslami cihad» terrorçu təşkilatını dəstəklədiyini bildirmişdir".

Fransa, Almaniya, Roma, Beyrut və s. yerlərdə terror aktları törədən Daşnaksütyun, ASALA, "3 oktyabr" təşkilatı, CSAQ, "Soyqırımı əleyhinə erməni döyüşçüləri dəstəsi" və başqa erməni terror təşkilatları tərəfindən türk diplomatlarına, onların ailələrinə, səfirlik və konsulluqlara hücum edilir, şirkət və idarələr partladılır. Ermənilik xəstəliyinə tutulmuş bu qəddar terrorçular təkcə türklərə və azərbaycanlılara qarşı terror törətmir, həmçinin digər ölkələrin də müxtəlif təyinatlı obyektlərinə hücumlar təşkil edirlər. Məsələn, Parisdə İsveçrənin turizm bürosunun, ABŞ, İtaliya və Fransa avia şirkətlərinin, Beyrutda Fransanın 3 ofisinin, Almaniyada Fransa konsulluğunun binalarında baş verən partlayışlar məhz erməni terror dəstələri tərəfindən törədilmişdir.

Daşnaksütyun Partiyası 1985-ci ildə Afinada özünün XXIII qurultayında başlıca vəzifə olaraq, "vahid və müstəqil Ermənistanın yaradılması" vəzifəsini irəli sürmüşdü. Partiyanın bu qərarı Azərbaycan torpaqları – DQMV, Naxçıvan Muxtar Respublikası və habelə Gürcüstanın Cavaxetiya regionu hesabına gerçəkləşdirilməli idi.

Həqiqətən də erməni terrorizminin episentri – Azərbaycandır və bu dağıdıcı zəlzələnin dalğaları bütün dünyaya yayıldığından, o mahiyyətcə beynəlxalq terrorizmdir: beynəlxalq erməni terrorizmi dünyanın bir çox ölkələrində şəbəkələnmiş, başlıca olaraq, dünyanın türk dövlətlərinə (əsasən, Azərbaycan və Türkiyəyə) qarşı funksiyalaşdırılmış cinayətkar bir qurumun təhlükəli ideologiyasıdır; beynəlxalq erməni terrorizmi sözün əsl mənasında təkcə ayrı-ayrı dövlətləri təhdid edən hadisə deyil, beynəlxalq təhlükəsizliyin özünü sarsıdan, beynəlxalq səviyyədə sabitliyi, dinc-yanaşı yaşamaq prinsiplərini pozan, dövlətlərarası münasibətləri dramatikləşdirən, dünya birliyinə doğru inkişafı ləngidən və xüsusilə milli dövlətlərin suverenliyinə qarşı yönəlmiş fəaliyyətləri təhrik edən antihumanist təmayüldür [13, s.53-60].

Məlum olduğu kimi, Qafqazda ilk erməni dövləti 1918-ci ildə İrəvan xanlığı ərazisində yaradılan Ararat Respublikası olmuşdur. 26 may 1918-ci ildə Zaqafqaziya Seyminin erməni sektoru rəsmi olaraq Azərbaycan nümayəndələrinə İrəvan şəhərinin yeni yaradılan Ermənistana verilməsi xahişi ilə müraciət etmişdi. Belə ki, onların dövlət müstəqilliyi haqqında aktı elan etmək üçün paytaxtları yox idi. Xahiş edənlər tərəfindən erməni silahlı qüvvələrinin və quldur birləşmələrinin silahı yerə qoyacaqları, yerli əhalıiyə qarşı terror hərəkətlərinə son qoyacaqları və iki xalqın yaxınlaşmasına dəstək verəcəkləri barədə şərtləri qəbul etmələrindən sonra rəsmi Azərbaycan müsbət cavab verdi. Bundan 3 gün sonra – Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu gün İrəvan şəhəri Ermənistana verildi [14, s. 441-442]. Beləliklə, erməni tarixçiləri tarixi saxtalaşdırmağa cəhd etsələr də, bu faktdır – indiki Ermənistan dövləti tarixi Azərbaycan torpağında formalaşıb. İrəvan şəhərini Azərbaycan Xalq

Cünhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edib. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır. Ermənilər bu bölgəyə qonaq gəlmişlər [15].

Lakin İrəvan şəhəri göstərdiyimiz şərtlərlə ermənilərə hədiyyə verilsə də, onlar öz faşist xislətlətlərindən əl çəkmədilər. Gənc Azərbaycan dövlətinin ayrı-ayrı şəhər və kəndlərində erməni daşnakları tərəfindən 1918-1920-ci illərdə qırğınlar törədildi, dinc əhali məhv edildi. Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 martın Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması da dövlətimizin ədalətli, tarixi həqiqətlərə əsaslanan mövqeyinin göstəricisidir. Bu sənədin imzalanması ilə bir daha tariximizin faciəli səhifələrinə işıq salındı, əsil həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırıldı. Həmin ildən 31 martın istər ölkə daxilində, istərsə də ölkə hüdudlarından kənarda Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması, erməni vəhşiliklərinin faktların dili ilə dünyaya bəyan edilməsi bu günümüzün yeganə problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yol açır.

Tarixi faktlar da təsdiqləyir ki, azərbaycanlıların kütləvi şəkildə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından qovulması və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. “Böyük Ermənistan” yaratmaq arzusundan ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə mane olaraq azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin qəsbkar torpaq iddialarını pərdələmişlər. Azərbaycanlılar dünya ictimaiyyətinə “zalım xalq” kimi təqdim olunmuşdur. 1918-ci ilin mart ayından etibarən ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilib, ermənilər evlərə od vurub, insanları diri-diri yandırıblar. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və digər bölgələrdə xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli-tarixi əhəmiyyət kəsb edən mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

İkinci dünya müharibəsi illərində də ermənilər “Böyük Ermənistan” xülyasını reallaşdırmaq istiqamətində məkrli siyasətlərini davam etdirmişlər. Belə ki, onlar həm Türkiyənin Qars və Ərdəhan vilayətlərinə iddialar irəli sürür, həm də dünyaya səpələnmiş ermənilərin bu torpaqlarda məskunlaşdırılmasına təkid edirdilər. 1944-cü ildə Ermənisan SSR KP MK-nın birinci katibi Q.Arutyunov Moskvada İ.Stalinlə görüşmüş, xaricdə yaşayan ermənilərin

Ermənistan SSR-ə köçürülməsi məsələsi müzakirə edilmişdi. Potsdam konfransında SSRİ Türkiyədən ərazi əldə edə bilmədiyindən, erməni lobbisi yenidən Azərbaycan torpaqlarını ələ keçirmək fikrinə düşmüşdü. 1945-ci ildə Stalinlə yenidən görüşərkən Q.Arutyunov 300 mindən çox erməninin Ermənistana miqrasiya etmək istədiyini bildirir və bu məqsədlə həm Dağlıq Qarabağın, həm də Naxçıvanın Ermənistana verilməsini xahiş edir. Lakin ermənilər buna nail olmasalar da, xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsinə nail oldular. 1945-ci il noyabrın 21-də SSRİ Xalq Komissarları Soveti "Xaricdə yaşayan ermənilərin sovet Ermənistanına köçürülməsinin praktik tədbirləri haqqında" qərar qəbul edir. 1946-cı ildə Suriya, Yunanıstan, Livan, Bolqarıstan və Rumıniyadan 50.900 erməni immiqrasiya edir [16, s.161]. 1947-ci ildə 63 min ermənının Ermənistan SSR-ə köçürülməsi nəzərdə tutulmuşdu, lakin cəmi 35,4 min erməni "doğma" vətənə qayıtmışdı. 1948-ci ildə isə xaricdən 86.346 erməni immiqrasiya etmişdi.

Ermənilər xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsi ilə yanaşı, eyni zamanda azərbaycanlıların Ermənistan SSR ərazisindən çıxarılmasına da nail oldular. Belə ki, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar qəbul etdi. Bu qərara əsasən, 1948-1950-ci illərdə 100 min azərbaycanlı "könüllülük prinsipi"əsasında Azərbaycan SSR-ə köçürülməli idi. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər. Qeyd edək ki, insan hüquqlarının ciddi pozuntusu ilə həyata keçirilən bu qərarlar Ermənistanı monoetnik respublikaya çevirmək məqsədi daşıyırdı. Sosial-iqtisadi şəraitin dözülməzliyi və iqlim şəraitinin uyğunsuzluğu nəticəsində köçürülənlərin bir hissəsi 1948-1951-ci illərdə yenidən doğma torpaqlarına qayıtdı. Bütövlükdə, 1948-1951-ci illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-ə 37.387 nəfər azərbaycanlı deportasiya edildi. Bu proses sonrakı dövrdə də aparıldı; 1956-cı ildə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına və digər rayonlarına köçürülənləin sayı 58.421 nəfərə çatmışdı [17].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzalamışdır. Fərmanda göstərilirdi ki, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan

SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur: "Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir".

Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşayan 250 min nəfər azərbaycanlı öz doğma yurdlarından qovulmuş və Azərbaycana gəlmişdir. 1988-ci ildən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsindən də soydaşlarımızın çıxarılması baş verdi. Erməni silahlı qüvvələrinin 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunun ətrafındakı 7 rayonun 600 mindən çox sakini də öz yaşayış yerlərindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox məskunlaşma obyektində məcburi köçkün həyatı yaşamağa başladı. XX əsrin sonlarında Ermənistanın Azərbaycana növbəti təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizdən çox hissəsi, başqa sözlə 17 min kv.km-dən yuxarı ərazi işğal olunmuşdur. Azərbaycanın təxminən 900 yaşayış məntəqəsi qarət olunmuş və məhv edilmişdir. 20 mindən yuxarı azərbaycanlı həlak olmuş, 50 mindən çox soydaşımız isə yaralanmış və ya xəsarət almışdır ki, nəticədə, onlar əlil və şikəst olmuşlar. Bir neçə min nəfər itkin düşmüşdür. İşğal olunmuş ərazilərdə azərbaycanlıların məhkəməsiz və istintaqsız kütləvi qətli, əsirlərin və mülki əhalinin döyülməsi, işgəncələr və onlarla qəddar, qeyri-insani rəftar, azərbaycanlı əhalidən Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində ən ağır işlərdə məcburi istifadə adi hala çevrilmişdir. Bütün bu faciələr məhz ümummilli lider Heydər Əliyevin ermənipərəst M.Qorbaçov tərəfindən sovet dövlətinin rəhbərliyindən istefaya göndərilməsindən dərhal sonra baş vermişdir. Akademik Ziya Bünyadov bununla bağlı yazırdı: "Heydər Əliyev hələ Sovet İttifaqının rəhbərlərindən biri olarkən, bizə o qədər də xeyirxahlıq göstərməyən bəzi müsəlman ölkələrində belə, onu yüksək nüfuza malik böyük siyasi xadim kimi tanıyırdılar. Deyirdilər ki, müsəlmanın Kremldə yüksək vəzifə tutması fövqəladə hadisədir… Heydər Əliyev Kremldə işlədiyi illərdə ermənilər özlərinin millətçi separatçılıq siyasətini, o cümlədən də Azərbaycanda həyata keçirə bilmirdilər" [18, s. 36-37].

Dövlətçiliyimizə və ərazi bütövlyümüzə qarşı törədilən silahlı təcavüzlə transmilli mübarizə hələ xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmışdır. Bu gərgin, hərtərəfli iş, Ermənistanın bu cinayətə görə beynəlxalq hüquqi məsuliyyətinin reallaşdırılması ilə bağlı strategiya bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü siyasi iradə və böyük əzmkarlıqla davam etdirilir. Ümummilli lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərmanı ilə həmvətənlərimizin Qərbi Azərbaycandakı ata-baba yurdlarından zorla köçürülməsinin, Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdır [19].

Bundan bir müddət sonra – 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı haqqında” fərman imzalayan ulu öndər Heydər Əliyev gənclərin tarixi həqiqətlərlə tanışlığına daha geniş meydan açmış, onları mübarizə ruhunda kökləmişdir. 1918-ci ilin məlum mart hadisələrinin 80-ci ildönümündə imzalanmış fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymətdir. Bu fərman gənc nəsildə milli yaddaşın qorunması baxımından bir növ proqram sənədidir. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən tarixi sənəd əsasında martın 31-i hər il Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur. Fərmanda göstərilirdi ki, “Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir” [20].

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra ölkə rəhbərliyi 1918-ci ilin mart hadisələrinə xüsusı diqqət yetirmiş, Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmış, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xaricı İşlər Nazirliyi nəzdində xüsusı qurum yaradılmışdı. 1919 və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyətı tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyası qiymət vermək cəhdi olmuşdur. Lakin 1920-ci ilin aprelində bolşeviklərin hakimiyyəti qəsb etməsi

nəticəsində Xalq Cümhuriyyətinin süqutu bu işləri yarımçıq qoymuş və nəticədə, Azərbaycan erməni-rus qüvvələrinin dəhşətli soyqırımının miqyasını dünyaya, beynəlxalq aləmə çatdıra bilməmişdir. Əvəzində isə ermənilər istər dünyaya səpələnmiş böyük diasporları vasitəsilə, istərsə də Ermənistanda daşnak hakimiyyətini əvəz etmiş sovet hakimiyyətinin təbliğat maşınının köməyi ilə qondarma "soyqırımı" kampaniyasına geniş vüsət vermişlər.

1988-ci ildən başlayan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırımı oldu. 6 min nəfər azərbaycanlının yaşadığı bu şəhər bir gecə ərzində məhv edildi. Xocalının yer üzündən tamamilə silinməsində erməni silahlı qüvvələrinə sovet ordusunun 366-cı alayı da yardım etdi. Nəticədə, 613 nəfər qətlə yetirildi, 150 nəfər itkin düşdü. Qanlı faciədə yüzlərlə dinc sakin şikəst oldu. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı faciəsi tarixdə bizə məlum olan Babiyar, Xatın, Liditse, Sonqmi faciələri ilə eyni səviyyədə durur.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonrakı dövrdə fəaliyyətinin əsas istiqamətlərindən biri məhz Azərbaycan ətrafında yaradılan informasiya blokadasının aradan götürülməsi idi. Dahi şəxsiyyətin xarici ölkələrə hər bir səfəri ən mühüm problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin açıqlanmasında, dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynayırdı. Tarixi faktlar əsasında bəyan edildi ki, ermənilərin özlərinə saxta tarix yazıb, apardıqları yalan təbliğatın əksinə olaraq, soyqırımına məruz qalan onlar yox, məhz azərbaycanlılardır. Ulu öndər Heydər Əliyev ermənilərin tarixin müxtəlif dövrlərində azərbaycanlılara qarşı törətdikləri soyqırımından geniş bəhs etməklə, belə bir reallığı ortaya qoydu ki, yalan üzərində qurulan təbliğat heç zaman inandırıcı və uzunömürlü ola bilməz. Baxmayaraq ki, Ermənistanda "erməni soyqırımı" abidəsi ucaldılaraq, bundan siyasi məqsədlər üçün istifadə etməyə çalışırlar. Bu ölkəyə səfər edən hansısa dövlət rəsmisinin abidəni ziyarət etməsi "erməni soyqırımı"nın tanıdılması kimi təqdim edilir. Təbii ki, bu məsələdə də dünyanın ikili siyasəti öz problemlərini yaratmaqdadır. Dünyanın iri güc mərkəzlərindən olan Fransa dövlətinin heç bir araşdırma aparmadan "erməni soyqırımı"nı tanıması, hətta digər ölkələri də bu addımı atmağa sövq etməsi ikili yanaşma deyilmi? Rəsmi Bakı daim dünyanın ikili siyasətinin yaratdığı problemləri diqqətə çatdırır və bəyan edilir ki, nə qədər ki, bu yanaşma mövcud olacaq, hansısa məsələnin ədalətli həllindən danışmaq mümkünsüzdür. Lakin bu fikir də bəyan edilir ki, dünyanın bu yanaşması bizi ruhdan salmamalı, daim mövqeyimizin müdafiəsi istiqamətindən səylərimizi artırmalıyıq [21].

Fəxr edirik ki, ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin misilsiz, alternativi olmayan siyasətini və

ideyalarını möhtərəm cənab Prezident İlham Əliyev hazırda uğurla davam etdirir. Bu uğurları davamlı olaraq biz həyatımızın bütün sahələrində görürük və hərbi sahə də istisna deyil. Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən “Biz müdafiədə deyil, hücumda olmalıyıq” - deyərək erməni işğalçılarına qarşı effektiv əks-hücumun təşkilini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin aprelində cəbhə xəttində rəşadətli Azərbaycan ordusunun əks-hücumu və düşmənə vurduğu ağır zərbələr nəticəsində erməni silahlı birləşmələri ciddi itki – həm canlı qüvvə və həm də texnika sarıdan – verərək geri çəkilmişdilər. İgid əsgərlərimiz bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini ələ keçirmiş və üçrəngli bayrağımızı düşməndən azad edilmiş həmin ərazilərimizdə dalğalandırmışdılar. Artıq işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində insanlar məskunlaşmışlar. Dövlətimizin hərtərəfli qayğısı və dəstəyi sayəsində burada soydaşlarımız üçün hər cür şəraiti olan evlər tikilmiş, insanlarımız bütün zəruri vasitələrlə təmin edilmişlər.

Bütün bunlar digər sahələrdə olduğu kimi, hərbi sahədə də ölkə rəhbərliyi tərəfindən uğurlu siyasət aparıldığını sübut edir. Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı və formalaşdırdığı Azərbaycan Milli Ordusu hazırda dünyanın güclü ordularından biri hesab edilir. Bu ordu işğal altında olan torpaqlarımızın tamamilə azad edilməsi üçün bütün zəruri vasitələrlə təmin edilmişdir, Vətənin ərazi bütövlüyünün bərpa edilməsi naminə döyüşə atılmaq üçün böyük ruh yüksəkliyinə malikdir və bunu 2016-cı ilin aprel döyüşləri də, 2020-ci il sentyabrın 27-dən davam edən uğurlu döyüş əməliyyatları da sübut etdi. Möhtərəm Prezidentimiz İlham Əliyev ulu öndərin siyasətinə sadiq qalaraq, torpaqlarımızın bir qarışının da düşmənə verilməyəcəyini, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına xalqımızın heç vaxt yol verməyəcəyini qətiyyətlə bəyan etmişdir.

Lakin azğın düşmən atəşkəs dövründə daim təxribatlar törətməkdə, dinc sakinləri güllələbaran etməkdə davam etmişdir. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərib. İyulun 13-14-də Tovuz rayonu istiqamətində şiddətli döyüşlər zamanı düşmənə sarsıdıcı atəş zərbələri endirilib. Düşmənin 100-ə qədər canlı qüvvəsi, çoxlu sayda döyüş və nəqliyyat texnikası, mühüm obyektləri məhv edilib. Ali Baş komandan İlham Əliyev oktyabrın 4-də “Əl-Ərəbiyə” telekanalına müsahibə verərkən demişdir: “Ermənistan təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə etməklə atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozur. Biz ərazilərimizin azad olunmasını istəyirik, biz iki ölkə

arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdik. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə Ermənistan iyul ayında bizə qarşı hərbi hücuma keçdi və biz onlara adekvat cavab verdik".

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azəbaycana diversiya qrupu göndərildi. Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərdi. Cəbhənin bu istiqamətdə yerləşən Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edildi. Döyüş zamanı erməni diversiya qrupunun komandiri, baş leytenant Qurgin Alberyan əsir götürüldü. Diversiya qrupu başçısının ifadələrinə əsasən, bu qrup Azərbaycana terror aktları törətmək üçün göndərilmişdi.

2020-ci il Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başladılar. 30 il ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, danışıqlar masası arxasında, beynəlxalq hüquq əsasında ədalətlə həll olunması üçün səylə çalışan Azərbaycan Respublikası məhz sentyabrın 27-nə qədər bu istiqamətdə fəaliyyət göstərdi. Lakin düşmənin bütün cəbhə boyu genişmiqyaslı hücuma keçməsi, baş nazir N.Paşinyanın son vaxtlar verdiyi sərsəm bəyanatlar və Ermənistanın hərbi-siyasi rəhbərliyinin qeyri-konstruktiv mövqeyi münaqişənin hərbi yolla həllindən başqa heç bir yol qalmadığını sübuta yetirdi. Düşmən hücumunun ilk günü, sentyabrın 27-də ordumuzun uğurlu əks-hücum əməliyyatları nəticəsində bir sıra yaşayış yerləri ermənilərdən təmizləndi. Oktyabrın 3-də Madagiz də mənfur düşmən tapdağından qurtuldu və onun əvvəlki adı – Suqovuşan bərpa edildi. Torpaqlarımızı işğaldan qurtarmaq naminə canını və qanını belə, əsirgəməyə hazır olan igid Azərbaycan əsgərinin şücaəti sayəsində oktyabrın 4-də Cəbrayıl şəhəri və rayonun 9 kəndi 27 ildən sonra düşməndən azad edildi. Ali Baş Komandan cənab İlham Əliyev bu münasibətlə xalqa müraciətində demişdir: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar... Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq" [22].

Müzəffər Azərbaycan Ordusu 2020-ci il noyabrın 8-də Azərbaycanın döyünən ürəyi, bütün Cənubi Qafqazın incisi Şuşa şəhərini mənfur düşmənlərdən azad etdi.

Azərbaycan Ordusu tərəfindən az müddət ərzində ermənilərin 400-ə yaxın tank və zirehli texnikası, çoxlu sayda artilleriya qurğuları, nəqliyyat vasitələri, S-300 zenit-raket qurğuları, “Uraqan” yaylım atəşli reaktiv sistemləri, “OSA” zenit-raket kompleksləri və BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemləri məhv edilib; bu rəqəmlər günbəgün dəyişərək artır. Qəhrəman əsgər və zabitlərimiz Cəbrayıl şəhərini, bir neçə yaşayış məskənini, onlarca kəndi, strateji yüksəklikləri, idarəetmə məntəqələrini və Murovdağ yüksəkliyini ələ keçirib. İşğalçı erməni ordusu, öz torpağında döyüşməyən erməni əsgər və zabitləri silah-sursatı, nəqliyyat vasitələrini, döyüş bayrağını, rəsmi sənədləri ataraq qaçırlar.

Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun düşmən üzərində möhtəşəm qələbələri nəticəsində artıq Suqovuşanda, Cəbrayıl şəhərində Azərbaycanımızın üçrəngli bayrağı dalğalanır. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta da həmçinin Azərbaycan Bayrağı sancılmışdır. Sentyabrın 27-də cəsur hərbçilərimizin əks-hücumları başlayandan sonra demək olar ki, hər gün yeni yaşayış məskənlərimizin azad edilməsi və strateji yüksəkliklərin ələ keçirilməsi barədə məlumat alırıq. Bu, bütün xalqımızda və döyüşçülərimizdə böyük ruh yüksəkliyi oyadır, Azərbaycan əsgəri qısa vaxt ərzində bütün işğal olunmuş ərazilərimizi mənfur düşməndən təmizləmək əzmindədir və bunu edəcək.

Lakin ermənilər öz ənənəvi xislətlərinə sadiqdirlər: onlar cəbhə xəttindən xeyli kənarda yerləşən şəhər və kəndlərimizi atəşə tutur, dinc sakinləri qətlə yetirirlər. 4 oktyabr, 11 oktyabr, 17 oktyabr 2020-ci il tarixlərində başlayaraq döyüş bölgəsindən xeyli uzaqda – 60 km məsafədə yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, o cümlədən strateji sənaye əhəmiyyəti daşıyan Mingəçevir şəhərlərinin yaşayış məntəqələri raket və mərmilərlə atəşə tutulmuşdur, nəticədə dinc sakinlərdən ölən və yaralananlar olmuşdur. Bu yırtıcı hücumlar nəticəsində indiyə qədər 100-ə yaxın həlak olan və 400-dən artıq xəsarət alan var. Erməni həyasızlığı heç bir sərhəd tanımır; düşmən Gəncənin raket zərbələri ilə dağıdılmış görüntülərini yayaraq, bunu azərbaycanlıların dağıtdığı erməni şəhəri kimi qələmə verir! Erməni qəsbkarları Tərtər, Beyləqan və digər şəhərlərimizi atəşə tutmaqdadır. Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən baş vermiş hadisələrlə bağlı toplanmış materiallar əsasında Füzuli, Tərtər, Qarabağ və Gəncə Hərbi prokurorluqlarında Cinayət Məcəlləsinin 100.1-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama və ya başlama), 116.0.7-ci (müdafiə olunmayan

ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə), 116.0.8-ci (hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən dini, təhsil, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə) maddələri ilə cinayət işləri başlanıb, istintaq qrupları yaradılmaqla operativ istintaq hərəkətləri icra olunur. Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini dəqiqləşdirmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Ermənistanın baş naziri dinc yaşayış məntəqələrinə raket zərbəsi vurmaq əmri verməklə öz terorçu mahiyyətini göstərsə də Azərbaycan prezidenti İlham Əliyev ən mürəkkəb anlarda belə soyuqqanlığını, beynəlxalq hüquqa, konvensiyalara sadiqliyini saxlayaraq "*Biz* onların cavabını *döyüş meydanında* veririk, günahsız insanların qisasını *döyüş meydanında* alırıq və alacağıq ..." bəyanatını verərək dövlət başçısı kimi xalq ilə bir olduğunu, Azərbaycan dövlətçiliyinin, ölkəmizin ərazi bütövlüyünün keşiyində möhkəm durduğunu bir daha sübuta yetirdi.

Azərbaycan Ordusunun hərbi qulluqçuları döyüş əməliyyatları aparılan ərazilərdə "Beynəlxalq silahlı münaqişə tərəflərinin hörmət etməli olduqları beynəlxalq humanitar hüquq normalarına dair Memorandum"un tələblərinə uyğun fəaliyyət göstərir. Ermənilərin Gəncə şəhərini atəşə tutması nəticəsində erməni əsilli şəhər sakini – yaşlı qadın yaralanmış və o, xəstəxanaya yerləşdirilmişdir.

Xalqımız tam əmindir ki, iqtisadi və diplomatik sahədə davamlı uğurların fonunda yeganə problemimiz olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə, lap bu günlərdə həll ediləcək – torpaqlarımız düşmən tapdağından azad olacaq, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaq, dünya birliyində yeri və rolunu günbəgün artıran Azərbaycan daha da qüdrətlənəcək, inkişaf edəcəkdir. Bütün bu uğurların təməlində düzgün müəyyənləşdirilən siyasət dayanır. Gündən-günə qüdrətlənən, zənginləşən, müasirləşən Azərbaycan harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur mənbəyidir.

Fikrlərimi xalqımızın sevimlisi, milli ordumuzun tarix yazan görkəmli sərkərdəsi, Ali Baş Komandan, ölkəmizin rəhbəri möhtərəm cənab İlham Əliyevin elə öz sözləri ilə başa çatdırmaq istəyirəm: "... Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini

doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

**Onu da qeyd etməyi lazım bilirəm ki, Azərbaycanın bir nömrəli milli qəhrəmanı, tariximizin şanlı səhifəsini yazan əzəli tarixi torpaqlarımızı böyük iradə ilə, qüdrətlə, rəşadətlə işğaldan azad edən, dövlətçiliyimizin möhkəm keşiyində duran Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin *Ali Baş Komandanı* xalqımızın böyük və sevimli oğlu cənab İlham Əliyevdir!**

## ƏDƏBİYYAT

1. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil -2004, 472 s.
2. Геродот. История в девяти книгах. I:180, 194; III:93; V:49,52; VII:73
3. Шопен И. Новые заметки на древнюю историю Кавказа и его обитателей. С.-Петербург, 1896, с. 26
4. Капанцян Г.А. Хаяса-колыбель армян. Этногенез армян и их начальная история. Ереван, 1947, 242 с.
5. Дьяконов И.М. Предыстория армянского народа. Ереван, 1968, 266 с.
6. Адонц Н. Армения в эпоху Юстиниана. СПб., 1908, с. IX
7. İşxanyan B. Qafqaz xalqları. Petroqrad, 1916, s.18
8. Агаян Ц.П. Роль России в исторических судьбах армянского народа. М: Наука, 1978, 311 с.
9. "Azərbaycan" jurnalı.1988, №2
10. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа Мугани инородцам. Санкт-Петербург: Рус. собрание, 1911, 78 с.
11. Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва:Аквариус, 2014, 280 с.
12. Армянские террористические организации / www.mns.gov.az/armenian terjrgs_ru.html
13. Səmədov V., Vəlizadə R. "Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) Bakı-2014, II cild, 376 s.
14. Гурбанов А. Сказки армянских мудрецов. Bakı: Elm və təhsil, 2005, 468 s.
15. Hüseynova İ. İki sahil, № 228, 8 dekabr 2010-cu il
16. Mustafa N., Qurbanov A., Əlili E. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, 2018, 270 s.
17. AR PİI SSA, F.1 Siy.33.Sax.v. 230. V.11
18. Bünyadov Z. Müdrik fikirlər çələngi // "Dirçəliş - XXI əsr", 2003, № 63
19. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan

Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı / Azərbaycan, 19 dekabr 1997-ci il
20. Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikası Prezidentinin fərmanı. Xalq qəzeti, 1998, 27 mart, №80
21. Hüseynova İ. Tarixi təsdiqləyən Azərbaycan həqiqətləri. "İki sahil" qəzeti, mart 28, 2014
22. https://ordu.az/az/news/173302

# AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI MİLLİ VƏ ÜMUMBƏŞƏRİ İDEOLOGİYA KİMİ

***Səba Ramiz qızı Hüseynova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
sabahuseyn@gmail.com

**Açar sözlər:** *Milli ideologiya, azərbaycançılıq, vətəndaşlıq, milli müstəqillik, vicdan azadlığı, əqidə azadlığı, qloballaşma, milli dəyərlər*

*Məqalədə ideya və ideologiyanın xalqların və cəmiyyətlərin həyatının ən mühüm idarəedici vasitəsi olması əsas planı təşkil edir. Müstəqillik ideyasının əsas dayağı olan milli dəyərlərə sadiqlik hazırda Azərbaycan cəmiyyətində aparıcı təbliğat vasitəsidir. Milli ideologiyamızın əsası olan azərbaycançılıq ideologiyasını həm ölkə vətəndaşları, həm də ölkədən kənarda yaşayan azərbaycanlılar arasında davakar millətçilik və şovinizmdən fərqli olaraq, həm dövlətimizin müstəqilliyini, həm də xalqımıza məxsus dəyərləri dünyaya çatdırmaq hər bir vətəndaşın müqəddəs vəzifəsi olmalıdır. Hazırada azərbaycançılıq ideyası qloballaşma şəraitində universal dəyərlərin qorunmasını önəmli hesab edir və ölkəmizin milli modernləşmə yolunu bu dəyərlərin bərqərar olduğu Avropa məkanına inteqrasiyada görür.*

*Ölkəmizdə azərbaycançılıq ideologiyası nəinki müasir dövrdə, tarixin müxtəlif mərhələlərində ən vacib mənəvi dəyər olmuşdur. Lakin XX əsrdən etibarən bu prinsip daha  da inkişaf edərək, bu günə gəlib çatmışdır. Tarixin müxtəlif mərhələlərində ortaya atılan azərbaycançılıq ideyası məsələsini çox uğurla həyata keçirən, onu daha da zənginləşdirən ümummilli lider Heydər Əliyev olmuşdur.*

*Müasir, qloballaşan dünyada dövlətimiz milli idologiyanın təbliği baxımından dünyanın aparıcı dövlətləri sırasındadır.*

# АЗЕРБАЙДЖАНСКАЯ ИДЕОЛОГИЯ КАК НАЦИОНАЛЬНАЯ И УНИВЕРСАЛЬНАЯ ИДЕОЛОГИЯ

***Саба Гусейнова***

**Ключевые слова:** *национальная идеология, азербайджанство, гражданство, национальная независимость, свобода совести, свобода религии, глобализация, национальные ценности*

*Главный план статьи состоит в том, что идеи и идеология являются наиболее важным инструментом управления в жизни людей и обществ. Приверженность национальным ценностям, лежащим в основе идеи независимости, в настоящее время является ведущим инструментом пропаганды в азербайджанском обществе. Священный долг каждого гражданина - донести до мира независимость нашего государства и ценности нашего народа, в отличие от воинствующего национализма и шовинизма идеологии азербайджанства, являющейся основой нашей национальной идеологии, как среди граждан страны, так и среди азербайджанцев, проживающих за рубежом. В настоящее время идея азербайджанства считает важной защиту общечеловеческих ценностей в условиях глобализации, и видит путь национальной модернизации нашей страны в интеграции в европейское пространство, где эти ценности утверждаются.*

*Идеология азербайджанства в нашей стране стала важнейшей духовной ценностью не только в наше время, но и на разных этапах истории. Однако с двадцатого века этот принцип развился и дошел до наших дней. Именно общенациональный лидер Гейдар Алиев успешно воплотил в жизнь вопрос идеи азербайджанства, поднимавшейся на разных этапах истории, и еще больше обогатил ее.*

*В современном глобализированном мире наше государство входит в число ведущих стран мира по продвижению национальной идеологии.*

## AZERBAIJANI IDEOLOGY AS A NATIONAL AND UNIVERSAL IDEOLOGY

***Saba Huseynova***

**Keywords:** *National ideology, Azerbaijanism, Citizenship, National independence, Freedom of conscience, Freedom of religion, Globalization, National values*

*The main plan of the article is that ideas and ideology are the most important governing tool in the lives of peoples and societies. Commitment to national values, which are the mainstay of the idea of independence, is currently the leading means of propaganda in Azerbaijani society. Unlike the aggressive nationalism and chauvinism between the citizens of the country and Azerbaijanis living abroad, which is the ideology of Azerbaijanism, which is the basis of our national ideology, it should be the sacred duty of every citizen to convey the independence of our state and the values of our people to the world.*

*At present, the idea of Azerbaijanism considers it important to protect universal values in the context of globalization, and sees the path of national modernization of our country in the integration into the European space where values are stable.*

*The ideology of Azerbaijanism in our country has become an important spiritual value not only in modern times, but also at various stages of history. However, since the twentieth century, this principle has further developed and survived to this day. It was the national leader HeydarAliyev who successfully implemented the issue of the idea of Azerbaijanism, which was raised at different stages of history, and enriched it even more. In the modern, globalized world, our state is among the leading countries in the world in terms of propaganda of national ideology.*

İdeya və ideologiya xalqların və cəmiyyətlərin həyatında öz spesifik xüsusiyyətləri və mahiyyətləri etibarilə bir-birindən fərqlənir. Bu fərqlər milli xüsusiyyərtlərə əsaslanır. Bizim ideologiyanın əsasını milli müstəqillik təşkil edir. O demokratik ideallara, ümumbəşəri dəyərlərə, dövlətin konstitusiyasına, milli mədəniyyət və adətlərə, vicdan azadlığına, humanizmə müvafiq yaradılır.

Milli müstəqillik ideyası prinsiplərindən biri milli və ümumbəşəri dəyərlər arasından harmoniya yaradılmasıdır. Bu prinsip böyük gələcəyin qurulmasında insanların inamının möhkəmlənməsinə, vətəndaşların siyasi mədəniyyətinin artmasına, tərəqqinin düzgün dərk edilməsinə qulluq edir [1, s.3].

Milli dəyərlərə sadiqlik müstəqillik ideyasının dayağıdır. Azərbaycanda yaşayan bütün millətlərin və xalqların nümayəndələri öz doğma dillərini, mədəniyyətlərini, adət- ənənələrini qorumaq və inkişaf etdirmək imkanına malikdilər.

Milli müstəqillik ideologiyası insana öz mənəvi dünyasını zənginləşdirməyə geniş imkan yaradır. Bunun reallaşması, hərtərəfli təhsilli, mənəvi, əqli, fiziki cəhətdən yetkin nəslin formalaşması ilə bağlıdır.

Milli müstəqillik ideyasının həyata keçirilməsi prosesində şəxsiyyət azadlığı məsələsi də mühüm yer tutur. Çünki, yalnız öz hüquq və vəzifələrini yaxşı bilən, öz gücünə və imkanlarına güvənən insan ətrafında baş verən hadisələrə müstəqil şəkildə münasibət göstərə, şəxsi maraqları ilə ölkənin, xalqın maraqları arasında harmoniya yarada bilər. Qeyd edək ki, "azadlıq" anlayışı son dərəcə geniş məna kəsb edir. Bu mənalar sırasında həm müsbət, həm də mənfi çalarlar təzahür edir [9, s.1].

Cəmiyyətin inkişafında mühüm əhəmiyyətə malik, bəşəriyyətin əzəldən bəri can atdığı ümumbəşəri prinsiplərdən biri vicdan azadlığıdır. O "əqidə azadlığı"ndan daha geniş məna kəsb edir. "Əqidə azadlığı" insanın öz şəxsi

qənaətinə görə insanın hər hansı bir dinə inamını ifadə edir. "Vicdan azadlğı" prinsipi isə cəmiyyətin qanunlarına müvafiq olaraq insana inam və məslək azadlığını nəzərdə tutur.

Demokratikləşmənin cəmiyyət həyatında dərinləşməsi prosesi milli ideologiyanın prinsiplərindən biridir. Bu prinsip nəzərdə tutulmuş məqsədlərin, müəyyən proqramların və qəbul edilmiş qərarların həyata keçirtilməsini təmin edir. Demokratik prinsiplərin mənimsənilməsi uzunmüddətli prosesdir.

Xalqın mədəniyyətində yer almayan demokratiya onun həyat tərzinin tərkib hissəsi ola bilməz. Elə buna görə də hər bir dövlət özü üçün məqsədyönlü olan demokratik inkişaf yolunu seçməlidir. İdeya olaraq demokratiya anlayışı Qərbdən gəlsə də, Şərqdə də onun spesifik xüsusiyyətləri vardır. Bu hakimiyyət və etibar ənənəsində özünü göstərir [5, s.1].

Qədim dövrlərdən başlayaraq bu günə kimi Azərbaycan xalqının adət-ənənələrini. milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sisteminin əsasında azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olunduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Böyük mütəfəkkirlərin, dövlət adamlarının, ictimai xadimlərin fəaliyyətində bu ideya zaman-zaman özünü göstərmişdir. Belə ki, xalqımız dünyaya Zərdüştü və "Avesta" kitabını, "Kitabi- Dədə Qorqud"u və qorqudçuluq məfkurəsini, "Koroğlu"nu bəxş etmişdir ki, bunlar da bir tərəfdən ümumazərbaycançlıq məfkurəsinin, məxsusi birgə dəyərlərin, ümumi düşüncə və ictimai davranış tərzinin formalaşması və adət-ənənə sisteminin bərqərar olunmasına təkan vermiş, digər tərəfdən isə Şərqin oxşar mənəvi dünyasının əsaslarının qurulmasında mühüm rol oynamışdır.

Sonrakı dövrlərdə Şah İsmayıl Xətainin yaradıcılığının ana xəttini təşkil edən azərbaycançılıq ideyası XIX əsrin sonu, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş milli maarifçilərin də yaradıcılığına öz təsirini göstərmiş, təkmilləşmiş və sistemli bir milli ideyaya çevrilmişdir.

Milli ideyanın formalaşmasının mühüm atributlarından biri də tolerantlığın təbliğ edilməsi, digər xalqların mədəniyyətinə hörmətlə yanaşılmasıdır. Azərbaycançılığın əsas qayəsi istər azərbaycanlılara, istərsə də dünyada yaşayan digər xalqlara qarşı multikultral münasibət göstərməkdir. Multikultralizm dəyərinin dili isə qarşılıqlı əməkdaşlıq, həmrəylik, bir-birinə hörməti ehtiva edir [6, s.2].

Milli ideologiyamız olan azərbaycançılıq ideologiyası ölkədə kimliyindən asılı olmayaraq, bütün fərqli etnikləri bir arada birləşdirir. Bu prinsip dünyanın bütün xalqları və millətləri arasında birləşdirici, barışdırıcı, həmrəylik missiyası kimi qəbul olunur. Ona görə də azərbaycançılıq ideologiyasının təbliği və onun təməl prinsiplərinin cəmiyyətə çatdırılması mühüm əhəmiyyət kəsb edir. Bu ideologiyanın ölkədə yaşayan hər bir vətəndaşa hakim

olmasından ötəri geniş tədbirlər həyata keçirilməlidir.

Psixologiyanı az-çox anlayan, cəmiyyətlə işləyən mütəxəssislər bilirlər ki, hər hansı bir sosial sistemdə ideya konkret olmadıqda müəyyən fəsadlara gətirib çıxarır. Ona görə də inkişaf üçün hökmən ideyanın aydın olması vacibdir. Bütün bunlar nəzərə alınmaqla azərbaycançılıq müfəssəl şəkildə təbliğ olunmlalı, həmçinin sözügedən ideya müəyyən qədər cilalanmalı və təkmilləşdirilməlidir. İstər ali məktəblərdə, istərsə də orta ümumtəhsil ocaqlarında, ümumiyyətlə, harda olursa-olsun, ümumi şəkildə də olsa, azərbaycançılıq haqqında söhbət edilməlidir. Tədbirlərdə, mühazirələrdə bu ideologiyanı qabartmaq lazımdır. Bu heç də şovinizm ideyası kimi qəbul olunmamalıdır. Əksinə hər bir yeniyetmənin, gəncin milli ideologiyasının aşkara çıxarılması üçün çox vacib məsələdir [8, s.1].

Azərbaycançılığın əsas elementlərindən biri vətəndaşlıqdır. Vətəndaşlıq kollektiv qərarların qəbul edilməsində vacib amildir. O cəmiyyətdə əxlaqla hüququn inteqrasiyasına xidmət edir. Vətəndaşlıq mövqeyindən çıxış edərək hər bir şəxs vətənpərvərlik ruhunda tərbiyə olunur. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması milli təhlükəsizlik baxımından çox əhəmiyyətlidir. Vətənpərvərlik və dövlətçilik azərbaycançılıq ideyalarının mühüm əsasını təşkil edir [11, s.1].

Azərbaycançılıq ideyasının əhəmiyyəti barədə professor Niyazi Mehdinin qeydləri çox maraqlıdır [3]. Bu ideyanın ölkədə və dünyada təbliğ olunması çoxmillətli, multikultural və tolerant ölkəmiz üçün çox vacibdir. Ölkəmiz dünyanın ən həssas coğrafiyasında yerləşdiyinə və təbii sərvətləri zənginliyinə görə, dünya güclərinin diqqətində yer alan, lakin çox da böyük olmayan dövlətimizin müstəqilliyini qorumaq və möhkəmləndirmək üçün azərbaycançılıq ideyasının ölkədə və dünyada təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

Hazırda azərbaycançılıq ideyasının təbliği dövlət tərəfindən yüksək səviyyədə təmin edilir, ölkəmiz dünya birliyinə sürətlə inteqrasiya edir. Hazırda ölkəmiz dünya dövlətləri tərəfindən cəlbedici dövlət kimi qəbul olunur. Azərbaycanın şərqlə qərbi, şimalla cənubu birləşdirən böyük kommunikasiya dəhlizinə, diskussiya, dialoq mərkəzinə çevrilməsi, ölkəmiz üzərində beynəlxalq əlaqələrin getdikcə genişlənməsi dövlətimizin gücünü və qüdrətini yüksəldir. Azərbaycanın regionun ən böyük sabit, inkişaf edən ölkəsi kimi, dünya dövlətləri tərəfindən seçilməsi heç də təsadüfi deyil və bu proses ilk növbədə azərbaycançılıq ideyasının təbliği nəticəsində baş verir [3, s.25].

Hər bir ölkə vətəndaşı yaxşı başa düşür ki, müasir dünyada informasiya əldə etmək və yaymaq ölkəmizin həyatında xüsusi rol oynayır və bu mərhələdə azərbaycançılıq ideyası istiqamətində görülən işlərlə yanaşı, həmin işlərin internet mediya resurslarında, sosial şəbəkələrdə təbliğ olunması mühüm əhəmiyyətə malikdir. Buna görə də hər birimiz bu imkanlardan səmərəli istifadə

etməyə, ölkəmizin qazandığı uğurları geniş təbliğ etməyə cəhd etməli, bu ideyanın mahiyyətini dünyanın aparıcı dillərində beynəlxalq ictimaiyyətə çatdırmağı bacarmalıyıq [10, s.2].

Müasir dövlətçilikdə qloballaşmanın bir sıra inkişaf göstəriciləri milli mənsubluğa təsir göstərir. Qloballaşan dünyada bəzən vətənpərvərlik hissi daha çox vətəndaşlıq, loyallıq və tolerantlıq hisləri ilə əvəz olunur. Müəyyən hallarda isə sənayeləşmə, demokratikləşmə, məlumat mübadilə dairəsinin genişlənməsi və s. qloballaşma prosesləri etnomilli mənsubiyyətə təsir edərək münaqişələrə də səbəb olur. Bunu nəzərə alan bir sıra təhlilçilər qloballaşmanın milli ideologiya ilə ziddiyyətlər təşkil etdiyini önə çəkir, onları antaqonist (düşmən, bir-birinə tam ziddiyət) dəyərlər sistemi kimi xarakterizə edir. Buna görə də müasir dünyada milli ideologiya ilə ümumbəşəri dəyərlərin ahənginə nail olmaq, qloballaşma prosesinə öz milli mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası bu çağırışlara cavab verir, milli mənsubluğun müdafiəsi ilə yanaşı, ümumbəşəri dəyərləri özündə ehtiva edir. Eyni zamanda azərbaycançılıq ideyası qloballaşma şəraitində universal dəyərlərin qorunmasını önəmli hesab edir və ölkəmizin milli modernləşmə yolunu bu dəyərlərin bərqərar olduğu Avropa məkanına inteqrasiyada görür. İnkişaf etmiş Avropa ölkələrinin tarixi göstərir ki, baş verən hər hansı bir siyasi, iqtisadi kataklizmlərə, hakimiyyətlərin bir-birini əvəzləməsinə, dövlət quruluşunda dəyişikliklərə baxmayaraq, bu ölkələrdə müstəqillik və demokratik inkişaf yolu dönməz və sarsılmazdır. Azərbaycançılıq ideyası da universal dəyər olan insan hüquqlarının qorunması, vahid Avropa məkanında beynəlxalq təhlükəsizliyin təmin edilməsi, eyni zamanda ölkənin ərazi bütövlüyü prinsipi və digər vacib dəyərləri nəzərdə tutaraq qloballaşmanı müasir dünyanın təbii inkişaf prosesi hesab edir [6, s.3].

Azərbaycançılıq ideologiyası milli dövlət ideologiyası kimi, Azərbaycan Respublikası Konstitusiyasına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərli sistemdir. Azərbaycançılıq ideologiyası XIX əsrin sonu - XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşmış və böyük bir təkamül yolu keçmişdir.

Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir. 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra, o, xaricdəki soydaşlarımızın mütəşəkkil qüvvəyə çevrilməsinə, onların vətənimizlə əlaqələrinin möhkəmlənməsini prioritet məsələ kimi hər zaman diqqətdə saxlamışdır.

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olmuşdur. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilir.

Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təşkil etməklə yanaşı, millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi çoxmillətli Azərbayacan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.

2001-ci il 9 noyabrda Dünya azərbycanlılarının I qurultayında dövlətin suyasətini səciyyələndirərkən ümummilli lider Heydər Əliyev onun prioritet ideyasını belə nəzərə çatdırırdı: "Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət- ənənələrini yaşatmalıyıq".

Azərbaycançılıq ideyası Azərbaycan ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya həm də Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir. Azərbaycançılıq Azərbaycanın dünya birliyinə inteqrasiyasının ideya əsasını təşkil edir. Bu ideya ilə biz özümüzü dünyaya tanıdır, onun tolerantlıq, etnik müxtəliflik kimi mütərəqqi dünya dəyərlərini özündə birləşdirən ideya kimi təbliğ edirik.

Tarixin müxtəlif mərhələlərində ortaya atılan azərbaycançılıq ideyası məsələsini çox uğurla həyata keçirən, onu daha da zənginləşdirən ümummilli lider Heydər Əliyev olmuşdur. Tarixdən məlumdur ki, azərbaycançılıq ideyası hələ 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ideologiyamızın tərkib hissəsi kimi önə çəkilib. Həmin dövrdə azərbaycançılıq ideyasının inkişaf etməsi ona görə önə çəkilirdi ki, Azərbaycanda, xüsusən Bakıda çoxlu etnik qruplar yaşayırdı. Bu amili nəzərə alan M.Ə.Rəsulzadə və həmkarları azərbaycançılıq ideologiyasının təbliğatına səylə çalışırdılar. Lakin bolşeviklərin işğalı ilə bu məsələ yarımçıq qaldı. Azərbaycançılıq ideyasının yenidən təbliğatına yalnız Heydər Əliyev 1969-cu ilin iyul ayında Azərbaycana rəhbərliyə gəlməsilə başlanıldı. 1978-ci ildə Azərbaycan SSR-in qəbul olunmuş yeni Konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət kimi qəbul olundu və azərbaycançılıq ideyası irəli sürüldü [4, s.38].

Hazırda azərbaycançılıq ideyası dövlətimiz tərəfindən yüksək səviyyədə təbliğ edilir, ölkəmiz dünya birliyinə sürətlə inteqrasiya edir, Azərbaycan Respublikası hazırda dünya dövlətləri tərəfindən cəlbedici dövlət kimi qəbul olunur.

Azərbaycanın dünyanın 120 ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədr seçilməsi dövlətimizin böyük kommunikasiya dəhlizinə, diskussiya, dialoq mərkəzinə çevrilməsi ölkəmizdə ideoloji dəyərlərin təbliğinin və milli təhlükəsizlik baxımından inkişafının nəticəsidir.

## Ədəbiyyat

1.Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği (Milli Kitabxananın yaranmasının 90 illiyinə həsr edilmişdir) Bakı, 2013.
2.Azərbaycançılıq ideyasının təbliği-Paralel.az.9 dekabr 2013.
3.Niyazi Mehdi "Çətin və dolaşıq durumların kultrolojisi (Şərq və Qərb mədəniyyətlərində virtual örtüyün "kosmoqoniyası)".
4.Hüquqi dövlətdə dövlətçilik və azərbaycançılıq ideyasının təbliğində KİV-in rolu. "Səs" qəzeti 12 iyun 2015.
5. Rüstəmova A. "Respublika" qəzeti. sentyabr 2018.
6.Rzayev R.. Dövlət quruculuğunda azərbaycançılıq ideologiyasının rolu. Bakı,2013
7."Şərq" qəzeti. 25.02.2016.
8.Paralel.az.09.12.2019..
9.Azərbaycançılıq ideyasının təbliği- Palitranews.az 8 dekabr 2014.
10.Azərbaycançılıq ulu öndərin tarixi uzaqgörənliyi...www.elibraryşaz qzt2018

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI

***Təranə Murad qızı İsayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*taranaisayeva@mail.ru*

"Qarabağ Azərbaycandır!"
**İlham Əliyev**

**Açar sözlər:** *Qarabağ Azərbaycandır, tarix dərsi, mənəvi tərbiyə, vətənpərvərlik*

*Şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılmasında tarix fənninin xüsusi rolu vardır. Tarixi faktlar şagirdlərə güclü, emosional təsir göstərir və onlar dərk edildikcə bu təsir daha da artır və onlarda hadisələrə öz münasibətlərini bildirmək bacarığı formalaşdırılır. Şagirdlər təhsil illərində tarixi materialların əsasında dövlət, vətən, vətənpərvərlik, ləyaqət, namus, vicdan, mərdlik, dosta məhəbət, düşmənə nifrət və s. anlayışları mənimsəyirlər. Hazırda şagirdlər rəşadətli ordumuzun düşməndən azad etdikləri ərazilərdə bayrağımızın sancılması, onun yüksəklərə qaldırılmasından qurur hissi keçirərək mənəvi, estetik zövq alırlar. Onlar bayraqlara sarılıb Qarabaq bizimdir, bizim olacaq! Qarabağ Azərbaycandır! deyə küçələrdə qışqıra-qışqıra gedərək müzəffər ordumuzun rəşadətlərindən fəxr edirlər. Bu onlarda ruh yüksəkliyi və vətənpərvərlik və hissləarini formalaşdırır.*

# ФОРМИРОВАНИЕ ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ, В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ В ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Тарана Исаева***

**Ключевые слова:** *Карабах- это Азербайджан, урок истории, нравственное воспитание, патриотизм*

*Урок истории играет особую роль в формировании нравственного воспитания учащихся. В течение учебных лет ученики узнают о государстве, любви, ненависти к врагу и др. В данный момент ученики*

*получают нравственное наслаждение от того, что наша храбрая армия с гордостью поднимает наш флаг на освобожденных территориях Азербайджана от оккупации врага. Окутываясь во флаг Азербайджана, крича на улицах- "Карабах - наш, он будет нашим! Карабах - это Азербайджан!" ученики гордятся храбростью нашей победоносной армии.*

***Isaeva Tarana***

**Key words:** *Karabakh is Azerbaijan, history lesson, moral education, patriotism*

## FORMATION OF PATRIOTIC EDUCATION OF STUDENTS IN SECONDARY SCHOOLS IN TEACHING THE HISTORY OF AZERBAIJAN

*The history lesson plays a special role in shaping the moral education of students. During the academic years, students learn about the state, During the academic years, students learn about the state, homeland, patriotism, dignity, honor, conscience, courage, friendly love, hatred of the enemy, etc. At the moment, students get moral pleasure from the fact that our brave army proudly raises our flag in the liberated territories of Azerbaijan from the occupation of the enemy. Shrouding in the flag of Azerbaijan, shouting in the streets - "Karabakh is ours, it will be ours!" Karabakh is Azerbaijan!" the students take pride in the bravery of our victorious army.*

Bu gün təhsil müəssisələrində şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılması şəxsiyyətin hərtərəfli və məqsədyönlü inkişafına istiqamət verir. Şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılmasında tarix fənninin xüsusi rolu vardır. Mənəvi tərbiyənin formalaşdırılmasında müəllimin başlıca vəzifəsi tarix dərsliklərinin mətnlərində verilmiş tərbiyəvi təsiri gücləndirən fakt və hadisələri, ifadələri seçib inandırıcı, emosional formada şagirdlərə çatdırsın. Tarixi faktlar şagirdlərə güclü, emosional təsir göstərir və onlar dərk edildikcə bu təsir daha da artır və şagirdlərdə hadisələrə öz münasibətlərini bildirmək bacarığı formalaşdırılır.

Tarix dərsi mənəvi tərbiyənin tərkib hissələrindən biri olan əməyə və əmək adamlarına hörmət hissi, xalqın əmək ənənələrinin öyrənilməsi, əmək mədəniyyəti və bu kimi anlayışların mahiyyətinin açılmasına imkan yaradır. Məsələn, Azərbaycan tarixi 7 sinif dərsliyində şagirdlər "Azərbaycan erkən orta

əsrlərdə" bölməsində "Feodal münasibətlərinin inkişafı" mövzusunda VI əsrin ortalarında Sasani şahları Azərbaycanın Xəzərsahili bölgələrində möhkəmlənmək, şimaldan türk xalqlarının axınının qarşısını almaq üçün Böyük Qafqaz dağlarının zirvələrindən Xəzər dənizin içərilərindən çəkilən və günümüzə qədər qalan öz əzəməti ilə insanları heyran edən möhtəşəm Dərbənd səddi və Dəmir qapı, Dərbənd qalasının yaradılması haqqında biliklər əldə etməklə yanaşı, onlarda həm də anlayışlar formalaşır [1, s.9]. Daha sonra şagirdlər Dərbənd səddinin möhtəşəmliyi, və ya ona sərf olunan əmək haqqı, səddin tikilməsinin səbəbi, tarixi ilə tanış olduqda, bu işdə əməyin nə qədər böyük rolu olduğunu görürlər.

Mənəvi tərbiyə özündə dəyərli hisləri formalaşdıran geniş anlayışdır. Bu geniş anlayış bəşər tarixində insanın yarandığı vaxtdan günümüzədək cəmiyyətin bütün sahələrində yaranmış, yaratmış, formalaşmış və inkişaf etmişdir. Tarixi oxuduqca şagirdlər dərk edirlər ki, ictimai-iqtisadi formasiyanın biri-birini əvəz etməsi əmək sayəsində həyata keçmişdir. Müəllim şagirdlərə əməyin şərəfli, zəhmət yolu, alın təri, xöşbəxtliyə aparan yol olduğunu göstərərək, Qarabağ müharibəsində torpaqları düşməndən azad etmək üçün müzəffər ordumuzun Vətən uğrunda nə qədər böyük əmək sərf etdiyini şərh etməklə, əməyin əvəzedilməz rolunu izah edir. Mənəvi tərbiyənin tərkib hissəsi olan milli şüur millətin varlığı, özünəməxsusluğu, milli özünüdərk və özünütəsdiqin, milli ləyaqətin və ümumbəşəri dəyərlərin məcmusudur. Şagirdlər təhsil illərində tarixi materialların əsasında dövlət, vətən, vətənpərvərlik, ləyaqət, namus, vicdan, mərdlik, dosta məhəbət, düşmənə nifrət və s. anlayışları mənimsəyirlər. Məktəbdə və dərsdənkənar tədbirlərdə milli şüurun formalaşmasında xalq bayramlarının, tarixi günlərin təntənəli qeyd olunmasının böyük tərbiyəvi əhəmiyyəti vardır. Bu şagirdlərin mənəvi aləminə müsbət təsir göstərməklə yanaşı, onlarda milli mənlik şüurunun təşəkkülünə səbəb olur. Şagirdlər həm tarix təlimi prosesində, həm də sinifdənkənar tədbirlərdə milli vətənpərvərliyə dair biliklər əldə edirlər.

Məsələn, XI sinif Azərbaycan tarixi dərsliyində verilmiş "Azərbaycan II Dünya müharibəsi ərəfəsində" adlı mövzu 1941-ci ilin qışında Moskva ətrafında aparılan döyülər və alman faist ordusunun burada darmadağın edilməsi İkinci Dünya müharibəsinin ən böyük hadisələrindən biri idi. Bu qələbə faşist ordusunun məlubedilməzliyi haqqındakı əfsanələrə son qoydu. 1941-ci il Moskva urunda döyüşlərdə tank hissə komandiri Həzi Aslanov, polkovnik Yaqub Quliyev, snayperçi Ziba Qəniyeva, təyyarəçi Züleyxa Seyidməmmədova və başqa azərbaycanlılar qəhrəmanlıq göstərmişdilər. Azərbaycanlılar Stalinqrad urunda döyüşlərdə də fəal iştirak etmişdilər. Məhz burada göstərdiyi rəşadətə görə tank alayının komandiri Həzi Aslanov birinci dəfə Sovet Ittifaqı Qəhrəmanı adı ilə təltif edilmişdi [2, s.131].

Müəllim şagirdləri "Bakı nefti SSRİ-ni müdafiə etməyə və düşmən üzərində tezliklə qələbə çalmağa tam kifayət edirdi" cümləsi ilə marşal G. Jukovun yazısından bir sənədlə tanış edir və Böyük Vətən müharibəsində Azərbaycanın iki cəbhədə iştirakını həm də qələbə çalmasında misilsiz polunu göstərir [2,s.135]. Bu mövzular şagirdlərin mənəvi tərbiyəsini formalaşdırır. XI sinif Azərbaycan tarixi dərsliyində verilmiş "Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müasir mərhələdə: Birinci Qarabağ müharibəsi" mövzusu keçirilərkən müəllim izah edir ki ermənilər əvvəl sovet, sonra Rusiya hərbi qüvvələrinin köməyindən istifadə edərək azərbaycanlıları bu ərazilərdən sıxışdırılmışlar. 1992-1993 cü illdən başlayaraq düşmən torpaqlarımızın 20% ərazisini Dağlıq Qarabağ da daxil işğal etdilər. Onlar işğal etdikləri ərazilərdə dinc əhaliyə amansız divan tuturdular. Düşmən XX əsrin əvvəlində 1918- ci il 31 mart, əsrin sonunda 1992 ci il 26 fevralda Xocalıda soyqrım törətdi. Bu mövzuda müəllim şagirdlərə BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müvafiq qətnamələrinin yerinə yetirilməməsinin nə ilə bağlı olduğunu, atəşkəsin imzalanmasının Azərbaycan Respublikası üçün müsbət tərəfini izah edir [2,s.170].

"Qətiyyətin nümayişi" mövzusunda şagirdlər torpaqlarımızı düşmənlərdən azad etmək uğrunda vuruşan, canlarından keçən qəhrəmanlarımızdan Mübariz İbrahimov haqqında biliklər əldə edirlər. Onlara bildirilir ki, 2010-cu ilin iyun ayında gizir Mübariz İbrahimov təkbaşına ermənilərlə döyüşə girmiş və çoxlu sayda düşməni məhv edə bilmişdir. "...Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından, ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim..." Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun valideynlərinə son məktubundan sitat gətirilir. Müəllim şagirdlərə Mübariz İbrahimovun Vətən uğrunda belə canından keçməyə hazır olduğunu göstərir [2,s.199].

2016-cı ilin aprel döyüşlərində Vətən uğrunda həlak olmuş Azərbaycanın milli qəhrəmanları Şükür Həmidov, Murad Mirzəyev, Samid İmanovu göstərmək olar. Döyüşlər nəticəsində, ümumi olaraq, 11000 hektarlıq ərazi işğaldan azad edilmişdir. Aprel döyüşçülərinin şücaəti haqqında gənclərdə Vətən, Azərbaycan naminə vətənpərvərlik hislərinin formalaşdırmaq ən vacib vəzifə olmalıdır.

"Vətənim, torpağım üçün hər zaman canımdan, qanımdan keçməyə hazıram. Həmişə arzu eləmişəm ki, şəhid olum, Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüm". Müəllim Lələ-təpə uğrunda gedən döyüşlər zamanı şəhid olmuş Pəncəli Teymurovun öz toyunda etdiyi çıxışından misal gətirərək şagirdlərdə vətənpərvərlik hisslərini formalaşdırır [2,s.201].

Hazırda 27 sentyabr 2020 ci il tarixdən başlayaraq dəfələrlə düşmən atəşkəsi pozmuş və digər ərazilərimizi işğal etmək niyyətində olduqlarını

bildirmişdir. Şanlı ordumuzun misilsiz səyi nəticəsində düşmənin hücumlarının qarşısı alınmış, döyüşçülərimiz işğal olunmuş Dağlıq Qarabağ ərazisini azad etmək uğrunda mübarizə apararaq düşməni geri çəkilməyə məcbur etmişlər. Düşmən bu dəfə də bölgədəki dinc əhalini ballistik raketlərlə vuraraq, evləri dağıtmış və dinc sakinləri qətlə yetirmişdir. Xüsusilə, Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə iki dəfə Bərdəyə, Tərtərə atılan Smerç uzaqmənzilli raketlərlə yaşayış binaları vurulmuş, nəticədə evlər dağıdılmış, insanlar dağıntılar altında qalaraq, həlak olmuşlar. Ermənistan Azərbaycanda Xocalı hadisəsini Cəncədə, Bərdədə təkrarlamışdır. Azərbaycan ordusunun döyüş meydanındakı rəşadətini, gücünü, bacarığını, qələbələrini görən şagirdlərimiz, gənclərimiz, hadisələrin canlı şahidi oldular. Onlar Vətən uğrunda vuruşan, canından keçən ordumuzla fəxr edir, vətənin daim keşiyində durmağın vacibliyini dərk edirlər. Şagirdlər rəşadətli ordumuzun düşməndən azad etdikləri ərazilərdə bayrağımızın sancılması, onun yüksəklərə qaldırılmasından qurur hissi keçirərək, mənəvi, estetik zövq alırlar.

Ali Baş Komandan İlham Əliyevin: "Azərbaycan ordusu dünyanın ən güçlü orduları sırasındadır", “Qarabağ bizimdir, bizim olacaq!”, “Qarabağ Azərbaycandır!” çıxışlarından ruhlanaraq xalqımız, xüsusən də, şagirlərimiz bayraqlara sarılıb, küçələrdə qışqıra-qışqıra “Qarabağ Azərbaycandır!” deyə gedərək müzəffər ordumuzun qələbələri ilə fəxr edirlər. Bu onlarda vətənpərvərlik, ruh yüksəkliyi, milli şüur, milli ləyaqət hislərini formalaşdırır.

Şagirdlərdə tarixi materialların mənimsənilməsində mətndən əlavə, müəllimin şifahi şərhi mühüm rol oynayır. Müəllim tarixi hadisələrin təfərrüatını emossionallıqla, izahlı-təsvirlə başa saldıqda, şagirdlərdə təsəvvürlər formalaşır. Bu gün Vətən üğründa gedən müharibənin izləyiciləri olan şagirdlər baş verən hadisələrin sanki canlı iştirakçılarına çevrilmişlər.

Məsələn, 7 sinif Azərbaycan tarixi dərsliyində şagirdlər "Xudafərin körpüsünün birləşdirdiyi iki Azərbaycan dövləti" mövzusunda verilmiş mətn ilə tanış olurlar. Müəllim mətndə verilmiş XI (1027) əsrdə hərbi məqsədlə Araz çayı üzərində inşa olunmuş Xudafərin körpüsünün Şəddad İbn Məhəmməd tərəfindən saldırıldığını və körpünün iqtisadi-mədəni əlaqələrin inkişafında əhəmiyyətli rolu olduğunu izah edir. Dərslikdə Xudafərin körpüsünün Cəbrayıl rayonundan illüstrasiyası verilmiş, hətta düşmən tapdağı altında olunduğu da qeyd edilmişdir [1,s.51]. Hazırda həmin ərazilər düşməndən azad edilmiş və bu ərazilərdə Azərbaycan bayrağı dalğalanır.

Şagirdlər tariximizdən bilirlər ki, "Bir kərə yüksələn bayraq bir daha enməz". Təlim prosesində onlar maddi və mənəvi abidələrimizin tarixini öyrənməklə yanaşı xalqımızın tarixinin, incəsənətinin qədimliyinə inanır, ulu babaları ilə fəxr edir, onlarda milli özünəqayıdış hissləri güclənir. Təhsil alan yeniyetmələrimiz bəşəriyyətin maddi və mənəvi mədəniyyət sahəsindəki nailiyyətləri ilə tanış olarkən xüsusi estetik zövq alırlar. Bu materialları mənim-

səməklə şagirdlərdə əxlaqi saflıq, ecazkar sənətkarlığa məhəbbət, gözəlliyə rəğbət kimi keyfiyyətlər təşəkkül tapır. Bu gün ön cəbhədə vuruşan gənclərimiz, təhsil aldıqları müddətdə onların elmi dünyagörüşü, mənəvi tərbiyəsi, siyasi mədəniyyəti formalaşır.

Vaxtilə şagirdlərimiz, tələbələrimiz və hazırda ön cəbhədə Vətən üçün canlarından keçən əsgərlərimiz qələbə uğrunda tarix yazırlar və biz onlarla fəxr edirik.

**Ədəbiyyat**

1. Azərbaycan tarixi, 7-ci sinif dərslik Bakı: 2018.
2. Azərbaycan tarixi, 11-ci sinif dərslik Bakı: 2018.
3. Cəbrayılov İ. Tarixin tədrisi metodikası, Bakı: 2006.
4. Qasımova A. Yeniyetmələrin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi, Bakı: 2006.

# İDİL KALMIKLARININ TÜRK XALQLARI VƏ RUSİYA İLƏ ƏLAQƏLƏRİ

***Muhittin Hasan Hüseyin oğlu Kavık***
***Bakı Dövlət Universiteti***
***muhittinkavk20@gmail.com***

**Açar sözlər:** *İdil kalmıkları, Rusiya, başqırdlar, noqaylar, qazaxlar*

*Kalmıklar, XVII əsrin birinci yarısında Qərbi Monqolustandakı əhali sıxlığı və tayfalar arasındakı müharibələrdən uzaqda rahat həyat yaşamaq üçün qərbə köç hərəkatlarına başladılar. Kalmıklar qərbdə ilk yerləşdiyi yer olan Sibirdə ruslara qarşı müvəffəq ola bilməyəcəklərini anladılar və İdil – Ural çayları arasındakı ərazilərə köç etdilər. Kalmıkların İdil bölgəsində yaşayan türk xalqları ilə mübarizə etmələri rusların bölgədə rahat yerləşməsinə imkan verdi. Kalmıklar ilə mübarizə aparan başqırdlar zəiflədi və onların Rusiyaya qarşı hər bir üsyanı amansızlıqla yatırıldı. Noqaylar kalmıklar ilə müharibələrdən sonra torpaqlarını tərk edib, Krım və Anadoluya köç etmək məcburiyyətində qaldılar. Kalmıklar ilə müharibə edən qazaxlar isə Ebulxəyr xan dövründən başlayaraq, zamanla rus hakimiyyətini qəbul etmək məcburiyyətində oldular. Bu səbəblərdən məqalədə İdil kalmıklarının İdil bölgəsindəki etnik yerdeyişməsi və siyasi vəziyyətə təsirləri müzakirə mövzusu olaraq dəyərləndirilir.*

## ОТНОШЕНИЯ ВОЛЖСКИХ КАЛМЫКОВ С ТУРЕЦКИМ НАРОДОМ И РОССИЕЙ

**Мухиттин Кавык**

**Ключевые слова:** *Волжских калмыков, Россия, башкиры, ногайцы, казахи*

*Калмыки начало миграционных движений на запад, чтобы жить комфортной жизнью вдали от населения и племенных войн в Западной Монголии в первой половине 17-го века. Они понимали, что им не удастся против русских в Сибири, они мигрировали на земли между Волгой и Уралом. Калмыки борются с турецкими народами живущими в Поволжье, позволила россиянам комфортно поселиться в регионе. Башкиры, борясь с калмыками, ослабли, каждое восстание против России было жестоко подавлено. После войны с калмыками ногайцы*

*покинули свои земли и иммигрировали в Крым и Анатолию. Казахи, воевавшие с калмыками, должны были постепенно принять русское господство, начиная с периода Абулхайр хана. По этим причинам в статье основное внимание уделяется влиянию Волжских калмыков на этнические изменения и политическую ситуацию в регионе Волга.*

## RELATIONS OF THE VOLGA KALMYKS WITH THE TURKISH PEOPLE AND RUSSIA

**Muhittin Kavik**

**Key words:** *Volga Kalmyks, Russia, Bashkirs, Nogays, Kazakhs*

*Kalmyks starting the migration movements to the west to live a comfortable life away from the population pressure and the tribal warfare in Western Mongolia at the first half of the 17th century. They realized that they could not succeed against the Russians in Siberia and immigrated to the land between Volga and Ural. Kalmyks, who struggled with the Turks living in the Volga region, allowed the Russians to settle comfortably in the region. The Bashkir, struggling with the Kalmyks, weakened and every rebellion against Russia was cruelly suppressed. After their war with the Kalmyks, the Nogai left their lands and immigrated to Crimea and Anatolia. The Kazakhs, who fought with the Kalmyks, had to gradually accept the Russian domination starting from the Abulkhayr Khan period. For these reasons, in the article, focused on the effects of Volga Kalmyks on the ethnic change and political situation in Volga region.*

Qızıl Ordanın dağılması ilə yaranan xanlıqlar - Qazan xanlığı 1552-ci ildə, Həştərxan xanlığı isə 1556-cı ildə Rusiya tərəfindən işğal edildi. Moskva ilə Qazan arasında Qazan xanı Ulu Məhəmməd xanın qurduğu Qasım xanlığı da yaranmasından qısa müddət sonra Rusiyanın hakimiyyəti altına keçdi. Rusiya işğal etdiyi tatar xanlıqlarından sonra da dogər tatar xanlığı olan Sibir xanlığı və qazaxlar ilə qonşu oldu.

Rusiyanın ilk hədəfi Sibir xanlığı idi. İdil ətrafındakı xanlıqları elə keçirdikdən sonra Sibir xanlığı ilə müharibələrə əhəmiyyət verən Rusiya, təxmini Həştərxan əsilli tatar olan Stragonovlar ailəsinə imtiyazlar verdi. Çarın 1558-ci ildə olan bu imtiyazına görə; Stragonovlar, şərq ticarəti üçün imtiyazlı ailə oldular və xüsusi hərbi dəstə yürütmə icazələri aldılar. Stragonovlar güclü Sibir xanlığını zəiflətmək üçün Rus Kazaklarından olan Yermak Timofoyeviçi muzdlu hərbçi kimi Sibirə göndərdilər. Bir neçə dəfə Yermaka məğlub olan Sibir xanı Küçüm xan, gecə hücumu ilə Yermakı öldürdü və qoşununu

qılıncdan keçirdi. Bu hadisəyə baxmayaraq, Sibir xanlığı Rusiya qarşısında zəiflədi və ruslarla 1598-ci il müharibəsində məğlub oldu. Beləcə, Sibir xanlığına son qoyuldu [1, 792]. Sibir xanlığının yıxılışı və Rusiyanın xanlıq ərazilərinə yiyələnmə dövründə şərqdən bir başqa köçəri tayfa olan kalmıklar Sibirə yayılmağa başladı.

Monqol mənşəli buddist kalmıklar, qədim oyrad tayfalarından yarandılar. Oyradlar Çingiz xan dövründən əvvəl Şimali Monqolustanda meşəliklərdə yaşayırdılar. Oyrad adının mənası da monqolca meşə adamı deməkdir. Çingiz xan, öz dövlətini qurduqdan sonra idarəçilik nizami zamanında oyradları Altay dağları ərazisinə köçürdü. Oyradların Altay ətrafı ərazilərə köçməsi onların qərb istiqamətində ilk yürüşləri oldu. Daha sonra oyradlar Cuci ulusuna da daxil olub, Dəşti Qıpçaq və Rusiyanın işğalında iştirak etdilər.

Monqolustanda XV əsrin ortalarında Çingiz soyunun əhəmiyyəti azaldı və Oyrad birliyi güclənməyə başladı. 1368-ci ildə də Kubilay xanın yaratdığı Yüan xanədanı Çindən qovuldu. Bu tarixdən sonra Monqolustanın qərbindəki oyradlar ilə Daxili Monqolustandakı Çingiz soylular arasında daxili mübarizələr başladı. İşdə bu mübarizələrdən qaçıb, rahat həyat yaşamaq istəyində olan oyrad tayfalarından torguutlar, dörvöödlər Sibirə köç edərək, ruslar ilə əlaqə yaratdılar. Torguut noyanı Ho Urluk və Dörvööd noyanı Dalay Taişi liderliyindəki oyradlar Sibirdə Tar şəhəri yaxınlığına yerləşdilər. 1618-ci ildə Sibirə köç edən 50 min nəfərlik Oyrad qrupu, artıq Kalmık adını aldı. Oyradlara Kalmık adını onlarla hərbi – siyasi əlaqədə olan müsəlman türklər verdi. Türklərə görə oyradlar bütpərəst idi. Buna görə türklər oyradlara qədim dində qalanlar mənasında Qalmaq - Kalmık adını verdilər. Bir başqa əhəmiyyətli oyrad tayfası olan hoşuudlar da qeyd etdiyimiz daxili mübarizələr səbəbi ilə Tibet ərazisinə köç etdilər. Oyrad vətəni olan Qərbi Monqolustanda hakimiyyət yeganə güclü oyrad tayfası olaraq qalan Çoros tayfasına keçdi. Çoroslar bütün Qərbi Monqolustana hakim olaraq, 1635-ci ildə Cungar xanlığını qurdular.

Sibirə köç edərək Rusiya ilə əlaqə yaradan kalmıklar ruslardan icazə alaraq, İdil ətrafı ərazilərə köç etdilər. Kalmıkların məqsədi daxili mübarizələrdən uzaq rahat yaşamaq idi. Kalmıkların idil ətrafı ərazilərə köç etməsinə icazə verən rusların məqsədi isə, onları başqırdlara, Krım müsəlmanlarına, qazaxlara və noqaylara qarşı müdafiə xətti kimi istifadə etmək idi. Kalmık – rus əlaqələrində ruslar kalmıkları öz hakimiyyətlərindəki xalq kimi qəbul etdilər. Fəqət kalmıklar öz xanlıqlarını yaradaraq, müstəqil hərəkət edirdilər [7, 3 – 12; 8, 312]. 1623 – 1632-ci illər arasında Kalmık elçilərini qəbul etməyən ruslar onların Sibiri talan etmələri nəticəsində elçi qəbul etmək məcburiyyətində qaldılar. Kalmıklar ehtiyacı olan malları ruslardan alma yollarını tapmağa çalışdı. Çünki kalmıkların digər qonşuları özləri kimi köçəri idi. Ayrıca cənub qonşuları olan qazaxların hücumundan qorxan Ho Urluk, ilk

rus elçisini yaxşı qarşıladı. İlk kalmık – rus görüşməsində sülh üzərində razılaşmalarına baxmayaraq, kalmıklar Tar şəhərini talan etdi. Kalmıkların talan fəaliyyəti üzərinə Tobol, Tümen və Tar qubernatorluqları hərbi dəstələrini birləşdirib, kalmıklara qarşı yürüdü. Kalmıkları tapa bilməyən Sibir qubernatorluqlarının hücumu nəticəsiz qaldı. Kalmıklar təxminən Ural ətrafı ərazilərə qaçdılar. Beləcə, onların Sibirdə qısa müddət qaldığını görürük. Ho Urluk, Rusiyaya qarşı Sibirdə rahat yaşamanın mümkün olmadığını başa düşmüşdü. Ho Urluk, İdil – Yayıq çayları arasındakı ərazilərin köçəri maldarlıq üçün uyğun olduğunu gördü [5, 141 – 149].

1630-cu illərdə noqaylar üzərindəki təzyiqini artdıran kalmıklar onların qaçmasının qarşını almaq istəyirdilər. 1635-ci ildə Xəzər dənizinin şərqindəki Manqışlak yarımadasına çatan kalmıkların məqsədi qaçan noqayları öz hakimiyyətləri altına almaq idi. Kalmıklar qarşısında məğlub olan noqaylara ruslar kömək etmədi. Ruslar İdil ətrafı ərazilərin yeni hakimi olan kalmıklar qarşısında qalalara çəkilib, özlərini qorudular [2, 806; 11, 94]. Qısa müddətdə İdil bölgəsinin hakim hərbi qüvvəsi olan Ho Urlukun müvəffəqiyyətinin səbəbi M. İankifə görə, Çingiz xan kimi nizamlı hərbi dəstələrinin olması və əlavə olaraq, odlu silahlardan istifadə etmələri idi [5, 150].

Ruslar kalmıkların noqaylar ilə ittifaq qurub, yeni bir dövlət yaratmalarını özləri üçün təhlükəli vəziyyət hesab edirdi. 1640-cı ildə ana vətən Cungaryaya gedən Ho Urlukun yoxluğunda kalmıklara hücum etmək istəyən Tobol və Tümen qubernatorları onları tapa bilmədi. Ehtimalla Ho Urluk qubernatorların təxminindən əvvəl qayıtmışdı. Bu vəziyyətlə əlaqədar kalmıklar davamlı yerlərini dəyişdirirdi. Hər fürsətdə Rusiya ilə sülh axtaran Ho Urluk, 1643-cü ildə Həştərxanda bir müharibədə öldürüldü. Ho Urlukun bir neçə oğlu və nəvələri də burada həyatlarını itirdi. Bu vəziyyət Ho Urlukun Rusiya daxilinə dost kimi gəlmədiyini göstərir. Ho Urlukun ölümündən sonra kalmıkların xanı onun böyük oğlu Daiçin oldu. Daiçin 1655-ci ildə Rusiyaya bağlılıq andı içdi. İdil bölgəsində noqay – kalmık ittifaqının mənfi nəticələrindən qorxan Rusiya beləcə kalmıkların rus hakimiyyətinin qəbul etməsinin yolunu açdı. Rusiyanın digər müvəffəqiyyəti isə cənub – şərqdə güclü müttəfiq tapması idi [5, 150 – 160].

Rusiya 1661-ci ildə Krım yürüşünə kalmıklardanköməkçi hərbi dəstə tələb etdi. Döyüşə daxil olmayan kalmıklara əsirləri Həştərxan və ya ən yaxın rus şəhərinə götürmələri əmri verildi. Kalmıklara əsirləri götürmələri qarşılığında qənimət alacaqları bildirilirdi [5, 161].

1663-cü ildə noqaylar üzərindəki təzyiqlərini yenidən başlayan kalmıklar Krım xanının hakimiyyəti altında olan noqaylara da hücum etdilər. Krım xanı noqayları qorumaq üçün kalmıklar üzərinə hücuma başladı və 1000-ə yaxın kalmıkı əsir etdi. Krım xanı vəziyyət barədə osmanlılara xəbər verdi. Kalmıkların Osmanlı və onun hakimiyyətindəki Krım xanlığını narahat etməsi

rusların diqqətindən qaçmadı. Bu dövrdən sonra kalmık – rus əlaqələri inkişaf etməyə başladı və onlar rus xarici siyasətində daha əhəmiyyətli oldular [3, 75].

Kalmıkların Sibirə köçü ilə başlayan kalmık – başqırd müharibələrində kalmıklar hər dəfə qalib tərəf oldular. İlk dəfə 1606-cı ildə başqırd torpaqlarına girən kalmıklar onların bütün ərazilərini talan etdilər. 1621-ci ildə kalmıklar ilə başqırdlar arasındakı ilk meydan müharibəsində də başqırdlar məğlub oldular. Başqırdların kalmıklara məğlub olmasına baxmayaraq, aralarında savaş XVIII əsrə qədər davam etdi. Başqırdlar ilə kalmıklar düşmən idi, fəqət zaman – zaman kalmıklar onlara kömək edirdi. Kalmıklar 1601 – 1606-ci il başqırd üsyanına kiçik bir qüvvə ilə kömək etdilər. 1636-cı il üsyanında 4 min nəfərlik noqaylardan yaranan köməkçi qüvvəyə kalmıklar da daxil oldular. 1683-cü il üsyanında 40 min nəfərlik kalmık qoşunu başqırdlar ilə bərabər hərəkət etdilər. Daha sonra rus – isveç müharibəsi dövründə Kama çayı ətrafı əraziləri bərabər talan etdilər [3, 67 – 68]. 1661 – 1663-cü illər üsyanında başqırdlar Kalmık xanı Ayukidən kömək istədi. Ayukinin kömək etmədiyi başqırdlara Küçüm xanın oğulları və qazaxlar kömək etdi. Rusiyanın çətin vəziyyətə salan başqırdlardakı üsyan atəşi 1663-cü ildə söndü [9, 106]. 1661 – 1663-cü illər Başqırd üsyanında kalmıkların əvvəl onlara kömək etmədiyini, rusların çətin vəziyyətdə qaldığını görüncə isə köməyə başladıqları nəticəsinə gələ bilərik.

1665-ci ildə kalmık şahzadələri ilə görüşən rus knyazı Aleksandr Bekoviç Çerkasski onları bir – bir Rusiyaya təbəə etməyə müvəffəq oldu. Knyaz Çerkasskinin kalmık şahzadələrə qəbul etdirdiyi digər əhəmiyyətli mövzular isə onların Osmanlı, Səfəvi, Krım və Azov bəyləri ilə əlaqələrinin olmamasına, Rusiyaya qarşı ittifaqlara qoşulmamasına söz vermələri idi. Hər fürsətdə Rusiya şəhərlərini talan edən kalmıklar Knyaz Çerkasskiyə söz vermələrinə baxmayaraq, qeyd edilən məsələləri sədaqətlə yerinə yetirməyə səy göstərmədilər. Ayrıca ana vətənlərindəki əqrəbaları ilə əlaqələrini davam etdirərək, Cungaryadan yeni kalmık qruplarını qəbul etdilər. Kalmıklar üçün rus şəhər və kəndləri asan talan ediləcək yerlər olaraq düşünülürdü. Buna baxmayaraq, Rusiya kalmıkların soydaşları cungarlar ilə əlaqələrinə mane olmurdu [5, 161 – 164]. İdil ətrafı ərazilərə gəldikləri XVII əsrin birinci yarısından Cungaryadan kalmık qrupları davamlı köç edərək, onlarla birləşirdilər. 1758-ci ildə Çin qırğınından qaçan Tserenin bir qrup kalmık ilə Cungaryadan İdil kalmıklarına dönüşü qərb istiqamətindəki son kalmık köçü idi [14, 212].

1673-cü ildə Osmanlı imperiyası Rusiyaya müharibə elan etdiyində, ruslara bağlı olan Krım tatarları və qumuqlar üsyan etdilər. Rusiya üsyançı Krım tatarları və qumuqlar üzərinə kalmıkları göndərdi [5, 164].

Kalmıklar rus hakimiyyətini qəbul etsələr də, hər fürsətdə talançılıq fəaliyyətlərini davam etdirirdilər. 1676-cı ildə Başqırd üsyanını fürsət bilən kalmıklar başda Qazan və Ufa şəhərləri olmaq üzrə İdil ətrafı əraziləri talan

etdilər. 1683-cü ilə qədər davam edən kalmık talanları kalmık xanı Ayukinin Həştərxana dəvət edilməsi və yenidən sədaqət andı içilməsi ilə nəticələndi [5, 167 – 170; 10, 95].

Zaman – zaman Krım xanlığı ərazilərinə hücum edən kalmıklar müharibələrdə məğlub oldular. Ancaq Krım xanlığının noqaylar üzərindəki kalmık təzyiqi artmaqda idi. Krım xanı noqayların bir qisminin Osmanlı ərazisi olan Anadoluya köçməsinə, bir qisminin də Çərkəz ərazilərinə yerləşməsinə kömək etdi [3, 76].

Kalmıklar 1673-cü ildə noqayları İdil çayının şərq tərəfindən çıxarmağa müvəffəq oldular. Lakin noqaylardan azad olunan ərazilərdə özləri yerləşmədi. Boş ərazilərə ruslar və Don kazakları köç etdi. Beləcə bölgənin əhalisi rusların xeyrinə deyişdi. Bu vəziyyət kalmık işğallarının başqa bir mənfi nəticəsi idi [13, 173].

Yaxşı siyasətçi olduğu başa düşülən Ayuki xan bir tərəfdən rus hakimiyyətini qəbul etsə də, digər tərəfdən Osmanlı dövləti ilə əlaqə yaratmağa çalışırdı. 1690-cı ildə İstanbula Sizyem xan və bir neçə il sonra Məhəmməd Salih adlı elçilərini göndərən Ayuki Osmanlı padşahının hakimiyyətini qəbul etmək istəyini bəyan etdi. Osmanlı padşahı öz hakimiyyətindəki Krım xanlığına hücum olunmazsa, o zaman Ayukinin istəyini qəbul ediləcəyini bəyan etdi. Ayuki 1710-cu ildə osmanlıların müsbət cavabına təşəkkür üçün bir elçi daha göndərdi. Ayrıca Ayuki başqırdlarla müttəfiq olduğunu və Rusiyaya qarşı onlarla bərabər müharibə edəcəyini bəyan etdi [12, 13]. Lakin Ayukinin fəaliyyəti osmanlılara bəyan etdiyindən fərqli idi. O, başqırdların düşməni və rusların müttəfiqi idi.

Rusiya İsveç müharibəsi səbəbi ilə 1707-ci ildə yenidən üsyan edən başqırdlara qarşı qoşun göndərə bilmədi. Rusiya 1708-ci ildə kalmıkları başqırdlara hücum edib, üsyanı yatırmalarını əmr etdi. Başqırdlar üzərinə yürüyən kalmıklar onları əzib, keçdilər [9, 108]. Lakin başqırdların üsyanı davam etdi. 1710-cu il osmanlı–rus müharibəsi zamanı kalmıklara cənub sərhədlərində davam edən başqırd üsyanına qarşı 10 min nəfərlik hərbi qüvvə göndərmək əmri verildi [5, 175]. 1715-ci ildə Kuban tatarları hakimi Soltan Baktı Kereyə məğlub olan Ayuki Həştərxana sığındı. Həştərxanda olan Knyaz Çerkasskinin tatarlara hücum etməsini istəyən Ayukinin tələbi qəbul edilmədi. Çerkasski çarın təsdiqi olmadan belə bir yürüş edə bilməyəcəyini bildirdi. Ona əsəbiləşən Ayuki gizlicə Xivə xanlığına elçi göndərdi. Onun elçiləri Çerkasskinin Xivəyə doğru hərəkət etdiyini əks tərəfə çatdırdılar. Beləcə 1717-ci ildə Çerkasskinin tabeliyindəki kəşfiyyat heyəti Xivədə öldürüldü [5, 184]. Bu hadisə ilə Rusiya və Xivə xanlığı arasında düşmənçilik başladı. Ayuki isə xivəlilər vasitəsi ilə Çerkassidən intiqamını almış oldu.

Yuxarıda Ayukinin osmanlılar ilə əlaqədə olduğunu qeyd etmişdik. Ayukinin Osmanlı dövləti ilə əlaqədə olmasının öz xalqının mənfəətləri üçün

zərərli olduğunu başa düşən qazax xanı Qayıb Məhəmməd xan (1716 – 1718-ci illərdə qazaxların Ulu xanı olub) 1713-cü ildə İstanbula ilk elçisini göndərdi. Qazax elçisi Ayukinin yalan söylədiyini, onun Rusiya ilə müttəfiq olduğunu bəyan etdi. Osmanlı dövləti tabeliyində olan Krım xanının da özləri kimi kalmıklar üzərinə hücum etməsini tələb etdi. 1715-ci ildə Qayıb Məhəmməd xan ikinci elçisini İstanbula göndərdi. Qayıb Məhəmməd xan Osmanlı padşahının hakimiyyətini qəbul etməklə rus zülmü altında əzilən başqırdların vəziyyətini bəyan edərək, onlardan kömək istədi [12, 13–14].

1723-cü ildə Cungar xanlığının hücumu nəticəsində dağılan qazaxlara qərbdən də kalmık hücumu başladı [9, 168]. Kalmıkların qazaxlara hücumu yalnız onlara deyil, bütün Türküstana təsir etdi. Kalmıklardan qaçan qazaxlar qaraqalpaqlar və qırğızlar Buxara, Səmərqənd və Aralıq dənizi ətrafı ərazilər başda olmaqla, Mərkəzi Asiyaya sığındılar. Bu isə Mərkəzi Asiyada iqtisadi böhrana səbəb oldu [3, 78].

Rusiyanın İran yürüşü vaxtı Saratov şəhərində çar Pyotr ilə görüşən Ayuki, ona 5 min atlı əsgər verəcəyini bildirdi [5, 186]. 1724-cü ildə vəfat edən Ayukidən sonra kalmıkların xalqı itaətə ala bilən xanı olmadı.

1730-cu illərdə kalmıkların zəifləməsi ilə üstünlük qazaxlara keçdi. 1736 – 1737-ci illərdə qazaxlar kalmıklara hücum etdilər. Rusiyanın qadağalarına baxmayaraq, 1740-ci ildə onlar yenidən hücum etdilər. Həm kalmıklar həm də qazaxlar Rusiya hakimiyyətində olan xalqlar idilər. Amma ruslar qazaxlara güvənmirdi. Bu səbəblə ruslar qazaxlara qarşı zəif düşmüş kalmıkları gücləndirmək istədi [10, 193 – 209].

Rusların hakimiyyətindən məmnun qalmayan qazaxlar 1744-cü ildə üsyan etdilər. Ruslar qazax üsyanına qarşı bütün kalmıkları silahlandıraraq, onlara onlara qarşı yönəltdi. hücum etmələrini istədi. Talan fəaliyyətləri üçün fürsət axtaran kalmıklar bütün qüvvələrini qazaxlar üzərinə göndərdi [3, 81]. Beləcə Rusiya hərbi qüvvədən istifadə etmədən iki köçəri xalqı bir–birinə qırdırdı və aralarındakı düşmənçiliyi dərinləşdirdi.

Orenburq qalasının tikilməsi ilə qazaxlarla əlaqəsi kəsilən başqırdlar 1754-cü ildə üsyan etdilər. Ruslara qarşı üsyanlarının yatırılmasına baxmayaraq, onlar 1755-ci ildə yenidən üsyan etdilər. Bu dəfə hazırlıqlı olan ruslar 30 min nəfərlik qoşun ilə Başqırd torpaqlarına girdi. Rusların xəbərdar olması ucbatından, qazaxlar və Qazan tatarları üsyana daxil olmadı [9, 111 – 112]. Rusların gördüyü hazırlıq işlərinin ən əhəmiyyətlisi türk xalqları olan Qazan tatarları, qazaxlar və başqırdlar arasındakı əlaqəni kəsmələri idi.

Rusların başqırdlar, kalmıklar və qazaxlar üzərindəki hakimiyyətinin əsas səbəbi adı çəkilən xalqları bir – birinə düşmən etməyi bacarmaları idi. Bu siyasət I Pyotr dövrünün əhəmiyyətli dövlət xadimi olan İ. Krillov tərəfindən hazırlanmış və çariça Anna İvanovnaya təqdim edilmişdi. Çariça və rus hökumətinin təsdiq etdiyi Krillovun köçəri xalqlar siyasəti ilk dəfə

müvəffəqiyyətlə 1755 – 1756-cı illər başqırdların üsyanında tətbiq edildi [14, 125]. 1755 – 1756-ci illərdəki başqırd üsyanından sonra onlar qazax torpaqlarına sığınmışdılar. Rusların fitvası ilə baş tutan qazax–başqırd müharibələrində iki tərəf də çoxlu itki verdi. Daha sonra 1771-ci ildə eyni vəziyyət kalmıklar üçün də təkrarlandı [15, 463].

1760-cı illərdə kalmıklar üzərindəki rus təzyiqi artmağa başladı. Ruslar Avropa dövlətləri, Osmanlı və İrana edəcəyi hücumlarda kalmıklardan əsgər tələb edirdi. Bundan başqa qazaxlara qarşı qurulan Sibirdəki sərhəd qalalarına mühafizəçi kimi əsgər tələb edilirdi. Rusiyanın apardığı müharibələrə daxil olmağa məcbur olan kalmıkların əhalisi azalmağa başladı. Nəticədə kalmıklar arasında Rusiyaya qarşı narahatlıq artdı. Ruslar kalmıkları xristianlaşdırmağz da cəhd edirdilər. Şərqdəki kalmık xanlığı olan Cungar xanlığı 1758-ci ildə üsyankar şahzadə Amarsananın fəaliyyəti nəticəsində Çin işğalına məruz qaldı. Çin 1 milyon cungar əhalisini qılıncdan keçirdi. Çin qətlindən qurtaran Amarsana Sibirə qaçdı və burada öldü. Üsyankar şahzadə Amarsanın sadiq nökərlərindən olan Tseren Çin qırğınından bir qrup kalmıkı xilas edib, soydaşları ilə İdil kalmıklarına sığınmışdı. Tseren kalmıklar arasında ana vətənə köçüb, soydaşları ilə müstəqil dövlət yaratmağa çalışırdı. İdil kalmık xanı Ubaşiyi razı edə bilməyən Tseren kalmık dini lideri olan Lamayı razı salmağa müvəffəq oldu [16, 357]. Bütün bunların yanında ruslar kalmık idarəsinə də daxil olmağa başladılar. Xalq məhkəməsi adı ilə kalmık idarəsi üçün qurum yaradan ruslara qarşı, Ubaşi xan və kalmık zadəganları ana vətənə köç fikrinin həyata keçirmə vaxtının gəldiyini başa düşdülər [14, 176]. Ayrıca 1767 – 1774-cü il osmanlı – rus müharibəsi üçün rusların kalmıklardan daha çox əsgər istəməsi, kalmıkların köç qərarını qəbul etmələrini sürətləndirdi [14, 212].

Kalmıkların İdil ətrafı ərazilərə köç etmələrinin səbəbləri hakimiyyət mübarizələrindən uzaq, rahat yaşamaq idi. Fəqət güclü Rusiya ilə üzləşdilər. Kalmıklar Sibir və İdil bölgələrinə ilk gəldikləri dövrlərdə azad hərəkət etsələr də, zamanla rus hakimiyyətinə keçdilər. Beləcə kalmıkların rahat yaşama istəyi boşa çıxdı. Eyni şəkildə kalmıkların ana vətənə köçlərinin əsas məqsədi Cungaryadakı soydaşları ilə ittifaqa girib, müstəqil dövlət yaratmaq idi [14, 211].

1770-ci ildə ana vətən olan Cungaryaya köç qərarı verən Ubaşi xan qərarını gizlicə əhaliyə yaydı. Yayıq çayının qərb sahilinə köç edərək, qazaxların hücumuna qarşı tədbir gördüyünü ruslara bəyan etdi. Qışda Yayıq çayı donduğu vaxt hərəkətə keçməyə hazırlaşan Ubaşinin fikirləşdiyi olmadı. Çünki, o qış çay donmadı. Yayıq sahilində gözləmənin fəlakət olacağını bilən və rusların əsl məqsədi başa düşməsindən qorxan Ubaşi xan 1771-ci ilin qışında köç hərəkatına başladı. Ruslar kalmıkların Yayıq çayını keçməsi ilə onların əsl məqsədinin köç olduğunu anladı. Onsuz da ruslar kalmıklar arasındakı narahatlığı diqqətlə izləyirdilər.

Rusiya həmən kalmıkların yerlərinə dönmələri üçün tədbirlər görməyə başladı. İlk olaraq, qazax xanlarına məktublar göndərdi. Kalmıkların talan üçün qazax torpaqlarına girdiyini və onlara qarşı hücumlarını bəyan etdilər. Yayıq çayının şərq sahilindəki ilk kalmık – qazax müharibəsində qalib olan kalmıklar şərqə tərəf köç etdikcə Nurəli xan və Ablay xanın daha böyük və daha nizamlı qüvvələri ilə müharibə etmək məcburiyyətində qaldılar. Hətta, Balxaş gölünün şimalında ikən qılıncdan keçirilmə təhlükəsi yaşayan kalmıklar iki qrupa ayrılaraq, Cungaryaya çatmaq istədilər. Ancaq onlar qazax təqibindən azad ola bilmədilər. Kalmıkların bir qolu cənuba getdi. Burada onları Erali soltan qarşıladı. Kalmıklar çox itki versilər. Eyni şəkildə qırğızlardan burutlar da Çin sərhədinə qədər kalmıkları təqib edərək, onların mallarını talan etdilər. Şimala gədən ikinci kalmık qrupu, qazax torpaqlarından çıxıb, Cungaryaya daxil olana qədər qazaxların təqibinə məruz qaldılar [16, 357 – 360; 4, 480].

Kalmıkların ana vətənə köçü 8 ayda başa çatdı [13, 176]. Nəticədə köç yolu boyunca qazaxlar ilə müharibə edən kalmıklar 170 – 180 min nəfər ilə başladıqları köç hərəkatlarını 70 – 80 min nəfərlə başa çatdırdılar. Köç hərəkatını tamamlaya bilən kalmıkların çoxu xəstə və yararsız adamlar olduqları üçün Ubaşi xan Çin hakimiyyətini qəbul etmək məcburiyyətində qaldı. Kalmıkların Cungaryadakı soydaşları isə 1758-ci ildə Çin qırğınına məruz qaldıqları və Cungarya ilə Şərqi Türküstan ərazilərinə dağılmış olduqları üçün, onlara kömək edə bilmədi. Kalmıklar soydaşları Cungarya kalmıkları kimi Çin hakimiyyətində və Çinin təyin etdiyi yerlərdə dağınıq yaşamağa başladılar.

Ubaşi xanın köçündən sonra İdil bölgəsində təxmini 50 min kalmık əhali qaldı [13, 176]. Kalmıklar, Pugaçev üsyanına daxil olduqları üçün Rusiya tərəfindən cəzalandırıldılar. Buna görə kalmıkların şəhərlərə 10 km-dən çox yaxlaşmaları qadağan olundu [17, 267]. Hərbi əhəmiyyətləri itən kalmıkların qazaxlara qarşı 500 nəfərə qədər qoşunuı qaldı [5, 251].

Qərbi Moqolustandakı əhali sıxlığından və hakimiyyət mübarizələrindən qaçıb Sibir yolu ilə İdil bölgəsinə yerləşən kalmıkların hərbi – siyasi fəaliyyətləri özlərindən çox ruslara fayda gətirdi. İdil kalmıkları ilə ilk müharibə edən türk xalqı başqırdlar idi. Kalmıklar ilə başqırdlar zaman – zaman bərabər hərəkət etsə də, aralarındakı müharibələr XVIII əsrə qədər davam etdi. Güclü rəqib olan ruslara qarşı zəif başqırdlar kalmıklarla müharibələrdən daha zəif çıxdılar. Bir başqa türk xalqı olan noqaylar kalmıklar qarşısında müvəffəq ola bilmədilər. Noqay torpaqlarını ələ keçirən kalmıklar onların Krım xanlığı və Osmanlı imperiyası ərazilərinə köç etmələrinə səbəb oldular. Ayrıca noqayların boşaltdığı əraziləri əhali cəhətindən doldura bilməyən kalmıklar noqay torpaqlarına rus və Don kazaklarının yerləşməsinin yolunu açdılar. Kalmıklar osmanlı hakimiyyətindəki Krım xanlığı ilə də mübarizə etməyə çalışdılar. Fəqət onlar başqırd və noqaylardan daha güclü olan Krım xanlığı qarşısında məğlub

oldular. Kalmıkların hərbi – siyasi əlaqədə olduğu və rusların Türküstanın qapısı dediyi qazaxlar kalmıklardan əhali cəhətdən daha çox idi. Lakin onları idarə edəcək Ulu xanlarının olmaması, müharibələrdə qazaxları kalmıklar qarşısında zəif vəziyyətdə qoyurdu. Kiçik juz xanı Ebulxəyr xan ilə başlayan qazaxların rus işğalına məruz qalma prosesinin ən əhəmiyyətli səbəbi kalmıkların hərbi fəaliyyətləri idi.

Kalmık işğalları Mərkəzi Asiya və Qazaxıstanda iqtisadi böhran yaratdı. Kalmık işğallarının nəticəsi isə mərkəzi dövlət yarada bilməyən İdil bölgəsindəki türk xalqlarının və Türküstan xalqlarının rus hakimiyyətini asanlıqla qəbul etmələri idi.

## ƏDƏBİYYAT

1. Acar S. Sibir hanlığı. Doğu Avrupa Türk tarihi, Editörler: Osman Karatay – Serkan Acar, İstanbul: Kitabevi, 2018, s. 781 – 797.
2. Alpargu M. Nogaylar. Doğu Avrupa Türk tarihi, Editörler: Osman Karatay – Serkan Acar, İstanbul: Kitabevi, 2018, s. 799 – 820.
3. Berber O. Kalmuk istilası ve Türk dünyasına etkileri. Tarix elmləri üzrə doktorantura dissertasiyası, Ankara: 2014, 197 s.
4. Grousset R. Bozkır imparatorluğu Atilla/Cengiz Han/Timur. Tər.: M. R. Uzmen, İstanbul: Ötüken neşriyat, 517 s.
5. Иакинфомь М. Исторические обозрение ойратов или калмыковъ с XV столетия до настоящаго времени. Санктпетербург: Министерство внутренних дел, 1854, 255 с.
6. История Казахкой ССР с древнейших времен до наших дней. 3-е изд. Алматы: 2011, 670 с.
7. Kalan E. Cungar Hanlığı'nın siyasi tarihi. Ankara: TTK, 2008, 117 s.
8. Klyashtorny S. G., Sultanov T. İ. Kazakistan türkün üç bin yılı, Tər.: D. Ahsen Batur, İstanbul: Selenge yayınları, 2004, 358 s.
9. Kurat A. N. Rus hâkimiyeti altında İdil – Ural ülkesi. Ankara Üniversitesi Dil Tarih ve Coğrafya dergisi, C. XXIII, S. 3 – 4, Temmuz – Aralık 1965, s. 91 – 126.
10. Левшин А. И. Описание киргиз – казачьих, или киргиз – кайсацких, орд и степей. Алматы: Санат, 1996, 656 с.
11. Saray M. Yeni Türk Cumhuriyetleri tarihi. Ankara: TTK, 2014, 522 s.
12. Saray M. Rus işgalı devrinde Osmanlı Devleti ile Türkistan hanlıkları arasındaki siyasi münasebetler (1775 – 1875). Ankara: TTK, 2017, 160 s.
13. Togan Z. V. Bugünkü Türkili (Türkistan) ve yakın tarihi. İstanbul: Enderun yayınları, 1981, 695 s.
14. Yorulmaz O. Başlangıcından Hanlığın feshine kadar Kazak türkleri ile çarlık Rusyası arasındaki siyasi ilişkiler. Ankara: TTK, 2013, 287 s.

15. Yorulmaz O. Kazaklar ve Kazak hanlığı. Avrasya'nın sekiz asrı Çengizoğulları, Yayına Hazırlayanlar: Hayrunnisa Alan, İlyas Kemaloğlu, İstanbul: Ötüken neşriyat, 2016, s. 440 – 481.
16. Yorulmaz O. Kalmukların İdil boyundan Cungaryaya dönüşleri. Prof. Dr. Erdoğan Merçile armağan, Ed.: Emine Uyumaz, Muharrem Kesik, Aydın Usta, Cihan Piyadeoğlu, İstanbul: Bilge kültür sanat yayınları, 2013, s. 356 – 361.
17. Yücel M. U. Kalmuklar. TDV İA, C. XXIV, Ankara: TDV, 2001, s. 267 – 268.

# RUS SALNAMƏLƏRİNƏ GÖRƏ ƏMİR TEYMURUN FƏALİYYƏTLƏRİ

***Kürşad Ahmet oğlu KÖSE***
*Bakı Dövlət Universiteti*
*kursadkose207@gmail.com*

**Açar Sözlər:** *Əmir Teymur, Toxtamış, Moskva knyazlığı, İldırım Bəyazid, Qızıl Orda*

*Türk tarixinin ən böyük hökmdarlarından biri olan Əmir Teymur haqqında rus salnamələrində müxtəlif məlumatlar mövcuddur. Bu salnamələrdə ən çox Teymurun 1391 və 1395-ci illərdə Qızıl Ordaya yürüşləri haqqında məlumatlar verilir. Ayrıca salnamələrdə Əmir Teymurun fərdi xüsusiyyətləri və onun qurduğu dövlətin tutduğu ərazilərdən də yazılır. Qısaca da olsa, İldırım Bəyazid və Teymur arasındakı mübarizədən də bəhs edilir. Məqalədə bu məsələlərə aydınlıq gətirilir.*

## ДЕЯТЕЛЬНОСТЬ ТАМЕРЛАНА В РУССКИХ ЛЕТОПИСЯХ

**К.А. КОСЭ**

**Ключевые слова:** *Тамерлан, Тохтамыш, Великое Княжество Московское, Баязид I, Золотая Орда*

*В российских летописях есть различная информация о Тамерлане, одном из величайших правителей турецкой истории. Эти летописи содержат много информации о экспедиция золотую орду Тамерлана в 1391 и 1395 годах. В нем также записаны личные характеристики Амира Тамерлана, которыми владеет его страна. Борьба между Баязидом I (Молнией) и Теймуром также кратко упоминается.*

## ACTİVİTİES OF TAMERLANE İN RUSSİAN CHRONİCLES

**KURSAD KOSE**

**Key words:** *Tamerlane, Tokhtamysh, Grand Duchy of Moscow, Bayezid I, Golden Horde*

*In the Russian chronicles there is various information about Tamerlane, one of the greatest rulers of Turkish history. These annals contain a lot of information about the expedition of the Golden Horde of Tamerlane in 1391 and 1395. In addition, the chronicles provide information about the*

*personal characteristics of Timur and his lands. The struggle between Bayazid I (Lightning) and Teymur is also briefly mentioned.*

Qeyd edək ki, rus salnamələrinin digər adı kilse salnamələridir. Bu qeydlər kilsələrdəki ruhanilər tərəfindən yazılıb. Rus salnamələri tarixçilər üçün əhəmiyyətli bir mənbədir. Ancaq bu salnamələrdə hadisələr çox vaxt şişirdilmiş şəkildə təqdim olunur. Bu mənbələrdə hadisələr daim xristianlıq və dinlə əlaqələndirilir. Bəzən mövcud olmayan hadisələr sanki baş vermiş kimi göstərilir. Tarixçilər bu salnamələrdən istifadə edərkən, onları digər mənbələrlə müqayisə edərək yazmalıdırlar. Biz də mənbə kimi salnamələrlə yanaşı müxtəlif əsərlərdən də istifadə etdik.

Əmir Teymurun adı rus salnamələrində ilk dəfə 1391-ci ildə qeyd edilir. "Tverskoy" salnaməsində 1391-ci ildə Qızıl Orda xanı Toxtamış ilə Əmir Teymurun döyüşdüyü və Teymurun Toxtamışı məğlub etdiyi yazılır [1, s. 446]. 18 İyun 1391-ci ildə Əmir Teymur ilə Toxtamış xan arasındakı Kunduzca müharibəsi nəticəsində Toxtamış xan məğlub olur [2, s.192-196]. Bu döyüşün sonunda Toxtamış xanın köhnə düşmənləri olan Əmir İdigü, Teymur Qutluq və Kühçə oğlan Əmir Teymurun yanına gələrək ona itaət edir. Əmir Teymur Toxtamış xanın yerinə Qutluq Teymuru Qızıl Orda xanlığına təyin edir[3, s.153]. Əmir Teymur bu qələbədən sonra 1391-ci ilin oktyabrında Şabran şəhərinə, buradan Otrara daha sonra da Sırdərya çayını keçib, Səmərqəndə çatır [2, 196].

1392-ci ildəki bir mətndə Əmir Teymurun öz ərazisindən Toxtamış xanın ərazisinə gəldiyini və aralarında güclü bir döyüş baş verdiyi yazılır [4, s.164].Salnamələrdə 1393 və 1394-cü illərdə Əmir Teymur haqqında heç bir məlumat verilmir. Onlar Teymur haqqında ətraflı məlumatları 1395-ci ildə verməyə başlayırlar. 15 Aprel 1395-ci ildə Əmir Teymur və Toxtamış xan bir daha üzləşir [2, 252]. Tərək çayının sahilində cərəyan edən müharibədə Əmir Teymur yenə qələbə qazanır [3, 193-194]. Bu qələbədən sonra Teymur Rusiya ərazisinə girir və bir çox yerləri qarət etir [2, 255-256]. Əmir Teymur Azaq dənizinə qədər gəldi və Qızıl Orda xanlığının paytaxtı Saray şəhərini, Sarayçuk, Həştərxan və ətrafını xarabalığa çevirir [5, s. 142].

Teymurun Rusiya ərazisinə girməsi ilə mənbələr ondan bəhs etməyə başlayırlar. "Livovskaya" salnaməsinin 1395-ci ildəki qeydində Teymurun əvvəldən qoyun oğurladığı, qoyun oğurlayarkən bud sümüyündən ölümcül bir xəsarət aldığı, bu yaranın bütün bədəninə yayıldığı, sanki ölümcül halda tərpənə bilmədiyi yazılır. Teymurun ayağının sındığı və özünə dəmirdən bir ayaq düzəltdirdiyi üçün ona Axsaq Teymur ləqəbinin verildiyi qeyd edilir. Bu salnamədə Teymurun əvvəlcə bir xan, bir xanın oğlu və ya zadəgan

qəbiləsindən olmadığı yazılır. Mənbədə Teymurun adi bir adam olduğu qeyd olunur [6, s. 212].

Başqa bir salnamə Çığatay, Xorasan, Gülüstan, Kitay, Göy Orda, Şiraz, İsfahan, Ürgənc, Şirvan, Şamaxı, Sivas, Ərzurum, Təbriz, Gürcüstan, Bağdad, Dəmir qapı ərazilərinin Teymurun hökmranlığı altında olduğunu yazır [7, s.125]. Bu dövrdə və sonrakı illərdə Çin heç vaxt Teymurun hökmranlığında olmadı. Salnamə burada səhv yazır. Ayrıca "Livovskaya" salnaməsi Əmir Teymurun çox müharibələr etdiyini, qələbələr qazandığını, şəhərləri məhv etdiyini və çox sayda insanı öldürdüyünü yazır. Bu salnamədə Teymurun çox ölkə və ərazidə döyüşdüyünü, bir çox şahzadə və krallığı özünə tabe etdiyi göstərilir [6, s.213]. Eyni salnamədə Teymurun rus ərazisinə getməsi, eyni ərazidə on beş gün qalması və ikinci Batı xan kimi ətrafdakı kəndləri məhv etməsi yazılır. Eyni ərazi deyilən yer Qızıl Orda dövlətinin paytaxtı Saray və ətrafındakı ərazilərdir. Əmir Teymurun rus torpaqlarını işğalı Böyük rus knyazı Vasiliy Dimitriyeviçi çox qorxudurdu. Vasiliy bütün Rusiyanın və Kiyevin metropoliti olan atasına elçi göndərib bütün əhalinin kilsələrdə tanrıya dua etmələri üçün əmrlər vermişdi [6, s.214]. Bu salnamənin həmin ildə yazılan qeydlərinin bir çoxu şişirtmə ilə doludur. Bu mənbədə müqəddəs Məryəmin simvolunun Vladimir şəhərindən Moskvaya gətirildiyi, Teymurun qorxudan dəhşətə gəldiyi və rus ərazisində döyüşməkdən tərəddüd etdiyi yazılır. Nəticədə, Teymurun sürətlə Qızıl Orda torpaqlarına geri qayıtdığı göstərilir [6, s.216].

"Vladimirskiy" salnaməsinin 1395-ci ilki qeydində Teymurun Rusiya ərazisinə girdiyi, böyük knyaz Dimitri Vasiliyeviçin Teymura qarşı hərəkət etdiyi və onu Ugra çayı sahilində məğlub etdiyi yazılır. Salnamənin davamında bakirə Məryəm simvolunun Moskva şəhərinə gətirildiyi, Teymurun da məğlub olub Ugra çayından qaçdığı qeyd olunur [8, s. 129 ]. Başqa bir salnamədə Teymurun Ryazan ərazisini işğal etməsi, Elec şəhərini ələ keçirərək buradakı knyazlığı tutması, əhalini qətl etməsi və onların bir hissəsini də əsir etməsi yazılır. Bunu eşidən Böyük knyaz Dimitriy Vasiliyeviç böyük bir ordu yığaraq Moskvadan Kolomna şəhərinə gedir. Teymur Ryazanda 15 gün qalır və ruslarla müharibə etməkdən qorxub, cənuba gedir [9, s.159].

Teymurun dövrü haqqında əsas mənbə olan digər əsərlərin heç birində Əmir Teymurun ruslar ilə birbaşa müharibəsindən bəhs edilmir. Şerafeddin Ali Yezdi "Zəfərnamə" adlı kitabında Teymurun Qızıl Orda xanı Toxtamışı məğlub etdikdən sonra onun ardınca getdiyini, Toxtamışın arvadını, uşaqlarını və xəzinəsini qoyub qaçdığını yazır. Toxtamış qaçandan sonra Əmir Teymur rus ərazisinə girir və Dnepr çayı sahilindəki Qarasu şəhərini talan edir. Zeki Velidi Togan Qarasu şəhərinin ehtimalla rusların Çernigov şəhəri olduğunu qeyd edir [10, s.1363]. İlyas Kemaloğlu, Qarasunun Elec şəhəri olduğunu və buranın o dövrdə Moskva knyazlığına tabe olmadığını yazır. Onun fikrincə, Teymur Elec

şəhərinin Qızıl Orda dövlətinə tabe olduğunu düşünərək, bu ərazini xarabazarlığa çevirir. Elec bu dövrdə Qızıl Orda dövləti ilə Moskva knyazlığı arasında bufer zona idi. Teymur Elec şəhərini ələ keçirdikdən sonra ətrafdakı rus ərazisinin çox kasıb olduğunu öyrənir və öz məmləkətinə qayıtmaq qərarına gəlir [11, s.36]. Biz də bu görüşlə razıyıq. Teymurun Qarasunu (Elec) ələ keçirdikdən sonra öz torpaqlarına qayıtmasının səbəbi Moskva knyazı ilə müharibədən qorxması və ya ona məğlub olması deyil, ətrafdakı ərazinin iqtisadi dəyərinin olmamasıdır.

Əmir Teymur daha sonra İtil çayı yaxınlığında Maskav (bəzi tarixçilər buranı Moskva ilə qarışdırır və Teymurun Moskvanı talan etdiyini yazır. Maskav İtil çayının qollarının üstündə qurulmuş bir qəsəbədir. Teymur heç vaxt Moskvaya getmədi) şəhərini hökmranlığı altına aldı [2, s.252-257]. İbn Arabşah da Teymurun rus ərazisinə gəlməsini və ruslarla vuruşmasını yazmır. O, Toxtamışı məğlub etdikdən sonra kifayət qədər qənimət götürüb Saray, Sarayçuk və Həştərxan şəhərlərini məhv edir [5, s.143]. Nizamüddin Şami də “Zəfərnamə” adlı kitabında yazır ki, Teymur Toxtamış ilə müharibəsindən sonra, Yezdinin dediyi kimi, rusların Qarasu şəhərini talan edir və sonra Saray, Urus, Urusçuku hakimiyyətinə alır. Əmir Teymur sonra rusların hakimiyyətindəki Muşku şəhərini talan edir [3, s.196]. Əmir Teymurun Dnepr çayı yaxınlığındakı Qarasu şəhərini dağıtmasını Yezdiden öyrənirik.

Qeyd etdiyimiz kimi, üç mənbədə də Əmir Teymurun ruslar ilə döyüşdüyü və Moskvaya gəldiyi yazılmır. Yezdi və Şaminin bəhs etdiyi Maskav və ya Muşku şəhərləri İtil çayının kənarındadır və bu ərazi Moskvaya çox uzaqdır. Ayrıca rusların o dövrdə dünyanın ən güclü hökmdarı olan Teymurla döyüşüb, onu məğlub etməsi mümkün deyildi. Bundan başqa, Zeki Velidi Togan yazır ki, Teymurun Moskvaya getməyərək, bu ərazidən geri qayıtmasının əsas səbəbi qışın gəlməsi idi. Togana görə Teymur qış səbəbi ilə Litva, Polşa və Frank ərazisinə getməyərək öz ərazisinə qayıtdı [10, s.1395].

“Nikonovskaya” salnaməsində 1396-cı ilin payız ayında Böyük Latviya knyazı Vitot və nəvəsi Gedimanovun böyük bir ordu toplayıb, Smolensk şəhərinə gəldiyi yazılır. Vitotun Teymurun Smolensk şəhərinə əvvəldən hücum etdiyi kimi, böyük və güclü bir ordu ilə Teymurun üzərinə yürüş etdiyi xəbəri yayıldı. Ancaq Vitot, Smolenskdən qayıdan Teymura hücum etməyib, Smolensk şəhərinə hücum etdi və uğur qazandı [9, s.162]. Buradan başa düşürük ki, Əmir Teymur daha əvvəl Smolensk şəhərinə gəlmişdi. Salnamədə Teymurun gəliş vaxtı qeyri-müəyyəndir. Bu vaxt 1395-ci il olmalıdır. Teymur 1395-ci ildə rus ərazisindən qayıtdıqdan sonra Vitot Smolenskə yürüş etmiş olmalıdır. Smolensk, Dnepr çayı kənarında, Moskvaya təxminən 300 km məsafədə olan bir şəhərdir. Bu mövzu ilə əlaqəli məlumatı “Moskovskiy” salnaməsindən öyrənə bilərik. Bu salnamədə 1395-ci ilin payızında Latviya Böyük knyazı Vitotun böyük bir ordu ilə Smolensk şəhərinə

yürüş etdiyi yazılır. Ancaq hər kəs onun Teymurla müharibə üçün yola çıxdığını düşünürdü [12, s.147].

“Nikonovskaya” salnaməsində Teymurun hakimiyyəti altında olan ərazilər haqqında da məlumat verilir. Hindistanın şimal və şərq əraziləri arasında Arar adı ilə məlum bəzi ölkələr yerləşir ki, onların da ətrafında iki su mənbəyi vardır. Bu ölkələri Əmir Teymurun böyük oğlu atasının adından idarə edir. Teymurun oğlu buralarda bir çox yaşayış yerini talan etmiş və çox qan tökmüşdü. O, məbədlərdəki insanları da qətl edərək, buradakı qoyunları da aparmışdı [9, 151].

Başqa bir salnamədə Əmir Teymurun 1398-ci ildə rusların ərazisinə gəldiyi yazılır. Bu mənbəyə görə Böyük knyaz Vasiliy Dimitriyeviç Teymura qarşı döyüşə gedən zaman onun atası və qardaşı Vladimir Andreyeviç mühasirə altındakı Moskvada qaldı. Sonra, Teymurun məmləkətinə qayıtması ilə əlaqədar Moskvada böyük bir sevinc var idi [13, s.143]. Burada yazılan tarix səhvdir. Çünki, Teymur 1398-ci ildə Hindistan ərazisində idi [2, s.277]. Salnamədə göstərilən bu tarix 1395-ci il olmalıdır.

Bu ildən sonrakı salnamələrdə daha çox Əmir Teymur və İldırım Bəyazid arasındakı münasibətdən bəhs edilır. İndi bu məlumatlardan bəhs edək. “Voskresenya” salnaməsinin 1398-ci ilə aid qeydində İldırım Bəyazidin haqqında məlumat verilır. İldırım Bəyazidin Sultan Muradın oğlu olmasından, bir çox ölkəni və yaşayış məskənlərini ələ keçirməsindən, Yunanıstanın Perea şəhərini dənizdən və qurudan mühasirə edərək, burada 7 il dayanıb, ətrafdakı digər yunan şəhərlərini ələ keçirməsini planladığından bəhs olunur [14, s.71].

“Nikonovskaya” salnaməsinin 1401-ci ildəki qeydində Sultan Bəyazidin yunan şəhərlərini mühasirə etdiyi əsnada, Teymurun böyük bir ordu ilə gəlməsi, bunu eşidən İldırım Bəyazidin dərhal geri çəkilib, Teymura qarşı tədbir görməsindən yazılır. Müharibənin sonunda Teymurun Bəyazidi məğlub etməsi və türkləri öldürərək, Osmanlı dövlətinin paytaxtını ələ keçirməsi qeyd olunur [9, s.185].

Bu salnamənin başqa yerində Əmir Teymur və Bəyazid (İldırım) arasındakı müharibənin gedişi haqqında da qısa məlumat vardır. 1402-ci ildə Teymurun Bizans imperatoru Manuelin istəyi ilə İldırım Bəyazidin üzərinə gələrək, onu məğlub etməsi yazılır. Qeyd olunur ki, Teymur İldırım Bəyazidə elçi göndərib, xərac istədi və ondan özünə tabe olmasını tələb etdi. İldırım Bəyazid bundan qəzəbləndi və müharibəyə hazırlaşmağa başladı. İldırım Bəyazid, şərq və qərbdəki bütün qoşunlarını topladı. Serbiya kralı Stephan da İldırım Bəyazidin yanında Teymura qarşı müharibəyə getdi. İldırım Bəyazidi məğlub edən Teymur onun hökmranlıq etdiyi şəhəri talan etdi. Müharibədə Teymur sürətli hərəkət etdi və İldırım Bəyazidi mühasirəyə aldı. Teymur, Bəyazidi tutdu və onu dəmir bir qəfəsə qoydu [9, s.151].

Nəticə olaraq, Əmir Teymurun Qızıl Orda hökmdarı Toxtamış üzərinə etdiyi iki yürüş bu dövlətin sonrakı illərdə zəifləməsinə və yıxılmasına səbəb oldu. Teymurun Qızıl Orda ərazisi ilə birlikdə Rusiyanın da ərazisinin bir hissəsini ələ keçirməsi rusları, xüsusilə, Moskva knyazı Dmitri Vasiliyeviçi qorxutdu. Rus ərazisinin iqtisadi dəyərinin olmaması və Teymurun buraya əhəmiyyət verməməsi kimi səbəblər nəticəsində o, bu ərazilərdən geri döndü. Ancaq rus salnamələri bütün bu olayları təhrif edib, olanları başqa cür təsvir edirlər. Bu salnamələrdə Teymurun Rusiya ərazisində irəli getməyərək, geri qayıtmasını onun qorxub, qaçması kimi şərh edirlər.

## ƏDƏBİYYAT


1. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссею, «XV летописый сборник, именуемый Тверскою летопись». Санкт Петербург, Том пятнадцатый, 1863, 540 с.
2. Yezdi Ş.A. Zafername. Çeviren: Ahsen Batur, İstanbul, Selenge Yayınları, 2019, 512 s.
3. Şami N. Zafername. Çeviren: Necati Lugal, Ankara, Türk Tarih Kurumu Basımevi, 1987, 403 s.
4. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссею, «XXXVI академия наук СССР институт истории, Вологодско-Пермская летопись «Москва-Ленинград, Том двадцать шестой, 1959, 412 с.
5. Arabşah İ. Acaibu'l Makdur (Bozkırdan Gelen Bela). Çeviren: Ahsen Batur, İstanbul, Selenge Yayınları, 2012, 480 s.
6. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссею, « I летописый сборник, львовская летопись ». Санкт Петербург, том первая, 1910, 418 с.
7. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссыею, « vı летописый сборник, софыйскыя летописи». Санкт Ппетербург, Том шестой, 1853, 358 с.
8. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссыею, «XXX академия наук СССР, институт истории, Владимирский летописец Новгородская (архивская) летопмс «Москва, том тридцатый, 1965, 239 с.
9. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссею, «XI летописый сборник, именуемый патрыаршею или никоновскою летописью». Санкт Петербург, Том одиннадцатый, 1897, 254 с.

10. Togan Z. V. Timur's Campaign of 1395 in the Ukraine and North Caucasus, The Annals of the Ukrainian Academy of Arts and Sciences in the U.S, Vol VI 1958 No 3,4 (21-22) 1358-1371.
11. Kemaloğlu İ. Timur'un ''Hayali'' Moskova Seferi, Karadeniz Araştırmaları Dergisi, Cilt 6 Sayı 2, Güz 2009, 29-39.
12. Полное собраные русскихь летописей, «XXXIV академия наук СССР, институт истории, Постиниковский, Пискаревский, Московский и Бельский летопицы, Москва, том тридцать четвертый, 1978, 303 с.
13. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю императорскою археографическою коммиссею, «XVIII Симеоновская летопись». Санкт Петербург, Том восемнадцатый, 1913, 316 с.
14. Полное собраные русскихь летописей, изданное по высочайшему повеленю археографическою коммиссею, «VIII продолженые летописи по воскресенскому списку». Санкт Петербург, Том восьмой, 1859, 301 с.

# MÜASİR TÜRKİYƏNİN SEÇKİ SİSTEMİ

***Namiq Məmmədov***
*AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*mammadov.namig@yahoo.com*
*Mobile / What's App: +99450 615 45 98*

**Açar sözlər:** *Türkiyə, seçki sistemi, seçkilər, D'Hondt sistemi, seçki baryeri*

*Məqalədə Türkiyənin seçki sistemi təhlil edilir. Qeyd olunur ki, Türkiyənin seçki sistemi ümumi, prezident və yerli seçkilərdən ibarətdir. Məqalədə əsasən Türkiyənin parlament (ümumi) seçkiləri təhlil olunur. Müxtəlif mənbələrin təhlili və müqayisəsi nəticəsində 1961-ci ildən bəri Türkiyədə tətbiq olunan proporsional seçki sistemi və D'Hondt metodunun ən ədalətli metodlardan biri olmasına baxmayaraq, bu sistemin tətbiqində bir sıra problemlərin olduğu qeyd edilir. Bunlardan ən əsası isə, 2002-ci il seçkilərində daha çox özünü göstərən seçki baryeridir. Məsələn, 3 Noyabr 2002-ci il tarixli parlament seçkilərində 41.4 mln. seçicidən 79,1 faizi seçkilərdə iştirak etmişdir ki, bunlardan da 31,5 milyon səs etibarlı sayılmışdır. Bu məqamda, təxminən 10 milyon səsin etibarsız sayılması və ya seçicilərin qatılmaması da maraq doğurur. Bu da seçicilərin maarifləndirilməməsinin göstəricisi sayıla bilər.*

*Seçkilərin nəticələrinə görə AK Parti (Adalet ve Kalkınma Partisi - Ədalət və İnkişaf Partiyası) 10.8 milyon səslə (34.3 %) 363 yer qazandı. Parlamentdə təmsil olunan ikinci partiya 6,1 milyon səslə (19,4%) parlamentdə 178 yer qazanan CHP (Cumhuriyet Halk Partisi-Respublika Xalq Partiyası) idi. Digər partiyalar 10 faizlik baryeri keçə bilmədikləri üçün parlamentdə təmsil olunmadılar.*

*Beləliklə, 2002 seçkilərində parlamentdə təmsil olunmayan partiyaların ümumi nisbəti 45,3 faiz idi. Başqa sözlə, səsləri etibarlı sayılan seçicilərdən ümumilikdə 14.292.951 nəfər parlamentə deputat seçə bilmədi.*

**Намиг Мамедов**

## ИЗБИРАТЕЛЬНАЯ СИСТЕМА СОВРЕМЕННОЙ ТУРЦИИ

**Ключевые слова:** *Турция, избирательная система, выборы, система Д'Ондта, избирательный порог.*

*В статье анализируется избирательная система Турции. Было отмечено, что избирательная система Турции различается для всеобщих, президентских и местных выборов. В статье в основном анализируются парламентские (всеобщие) выборы в Турции. В результате анализа и сравнения различных источников было решено, что хотя пропорциональная избирательная система и метод Д'Ондта, применяемые в Турции с 1961 года, являются одним из самых справедливых методов, при применении этой системы существует ряд проблем. Самым важным из них является избирательный барьер, который усилился на выборах 2002 г. Например, на парламентских выборах 3 ноября 2002 г. явка составила 41,4 млн. человек. проголосовавших составило 79,1 процента, из которых 31,5 миллиона голосов признаны действительными. Здесь также интересен тот факт, что около 10 миллионов голосов были признаны недействительными или не участвовали в выборах. Это также можно считать признаком проблем с обучением избирателей.*

*По результатам выборов ПСД (Партия справедливости и демократии - AK Parti) получила 363 места с 10,8 млн голосов (34,3 процента). Второй партией, представленной в парламенте, была Народно-республиканская партия (НРП), которая получила 6,1 миллиона голосов (19,4 процента) и 178 мест в парламенте. Другие партии не были представлены в парламенте, потому что им не удалось преодолеть 10-процентный порог.*

*Так, на выборах 2002 года общее количество партий, не представленных в парламенте, составило 45,3 процента. Другими словами, 14 292 951 избиратель, чьи голоса были признаны действительными, не прошли избрание в парламент.*

**Namig Mammadov**

## ELECTORAL SYSTEM OF MODERN TURKEY

**Keywords:** *Turkey, electoral system, elections, D'Hondt system, election threshold*

*This article analyzes the electoral system of Turkey. It was noted that the electoral system of Turkey varies for general, presidential and local elections. The article mainly analyzes the Turkish parliamentary (general) elections. As a result of analysis and comparison of various sources, it was decided that although the proportional electoral system and the D'Hondt method applied in Turkey since 1961 are one of the fairest methods, there are a number of*

*problems in the application of this system. The most important of these is the election barrier, which became more pronounced in the 2002 elections.For example, in the parliamentary elections held on November 3, 2002, the turnout of a total of 41.4 mln. voters' was 79.1 percent, of which 31.5 million votes were considered valid. At this point, the fact that about 10 million votes were considered invalid or did not participate in the elections is also of interest. This can also be considered an indication of problems with voter education.*

*According to the election results, the JDP (Justice and Democratic Party-AK Parti) won 363 seats with 10.8 million votes (34.3 percent). The second party represented in parliament was the RPP (RPP-CHP), which won 6.1 million votes (19.4 percent) and 178 seats in parliament. Other parties were not represented in parliament because they failed to cross the 10 percent threshold.*

*Thus, in the 2002 elections, the total number of parties not represented in parliament was 45.3 percent. In other words, a total of 14,292,951 of the voters whose votes were considered valid failed to be elected to parliament.*

**Giriş**

Türkiyənin seçki sistemi ölkənin siyasi sisteminə, partiyaların iqtidara gəlməsinə, hökumətlərin qurulmasına və hakimiyyətdən getməsinə daim ciddi təsir göstərmiş və göstərməkdə də davam edir. Türkiyədə çoxpartiyalı sistemə keçid ölkə tarixinin ən mühüm dönüş nöqtələrindən biri hesab olunur. Bu sistemin təşkili və həyata keçirilməsi mühüm demokratik addım olsa da, özü ilə bir sıra siyasi və sosial-iqtisadi problemləri də gətirmişdir. Ölkənin seçki sistemi və bunun nəticədə həyata keçirilən seçkilər də bunların arasında mühüm rol oynayır.

Türkiyədə1961-ci ildən bəri mövcud olan və D'Hondt adlanan seçki sisteminə görə, hər bir partiyanın topladığı səs sayı ardıcıl 1, 2, 3 və s. bölünür. Bu proses bölgədən seçiləcək ümumi millət vəkili sayı müəyyən edilənə qədər davam edir.

Bundan əlavə, ölkədə 10 faizlik seçki baryerinin tətbiqi (1995-ci ildən bəri qüvvədədir) az səs alan partiyaların parlamentdən kənarda qalmasına və nisbətən çox səs toplayan partiyalarından olan deputat sayının artmasına səbəb olur.

**1. Türkiyənin seçki sistemi.**

Türkiyənin seçki sistemi hər beş ildən bir baş tutan ümumi (parlament), prezident və yerli özünüidarəetmə (bələdiyyə) seçkilərdən ibarətdir. Hər seçki növü üçün istifadə edilən seçki sistemlərinin qısa xülasəsi belədir [2].

- Yerli seçkilər: Böyükşəhər və İlçə Bələdiyyə Başçıları, Bələdiyyə və İl Bələdiyyə Məclis üzvləri, kənd başçıları və onların kənd məclisləri mojaritar sistemlə seçilir, hər bələdiyyədə qazanan namizəd səs çoxluğu

ilə müəyyən edilir.

- Prezident seçkiləri: İlk seçkidən iki həftə sonra ilk iki namizədin ikinci turda mübarizə aparacağı iki turlu seçki, seçilmək üçün namizəd ən azı 50% + 1 səs toplamalıdır.
- Ümumi Seçkilər: Türkiyə Böyük Millət Məclisinə Seçkilər.

Türkiyədə Cümhuriyyətin qurulmasından 1946-cı ildə çoxpartiyalı sistemə keçilməsinə qədər ölkədə iki pilləli seçki sistemi tətbiq olunmuşdu. 5 iyun 1946-cı ildə qəbul edilmiş 4918 saylı qanunla bir pilləli seçki sistemi tətbiq olundu və azad seçkilərin demokratik şəraitdə keçirilməsinə icazə verən ilk Parlament seçki qanunu 16 fevral 1950-ci ildə qəbul edildi. Əvvəlki - 4918 saylı qanunda olduğu kimi, bu qanunda da seçkilərin əksəriyyət çoxluq sistemi vasitəsi ilə keçirilməsini şərtləndirilmişdi. Siyasi həyatdakı haqsız nəticələrin və cəmiyyətdəki reaksiyaların yaratdığı gərginlik səbəbindən 1961-ci ildən sonra əksəriyyət sistemindən imtina edildi və nisbi təmsil sistemi qəbul edildi. Həmin tarixdən bəri Türkiyədə müxtəlif nisbi təmsil sistemləri tətbiq olunmuşdur [9, 168-169].

Hasdemirə görə [3, 254] 1960-cı ildən əvvəl tətbiq olunan çoxluq sistemi parlamentdəki tək partiyanın üstünlüyünə səbəb olurdu. Sabit bir hökumət qurmaq üçün çoxluq sisteminin tətbiq edilməli olduğunu iddia edənlər də var idi. Akademik dairələrin də bir çoxu ikinci görüşü qəbul edirdilər. Nəticədə, nisbi təmsil sistemi 306 saylı qanunla qəbul edildi. Bu sistemdə kiçik partiyalara çox yer verilməməsi üçün d'Hondt sistemində seçki baryeri nəzərdə tutuldu və hazırlandı. Proporsional nümayəndəlik siyasi partiyaların güclərində, başqa sözlə seçkilərdə aldıqları səs nisbətində parlamentdə təmsil olunmasına imkan verən bir qrup sistemin ümumi adıdır. Proporsional təmsil sistemlərində "ədalət" prinsipi ön plandadır. Çoxluq sistemlərindən fərqli olaraq, proporsional təmsil sistemlərində hər seçki dairəsindən çox sayda millət vəkili seçilir. Proporsional təmsil sistemlərində namizədlərin siyahılardakı sırası çox vacibdir. Hər bir partiyanın namizəd siyahısından nə qədər deputat seçilməsi oradakı ümumi saya görə müəyyən edilir [10, 84].

Proporsional nümayəndəlik yerlərin bölüşdürülməsinin rəqib siyasi partiyalar arasında seçicilərin səslərinin paylanması ilə mütənasib olmasını tələb edir. Mojaritar və proporsional formullarından yaranan qeyri-mütənasibliyi aradan qaldırmağa və seçicilər arasında fikir bölgüsünü əks etdirən bir nümayəndəlik qurmağa çalışır. Proporsional seçki sistemində çoxüzvlü təmsilçilikdən istifadə olunduğundan, nə çox səs, nə də xalqın əksər hissəsinin səsini alan partiyalar hələ də qanunverici nümayəndəliyi qazanmaya bilərlər [7].

Proporsional nümayəndəlik sistemləri alt növlərin çoxluğu baxımından daha çox müxtəliflik nümayiş etdirir. Əvvəla, tək adlı seçki dairələrində mojaritar sisteminin bir qayda olaraq tətbiq olunmasına baxmayaraq, bu system nisbi

təmsil sistemi ilə, yəni birdən çox deputat verən seçki dairələrində birlikdə tətbiq olunur. Sistemin əsas ideyası seçkilərə qatılan partiyaların aldıqları səs nisbətində parlamentdə təmsil olunmalarıdır. Lakin qəbul edilmiş seçki formulunun növünə görə bu nisbət az və ya çox ola bilər [6, 523].

Vahid köçürülə bilən səs formulu ilə siyahı sistemləri arasındakı əsas fərq ondadır ki, seçicilər, ümumiyyətlə, ayrı-ayrı namizədlər arasında deyil, partiya tərəfindən tərtib olunmuş namizəd siyahıları arasından seçirlər. Seçicilərin ayrı-ayrı namizədlər arasında məhdud bir seçimi ola bilsə də, seçki hesablamaları partiya mənsubiyyətinə görə aparılır və yerlər namizədlərin ümumi sayı deyil, partiyası əsasında verilir. Bir partiyanın qazandığı yerlər namizədlərinə partiya siyahısında təmsil olunduğu sıra əsasında bölünür [7].

Proporsional təmsil sistemlərini ən yüksək ortalama (bölücü) və ən böyük balans (kvota) sistemləri olmaqla iki alt tipə bölmək olar. Hal-hazırda istifadə olunan ən yüksək orta sistemlər d'Hondt və dəyişdirilmiş Sainte-Lague sistemləridir. D'Hondt sistemindəki tərəflərin səsləri, 1, 2, 3, 4 və s. bölünən və tapılan saylar partiyadakı ayrı-seçkilikdən asılı olmayaraq böyükdən kiçiyə doğru ayrılır. Deputatlar bu rəqəmlərin böyüklüyü qaydasında müəyyən olunur [6, 523].

2839 saylı qanuna əsasən, seçki bölgələri belə müəyyən edilir: Birincisi, ümumi millət vəkilinin sayından hər birinə bir millət vəkili verilir. Təsbit nəticəsində on səkkiz millət vəkilinin olduğu vilayətlər seçki dairəsi sayılır. On doqquz ilə otuz beş arasında millət vəkili sayı olan əyalətlər iki seçki bölgəsinə ayrılır. Konstitusiyanın 75-ci maddəsində 6771 saylı qanunla edilən dəyişikliklə ümumi millət vəkilləri sayı 600-ə çatdırıldı. Nəticədə Ankara 24 iyun 2018-ci il seçkilərində millət vəkilləri sayını 36 nəfərə, Bursa üç nəfər artırmaqla 20-yə, İstanbul 98-ə çatdırmış, 28 millət vəkilinin olacağı təyin edilmiş İzmir iki seçki dairəsinə bölünmüşdü. Beləliklə, Türkiyədəki 27-ci dönəm ümumi seçkilərinin 600 millət vəkili 87 seçki dairəsindən seçildi [13, 136].

1982 Konstitusiyasının 79-cu maddəsində: "Seçkilər məhkəmə orqanlarının ümumi rəhbərliyi və nəzarəti altında aparılır. Ali Seçki Komissiyasının (ASK, Yüksek Seçim Kurulu-YSK) vəzifəsi, seçkilərin əvvəlindən sonuna qədər seçkilərə rəhbərlik və bununla əlaqədar bütün əməliyyatları həyata keçirmək, bütün qeyri-qanuni fəaliyyətləri araşdırmaq və yekunlaşdırmaq, seçki zamanı və sonrasında seçki məsələləri ilə əlaqədar şikayət və etirazlar və Türkiyə Böyük Millət Məclisi üzvlərinin seçki protokollarını qəbul etmək və s.-dən ibarətdir. ASK qərarlarına qarşı başqa bir orqana müraciət etmək qeyri mümkündür. ASK və digər seçki orqanlarının vəzifə və səlahiyyətləri qanunla tənzimlənir. ASK yeddi daimi və dörd əvəzedici üzvdən ibarətdir. Üzvlərdən altısı Ali Məhkəmənin Baş Assambleyası tərəfindən, beşi isə üzvlər arasında mütləq əksəriyyətinin gizli səsverməsi ilə seçilir. Bu üzvlər mütləq səs çoxluğu və gizli səsvermə ilə öz aralarında sədr və sədr müavinini seçirlər". SEC ilk dəfə 1961

Konstitusiyası ilə qurulmuş və 1982 Konstitusiyasında da qorunub saxlanılmışdır [8, 246].

**2. D'Hondt üsulu nədir?**

Təsvir edilən metod 1878-ci ildə metodologiyanın əsasını qoyan Belçika riyaziyyatçısı Victor D'Hondt'un adını daşıyır. D'Hondt metoduna əsasən, səslərin sayının bölünməsi ilə ortalama olaraq təyin edilən yerlərin sayı üstə bir əsasında müəyyən olunur. Beləliklə, birinci yer verildikdən sonra, həmin partiyanın qazandığı səslərin sayı ikiyə bölünür (ilkin bölünmə əlavə bir yerə bərabərdir) və eyni şəkildə ikinci yerə layiq görülən tərəf üçün və s. [7]. D'Hondt sistemi 1961-ci ildən bəri Türkiyədə tətbiq olunur və hal-hazırda da qüvvədə olan sistemdir (30.5.1961-ci il tarixli 306 saylı Seçki Qanununun 25-ci maddəsi, 10.6.1983-cü il tarixli 2839 saylı qanunun 32 / II və 34 / III maddələri) [5; 10, 91].

D'Hondt metodu yerlərin ayrılması üçün ən yüksək orta metoddur və bu səbəbdən partiya siyahısı mütənasib təmsil növüdür. Proporsional seçki sistemləri, partiyalara alınan səslərin sayına nisbətdə yer ayırmağı hədəfləyir. Məsələn, bir partiya səslərin üçdə birini qazanarsa, deputat yerlərinin üçdə birini qazanmalıdır. Ümumiyyətlə isə, dəqiq mütənasiblik mümkün olmur. Lakin D'Hondt metodu tərəflərin tam sayda yer qazanmalarının mümkün qədər mütənasib olmasını təmin edir. D'Hondt metodu səslərin mütənasib şəkildə təmsil olunması üçün kənarada qalan səslərin sayını minimuma endirir. Yalnız D'Hondt metodu (və ona bərabər metodlar) bu qeyri-mütənasibliyi minimuma endirir. Məsələn, 230.000 seçici 4 partiya arasında 8 deputatın seçilməsinə səs verir. 8 yeri müəyyən etmək üçün hər bir partiyanın ümumi səsləri 1-ə, daha sonra 2, 3 və 4-ə bölünür (və daha sonra, lazım gələrsə, bu şəkildə davam etdirilir). 8 deputat yeri üçün partiyalar arasındakı səs nisbəti 100.000 ilə 25.000 arasında dəyişir.

**Cədvəl 1. D'Hondt üsuluna əsasən, 8 deputat yerinin 4 partiya arasında bölgüsü (nümunə)**

| **Raund (hər raund üçün 1 yer)** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **Qazanılmış yerlər** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **A partiyasının hər turdan sonra qazandığı yerlər** | **100.000 1** | 50.000 1 | **50.000 2** | 33.333 2 | **33.333 3** | 25.000 3 | 25.000 3 | **25.000 4** | **4** |
| **B partiyasının hər turdan sonra qazandığı yerlər** | 80.000 0 | **80.000 1** | 40.000 1 | **40.000 2** | 26.667 2 | 26.667 2 | **26.667 3** | 20.000 3 | **3** |
| **C partiyasının hər turdan sonra qazandığı yerlər** | 30.000 0 | 30.000 0 | 30.000 0 | 30.000 0 | 30.000 0 | **30.000 1** | 15.000 1 | 15.000 1 | **1** |
| **D partiyasının hər turdan sonra qazandığı yerlər** | 20.000 0 | 20.000 0 | 20.000 0 | 20.000 0 | 20.000 0 | 20.000 0 | 20.000 0 | 20.000 0 | **0** |

Mənbə: [10, 90].

D'Hondt Sistemi üç qrupa bölünür: ölkə, regional və baryersiz [4].

1. Baryersiz: Burada başqa heç bir meyar olmadan, bölgü nəticəsində alınan səs sayına görə müəyyənləşdirmə aparılır:

2. Regional baryer: Bu baryer hər partiyanın seçkilərdə millət vəkili verməsi üçün səslərin sayı, nisbət və ya onda bir vahid olaraq təyin edilir və bundan aşağı səs toplamış partiyalar hesablanmaya daxil edilmir.

3. Ölkə baryeri: Ölkənin səs nisbətinin müəyyən bir səviyyəsindən aşağı olan və yeni əsasnamə ilə (2018) müəyyən edilən qaydalara çərçivəsində partiyalar millət vəkili verə bilmir.

**3. Seçki baryeri nədir?**

Seçki hüdudu və ya seçki baryeri, bir namizədin və ya siyasi partiyanın qanunverici orqanda nümayəndəlik hüququ qazanmadan əvvəl əldə etməsi üçün tələb olunan əsas səsin minimum payıdır. Bu limit müxtəlif yollarla müəyyən edilə bilər. Məsələn, partiya siyahılı proporsional seçki sistemlərində seçki baryeri bir partiyanın qanunverici orqanda yer əldə etməsi üçün ya milli, ya da müəyyən bir seçki dairəsində müəyyən edilmiş minimum səs nisbətini (məsələn, 5%) alması tələb olunur. Mojaritar seçki sistemlərində seçki hədləri yoxdur. Çünki namizədlərin ümumi səslərin müəyyən bir faizini deyil, yalnız öz dairələrində ən çox səs toplamaları lazımdır. Bununla yanaşı, uğurlu namizədlərin ümumi səsin minimum faizini almasını tələb edən digər seçki sistemləri də var. Belə nümunələrdən biri partiyaların qanunverici orqanda qazandığı yerlərin səslərin ümumi payı ilə mütənasib olduğu partiya siyahısı proporsional seçki sistemləridir [1].

Bu sistemi tətbiq edən Türkiyə kimi ölkələr, Böyük Millət Məclisində yer qazanmaq üçün partiyalardan ümumi səs payının ən az 10% -ni qazanmasını tələb edir.

Hasdemir seçki barajının tətbiqi ilə əlaqədar olaraq yazır [3, 256]: Səbəb kimi, siyasi partiyaların "qanunverici orqanlardakı təmsilçiliyinin" "qazandığı səslərilə mütənasib" olması üçün tətbiq olunduğu bildirilsə də, Konstitusiya Komissiyasının sədri Orhan Aldıkaçtı, barajın məqsədinə aydınlıq gətirmişdir: "Bu baryerdə məqsədimiz nə idi? Bu baryeri tətbiq etməkdə əsas məqsədimiz siyasi partiyaları ortadan qaldırmaq deyil, dostlarım… Məsələ, onların Qanunverici Məclisdə təmsil olunmalarını təmin etmək, kiçik partiyaların qarşısını almaq və mümkün qədər böyük partiyaları parlamentdə təmsil etməkdir". Sitata aydınlıq gətirsək, bu baryerin tətbiqində nəzərdə tutulan məsələ, kiçik partiyaların parlamentdəki təmsilçiliyinin qarşısını almaq, böyük partiyaların təmsil olunmasını təmin etmək və beləliklə, "dövlət fəaliyyətində sabitlik" reallaşdırmaqdır [10, 99].

1961-ci il Məclis seçkiləri xaric d'Hondt sisteminin sadə bir seçki sistemi kimi tətbiq olunduğu 1961-ci il Konstitusiya dövrünün 10.6.1983-cü il tarixli 2839 saylı qanunun, ümumiyyətlə, qeyri-sabit hökumətlərə qarşı bir

reaksiya olaraq tətbiq olunduğunu iddia edir. Seçki Qanunu d'Hondt sisteminin ölkə daxilində 10% və seçki ərəfəsində sadə seçki baryeri ilə tətbiq olunmasını nəzərdə tuturdu (art.33/I, 34/II-III) [5].

Bu, dünyada ən yüksək baryerdir (ikincisi Qırğızıstan-9, üçüncüsü Lixtenşteyn-8, daha sonra - Qazaxıstan-7%). Əksər ölkələrdə bu 3% (məsələn, İtaliya, İspaniya, Yunanıstan, Gürcüstan və s.) və ya 5%-dir (məsələn, Belçika, Almaniya, Rusiya, və s.). Türkiyədə 1969-1979 seçkiləri baryersiz keçirilmişdir [3, 255-256].

1983-1991 seçkiləri iki pilləli baryer ilə keçirilmişdir. 23.11.1995-ci il tarixli 4439 saylı Qanunla və 2839 saylı Qanuna əlavə edilmiş müvəqqəti maddə ilə 20-ci vəkil seçkilərində baryerin həddi 10 % olaraq müəyyən olunmuşdur (maddə 3) [10, 97].

1995-ci ildən bəri keçirilən bütün seçkilərdə ölkə səviyyəsində baryer tətbiq edilmişdir. [3, 255-256; 4; 9,176].

**4. 10 faizlik baryer Türkiyədəki 3 Noyabr 2002 seçkilərinə necə təsir etdi?**

2002-ci il parlament seçkiləri nəticəsində yalnız Ədalət və İnkişaf Partiyası (AK Parti) və Cümhuriyyət Xalq Partiyası (CHP) parlamentdə təmsil oluna bildilər. Nəticədə AK Parti 34% səs qazanaraq parlamentdə 66 % ilə təmsil olundu. CHP isə 19 % səs nisbəti ilə Məclisdə 32% ilə təmsil olundu. Burada təmsilçilik baxımından bəhs edilən bu fərq seçki sisteminin xarakteristikası ilə deyil, baryerin tətbiq edilməsi ilə səbəb olduğunu qeyd etmək mümkündür [13, 123].

- Toplam 41.4 milyon seçicinin səsvermədə iştirak nisbəti 79.1% idi. Bunlardan 31.5 milyonu etibarlı sayıldı (bundan əlavə, etibarlı olmadığı və ya seçkidə iştirak etmədiyi üçün təxminən 10 milyon səs etibarsız sayıldı = 25%) (2002 Genel Seçim Sonuçları).
- Seçkilərin nəticələrinə görə, AK Parti 10.8 milyon səs (34.3%) alaraq 363 yer qazandı. Parlamentdə təmsil olunan ikinci partiya 6,1 milyon seçici səsi ilə (19,4%) 178 yer əldə etmiş CHP oldu.
- Digər partiyalar 10 faizlik baryeri keçə bilmədikləri üçün parlamentdə təmsil olunmadılar. Beləliklə, 2002 seçkilərində parlamentdə təmsil olunmayan partiyaların ümumi səs sayı 45,3 faiz idi. Başqa sözlə, ümumilikdə səsləri etibarlı sayılan 14.3 milyon seçici parlamentə nümayəndə seçə bilmədi.
- Bu, AK Partinin bütün seçicilərin 25 faizinin səsini qazanması deməkdir.

**Nəticə**

Yuxarıda qeyd edilənlərdən də göründüyü kimi, 1961-ci ildən bəri Türkiyədə ədalətsizliklərin qarşısını almaq və daha çox partiyanın parlamentdə təmsil olunmasını təmin etmək üçün yeni bir seçki sistemi, proporsional seçki sistemi tətbiq olundu. D'Hont metoduna əsaslanan bu sistem dünyanın ən ədalətli seçki sistemlərindən biri sayılır. Bununla birlikdə, bu sistemin tətbiqi bir sıra iri və ya hakim siyasi partiyaların və hökumətlərin istəklərinə uyğun olaraq fərqli dövrlərdə dəyişdirilmişdir. Hal-hazırda Türkiyə qanunlarına görə tətbiq olunan bu sistemin ən çox narazılıq doğuran cəhəti 10 faizlik seçki baryerinin tətbiq edilməsidir. Belə ki, bunun nəticədə bir sıra kiçik partiyaların parlamentdə təmsil olunmasının qarşısı alınır. Bu hal ən çox 2002-ci il seçkilərində özünü göstərdi. Beləliklə, 2002 seçkilərində parlamentdə təmsil olunmayan partiyaların ümumi səs sayı 45,3 faiz oldu. Başqa sözlə, səsvermədə iştirak edən, ümumilikdə etibarlı sayılan 14.3 milyon seçici parlamentə öz nümayəndəsini seçə bilmədi.

## Ədəbiyyat

**1.** Election Threshold // https://www.polyas.com/election-glossary/election-threshold [erişim tarihi: 17.07.2020]

**2.** Electoral System of Turkey // https://en.wikipedia.org/wiki/Electoral_system_of_Turkey [16/06/2020]

**3.** Hasdemir T. A. 1980 sonrası Türkiye'de Seçim Sistemi s. 253-276 http://dergiler.ankara.edu.tr/dergiler/42/454/5161.pdf [erişim tarihi: 17.07.2020]

**4.** Köker İ (13 Mart 2018) Türkiye'de 1946'dan bugüne seçim sistemleri, BBC Türkçe // https://www.bbc.com/turkce/haberler-dunya-41981590 [erişim tarihi: 15.07.2020]

**5. M**illetvekili Seçimi Kanunu (10 Haziran 1983), Kanun No: 2839 // http://www.anayasa.gen.tr/2839sk.htm [16/06/2020]

**6.** Özbudun E. Seçim Sistemleri ve Türkiye http://dergiler.ankara.edu.tr/dergiler/38/298/2768.pdf [18.05.2020]

**7.** Plurality and majority systems https://www.britannica.com/topic/election-political-science/Plurality-and-majority-systems [12.07.2020].

**8.** Taşcioğlu Ö. L. (2014). Seçim Sistemimiz, Seçim Şaibeleri ve Öneriler. TBB Dergisi 2014(110)//https://www.researchgate.net/publication/328642580_Secim_Sistemimiz_Secim_Saibeleri_ve_Oneriler [erişim tarihi: 28.06.2020]

**9**. Tuncer E. (2006) Türkiye'de Seçim Uygulamaları/ Sorunları Işığında

Temsilde Adalet-Yönetimde İstikrar İlkelerinin İşlevselliği, Anayasa Yargısı, 23 (2006) //https://www.anayasa.gov.tr/media/4601/tuncer.pdf [erişim tarihi: 14.06.2020]

**10.** Türk H. S. **(**2006) Seçim, Seçim Sistemleri ve Anayasal Tercih, Anayasa Yarğısı, 23 (2006) // https://dergipark.org.tr/tr/download/article-file/939239 [erişim tarihi: 15.07.2020]

**11.** Türkiye'de 1946'dan bugüne seçim sistemleri (14.11.2017) Habertürk // https://www.haberturk.com/turkiye-de-1946-dan-bugune-secim-sistemleri-1713804 [erişim tarihi: 14.06.2020]

**12.** Türkiye ve Avrupa'da Seçim Sistemleri (1996) FES İstanbul, 62 s. // http://www.fes-tuerkei.org/media/pdf/Publikationen%20Archiv/Ekonomi%20ve%20Toplum/1995/T%C3%BCrkiye%20Ve%20Avrupa'da%20Se%C3%A7im%20Sistemleri.pdf [erişim tarihi: 12.06.2020]

**13.** Yildiz A. (2018). Seçim Sistemleri ve Türkiye'de Milletvekili Seçim Sistemine İlişkin Bir Öneri. Selçuk Üniversitesi Hukuk Fakültesi Dergisi, 26 (3), 113-153. DOI: 10.15337/suhfd.490307. https://dergipark.org.tr/tr/download/article-file/610433 [erişim tarihi: 14.06.2020]

**14.** 2002 Genel Seçim Sonuçları // https://secim.haberler.com/2002/

# ŞƏKİ-ZAQATALA BÖLGƏSİ MULTİKULTURAL VƏ TOLERANTLIQ ƏNƏNƏLƏRİNİN ƏN GÖZƏL NÜMUNƏSİDİR

***Musayeva Sahibə Xəlil qızı***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*aliyarbeyova.s@mail.ru*

**Açar sözlər**: *Şəki-Zaqatala bölgəsi, multikulturalizm, tolerantlıq, Qafqaz Albaniyası, azsaylı xalqlar, folklor*

*Hal-hazırda Azərbaycanda müxtəlif xalqlar yaşayır. Bu xalqlar müstəqil şəkildə bütün adət-ənənələrini, dini etiqad və sitayişlərini yerinə yetirirlər. Dövlətimiz tərəfindən hər bir xalqın nümayəndəsinə hərtərəfli azadlıq verilib, bu barədə heç bir qadağa qoyulmayıb, onların tarixinə, qədim inam-etiqadlarına hörmətlə yanaşılır. Bu tarixən belə olub, bu gün də belədir. Çünki Azərbaycanımız demokratik, humanist, multikulturalıızm ənənələrinə diqqət yetirən, əməl edən dövlətdir.*

*Məqalədə göstərilir ki, Azərbaycanın şimal-qərb bölgəsi etnik müxtəlifliyi - müxtəlif xalqların yanaşı yaşaması, müxtəlif adət və ənənələrin, müxtəlif inancların mövcud olması ilə fərqlənən ərazidir. Burada udilər, avarlar, saxurlar, ingiloylar, ləzgilər, digər xalqlar və etnik qruplar yaşayırlar.*

## ШЕКИ-ЗАГАТАЛЬСКИЙ РЕГИОН - САМЫЙ КРАСИВЫЙ ПРИМЕР МУЛЬТИКУЛЬТУРНЫХ И ТОЛЕРАНТНЫХ ТРАДИЦИИ

***Мусаева Сахиба Халил гызы***

**Ключевые слова:** *Шеки-Загатальский регион, мультикульту-рализм, толерантность, Кавказская Албания, малочисленные народности, фольклор*

*В данный момент в Азербайджане проживают разные народности. Эти народности свободно исполняют свои вероисповедания и обычаи. Наше государство каждому представителю этих народ-ностей предоставляет свободу и относится с уважением к их истории, древним поверьям. Это было так исторически и продолжается до сих пор. Потому, что Азербайджан – демократическое, гуманное и обращающее внимание на обычаи мультикультурализма государство.*

*В статье указывается, что Шеки-Закатальский регион Азербайджана является регионом отличающимся своим этническим разнообразием – проживанием в нем разных национальностей, наличием разных обычаев и традиций, разных вер. В данном регионе испокон веков бок обок проживают удины, аварцы, цахуры, ингилои, лезгины и другие народы и этнические группы.*

## SHEKI-ZAGATAL REGION - THE MOST BEAUTIFUL EXAMPLE OF MULTICULTURAL AND TOLERANT TRADITIONS

***Musaeva Sahiba Khalil***

**Key words:** *Sheki-Zagatala region, multiculturalism, tolerance, Caucasian Albania, ethnic groups, folklore*

*At present different nations live in Azerbaijan. These nations fulfill all customs and traditions, religious beliefs and worships independently. The comprehensive freedom is given to the representative ofeach nation, there is no ban, their history, ancient beliefs are respected. It was historically and even today it is so.*

*In the article it is showed that, Shaki-Zagatala region is distinguished for its ethnic different traditions and beliefs, and their living with different nations. Udis, Avars, Tsakhurs, Ingiloys, Lezghins and other nations and ethnic groups live here.*

**"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".**

***HEYDƏR ƏLİYEV***

Multikulturalizm yeni bir termin kimi siyasi leksikona ilk dəfə 1970-ci ildə Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilsə də, onun ənənəsi çoxdan Azərbaycanda izlənilir. Azərbaycan özünün multikultural dəyərlərə münasibəti ilə hər zaman - istər sovetlər dönəmində, istərsə də ondan sonrakı dövrlərdə seçilmişdir. Milli azlıqlar arasında əlaqələrin yaxşılaşdırılması və hüquqi dövlətin yaradılmasına onla-rın cəlb olunmasınının səviyyəsinin artırılması məqsədi daşıyan "Azərbay-

canda yaşayan milli azlıqlar və etnik qrupların hüquq və azadlıqlarının qorunması, həmçinin dilinin və mədəniyyətinin inkişafına dövlət yardımı" haqqında Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1992-ci il 16 sentyabr tarixli Fərmanın imzalanması bu ideyanın yeni dövrdə gerçəkləşdirilməsi uğrunda mücadiləsi idi. Lakin təəssüf ki, bu Fərman o dövrdə tam şəkildə həyata keçirilmədi.

Tarazlı milli siyasət kursu, milli azlıqların ən kiçik qayğılarından tutmuş ciddi sosial problemlərinə qədər bütün məsələlərin həllinə 1993-cü ildə hakimiyyətə gəlmiş prezident, ümummilli lider Heydər Əliyevin iradəsi, cəsarəti ilə başlanıldı. Belə ki, Heydər Əliyev ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq" deyən Ulu Öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi [1, s.7]. Respublikada multikultural dəyərlər davamlı olaraq təhsil, mətbuat və ictimaiyyətdə təşviq olunur, dini mədəni müxtəliflik mühiti dövlətin diqqət və qayğısı ilə əhatə edilir.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərman imzalamasını, 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsini bütün bunların rəsmi şəkildə təsdiqi kimi qeyd etmək olar.

Azərbaycanlı adlanan xalqın içində çoxluq təşkil edən Azərbaycan türkləri ilə yanaşı, dini mənsubiyyətinə görə müsəlmanlardan, xristianlardan və iudaistlərdən ibarət olan türk mənşəli Mesxeti türklərinin, axıskalıların, tatarların, Qafqaz mənşəli avarların, ləzgilərin, darginlərin, saxurların, Şahdağ qrupuna daxil olan xınalıqların, buduqların, haputların, qımılların, Alban mənşəli udilərin, İber-Qafqaz mənşəli gürcülərin, ingiloyların, İran mənşəli tatların, talışların, dağlıların, lahıcların, kürdlərin, slavyan mənşəli rusların, malakanların, yəhudi mənşəli dağ yəhudilərinin, assimliyasiya olmuş ərəblərin və s. azsaylı xalqların nümayəndələri də vardır. Azsaylı xalqların nümayəndələri burada birgə, yəni multikultural şəraitdə yaşayır, bir-birlərinə can deyib, can eşidirlər. Bu azsaylı xalqlar ayrı-ayrı xalq və millətləri təşkil edən etnik birlikdən qopmuş, bu proseslər zamanı xüsusi forma və məzmun kəsb etmiş ayrıca qurumlardan ibarət olur. Hər bir etnik azlığın öz dili, adət-ənənəsi və mənəvi birliyi mövcuddur. Adətən müəyyən bir ərazidə kompakt halda yaşayır. Azlıqlar üçün səciyyəvi olan bu xüsusiyyətlər onun başqa xalq və millətlərlə qaynayıb-qarışmasına heç də mane ola bilməz. Eyni zamanda etnik azlıqlar tarixən baş verən etnik proseslər nəticəsində öz keçmiş adət-ənənələrini saxlamaqla bərabər qonşu xalqlardan, millətlərdən də müəyyən əlamətlər və

xüsusiyyətlərini özlərində əxz edə bilərlər. Bu mənada respublikamızda yaşayan etnik azlıqlar da istisna təşkil etmirlər. Belə ki, onlar ünsiyyətdən başqa, həm də bir-biriləri ilə qohumluq əlaqələrinə girmiş, bir-birilərinə qız verib, qız almışlar. Biz bunun –Azərbaycan xalqının əsrlərdən bəri davam edib gələn və bu gün də qədər qoruyub saxladığı mənəvi dəyərlərindən biri kimi qonşu xalqlara hörmət və ehtiramın multikultural şəraitdə formalaşan Şəki-Zaqatala bölgəsinin timsalında daha qabarıq şəkildə görə bilərik.

Azərbaycanın şimal-qərb bölgəsi etnik müxtəlifliyi - müxtəlif xalqların yanaşı yaşaması, müxtəlif adət və ənənələrin, müxtəlif inancların mövcud olması ilə fərqlənən bölgədir. Bunun üçün bölgəni əhatə edən rayonlardakı – Şəki, Zaqatala, Balakən, Qax, Oğuz, Qəbələ tarixi abidələrə və ya sayı 20-dən yuxarı xalqın nümayəndəsinin tarixən mehriban, milli mənsubiyyətindən asılı olmayaraq hamının vahid ailə kimi yaşamasına nəzər salmaq yəqin ki, kifayətdir. Müxtəlif mədəniyyətlərin və dinlərin paralel inkişaf etdiyi bu regionda məscid də, kilsə də, sinaqoq da inşa olunub. Mövcud bölgədə multikulturalizmin kökünü birinci növbədə insanların əski inanclarında axtarmaq lazımdır. Bu öz əksini tarixən qədim ziyarətgah yerlərində günü bu gün də insanların milliyyətindən asılı olmayaraq bölgə əhalisinin birgə tapındığı məkanlarda tapmışdır: Kürmük kilsəsi, adına əfsanələr qoşulmuş Pəri qala, Diş piri, Dilək piri, Uşaq piri, Yel ziyarəti, Qorxu ziyarəti və s.

Azərbaycan ərazisində yaşayan bütün xalqların və etnik qrupların öz dillərini öyrənmələri üçün kifayət qədər şərait yaradılmışdır. Belə ki, Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilərin, Zaqatala rayonunun Əliabad kəndində yaşayan ingiloyların, Suvagil kəndində yaşayan saxurların, Danaçı (Dinçi) kəndində yaşayan avarların və s. yerlərdə övladlarının təhsil aldığı məktəblərdə öz ana dilləri ən azı həftədə iki dəfə tədris olunur.

Strabonun yazdığına görə, Qafqaz Albaniyasında 26 soy və xalq yaşamaqda idi ki, bunlardan albanlar, massagetlər, qarqarlar, saklar, kəngərlər, çullar, beçeneqlər (oğuzlar), kumanlar, kerqillər, suvarlar, bulqarlar, hunlar, xəzərlər, dondarlar, labanlar (lpinlər), qaytaqlar və s. türk soy və boyları idilər və ölkə əhalisinin böyük əksəriyyətini təşkil edirdilər. Eyni zamanda dağlıq bölgələrdə, udinlər, ciqblər, silvlər (çilblər), herlər, qatlar (xınalıqlılar və buduqlar), leqlər (ləzgilər və laklar), boxlar (ubıxlar), gellər və digər qafqazdilli tayfalar da yaşayırdılar. Bu xalqlar azsaylı idilər və ölkənin siyasi, iqtisadi və mədəni həyatında önəmli bir rola sahib deyildilər. Onların nəsilləri bu gün də Dağıstanda və Azərbaycanın şimaldakı dağlıq ərazilərində yaşamaqdadırlar. Bu fakt onu göstərir ki, dil müxtəlifliyinin ən çox kök atdığı yerlər dağlıq ərazilərdir. Dil müxtəlifliyini ən çox özündə təcəssüm etdirən ərazilərdən biri Qafqaz sıra dağları silsiləsinin cənub-qərb hissəsində yerləşən Şəki-Zaqatala bölgəsidir.

Şəki-Zaqatala regionunun çoxmillətli olması istər bölgə əhalisinin dilinə, folklor örnəklərinə, istərsə də kənd, oba adlarına öz təsirini göstərir. Bu regionda yaşayan millətlərin dillərində işlənən sözlərin çoxu region əhalisinin dialektinə daxil olmuş, el-oba adlarında milli təsir özünü göstərmişdir. XIX əsrdə Azərbaycanın şimal bölgəsinə səfər etmiş D.Zubarayev, Fon-Plotto, ("Zaqatala dairəsinin əhalisi və təbiəti" əsəri) eləcə də ayrı-ayrı müəlliflərin etnoqrafların müxtəlif əsərlərində bu ərazidə yaşayan azsaylı xalqlar haqqında məlumat verilmiş [2, c.1-62], burada yaşayan xalqlara və onların adətlərinə öz münasibətlərini bildirmişlər.

Müxtəlif xalqların və etnik qrupların kompakt şəkildə yaşadığı Şəki-Zaqatala regionu ən qədim adət-ənənələrimizi bu zonada yaşayan müxtəlif xalqların və etnik qrupların daxil olduğu vahid Azərbaycan folkloru nümunələrində qoruyub saxlamışdır [4, s.56]. Milli azlıqların folkloruna həsr olunmuş "Babaların hikmət xəzinəsi" kitabında avar, saxur, yengiloy xalqlarının folklor nümunələri janrlar üzrə bölünərək həm avar, saxur, yengiloy, həm də Azərbaycan dilində verilmişdir [3, s.172-176]. Burada bayatı, mahnı, oxşama, layla, ağı, düzgü, deyişmə, alqış, atalar sözləri, rəvayət, nağıl, dastan və s. janrlar təqdim olunmuşdur. Həmçinin, bu bölgədə yaşayan azsaylı xalqların-"Cahan", "Qafqaz" "Alazan", "Lilay", "Qismət", "İngiloy", "Zopu-zopu" və s. adlı folklor ansamblları fəaliyyət göstərir.

Son olaraq qeyd etmək yerinə düşər ki, Azərbaycanın Şimal-Qərb bölgəsi təbii sərvəti və təbiəti ilə necə seçilirsə, burada minilliklər boyu yaranmış multikultural və tolerantlıq ənənələri də bir o qədər özəlliklərə məxsusdur.

## Ədəbiyyat


1. Abdullayev K. Azərbaycan - 2014, 23 iyul, s.7.
2. Фон-Плотто А. Природа и люди Закатальского округа. ССКГ, вып., IV Тифлис, Изд. Кавказ. Гор, Упр, 1870.
3. Süleymanov Ə. Babaların hikmət xəzinəsi. B., 2011.
4. Yaqubqızı M.. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm. B., 2016.

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2020, 2 (29), s.95-102**

# AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASININ YARADILMASI TARİXİNDƏN

***Əzizağa Tofiq oğlu Qəni-zadə***
*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası*
*yupiter57@mail.ru*

**Açar sözlər:** *müstəqillik, ordu quruculuğu, hərbi təhsil, hərbi akademiya, əsasnamə*

Məqalədə ali peşəkar zabit kadrların hazırlanmasında müstəsna rolu olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaranma tarixi və onun ilkin mərhələdə keçdiyi şərəfli yol maraqlı mənbələr əsasında tədqiq olunmuşdur. Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, hərb işi sahəsində elmi tədqiqatların aparılmasını, dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini təmin etmək məqsədi ilə 1999-cu ilin 20 fevralında Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında fərman imzaladı. Həmin fərmanla yaradılmış bu təhsil ocağı gələcəkdə də qürurla davam etdiriləcək hərbi ənənələrimizin yaşadılması yolunda böyük iz qoymuşdur.

## ОБ ИСТОРИИ СОЗДАНИЯ ВОЕННОЙ АКАДЕМИИ ВООРУЖЕННЫХ СИЛ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Азизага Ганизаде**

**Ключевые слова**: *независимость, армейское строительство, военное образование, военная академия, положение*

В статье исследованы история создания Военной академии Вооруженных сил Азербайджанской Республики, играющей исключительную роль в подготовке старших профессиональных офицеров, и ее славный путь на начальном этапе на основе интересных источников. Подготовка командиров и штабных офицеров с высшим военным образованием, военных ученых для Вооруженных Сил Азербайджанской Республики, их повышение квалификации, проведение научных исследований в области военного дела, военно-стратегических, военно-

экономических и военно-политических вопросов, связанных с обороной республики. 20 февраля 1999 года общенациональный лидер Гейдар Алиев подписал указ о создании Военной академии Вооруженных сил Азербайджанской Республики для обучения. Это учебное заведение, созданное указом общенационального лидера Гейдара Алиева 20 февраля 1999 года, оставило большой след в сохранении и умножении наших военных традиций.

## ABOUT THE HISTORY OF THE CREATION OF THE MILITARY ACADEMY OF THE ARMED FORCES OF THE REPUBLIC OF AZERBAIJAN

**Azizagha Qanizadeh**

**Keywords:** *independence, army formation, military education, military academy, position*

The article explores the history of the creation of the Military Academy of the Armed Forces of the Republic of Azerbaijan, which plays an exceptional role in the training of highly educated professional clerical personnel, and, based on interesting sources, highlights its glorious path from the very initial stage of its creation. Training of commanders and staff officers with higher military education, military scientists for the Armed Forces of the Republic of Azerbaijan, their advanced training, scientific research in the field of military affairs, military-strategic, military-economic and military-political issues related to the defense of the republic. On February 20, 1999, the national leader Heydar Aliyev signed a decree on the establishment of the Military Academy of the Armed Forces of the Republic of Azerbaijan for training. The institution established on the basis of a decree of February 20, 1999, signed by the President and the national leader of the Azerbaijani people, Heydar Aliyev, left a big mark in the preservation and multiplication of our military traditions.

**Giriş**

Tarixə nəzər yetirsək görərik ki, əslər boyu öz ərazi bütövlüyünü, müstəqilliyini və suerenliyini daxili və xarici müdaxilələrdən, işğal təhlükəsindən müdafiə etmək istəyən qüdrətli dövlətlər, ilk növbədə, öz dayağını - ordusunu yaratmışdır. Azərbaycan Respublikası da müstəqilliyinə qovuşduqdan sonra dünya təcrübəsindən istifadə edərək, ölkədə ordu quruculuğunun yaradılmasını gənc dövlətin başlıca vəzifəsi kimi qarşıya qoydu və ordunun formalaşdırılmasına nail oldu. Mürəkkəb ictimai-siyasi şərait, xarici müdaxilə, havadar-

larının köməyinə arxalanaraq torpaqlarımızı qəsb edən erməni qəsbkarlarının təcavüzkarlığının durmadan artdığı bir dövrdə ölkəmizdə Silahlı Qüvvələrin yaradılması mühüm və əlamətdar hadisə idi. Lakin ilk illər aparılan daxili və xarici siyasətin ölkənin milli mənafeləri ilə üst-üstə düşməməsi, Azərbaycanın böyük bir bəlanın içərisinə sürüklənərək müharibə meydanına çevrilməsi, daxildə baş verən bir sıra böhranlar, xüsusilə, ordu quruculuğunun təşkili üçün vahid plan və proqramın olmaması və bu işi həyata keçirəcək peşəkar milli-hərbi kadrların olduqca azlıq təşkil etməsi Silahlı Qüvvələrin fəaliyyətində bir sıra çətinliklər yaratdı və onun ümumi işinə mənfi təsir göstərdi.

Dövlətin onurğa sütununu təşkil edən və tale əhəmiyyətli vəzifələrin həyata keçirilməsini şərtləndirən Ordu quruculuğu ölkənin hərbi qüdrətini yüksəltmək məqsədilə onun həyata keçirdiyi iqtisadi, sosial-siyasi və hərbi tədbirlər sistemidir. Ordu quruculuğunun mühüm istiqamətləri silahlı qüvvələrin yaradılması, inkişafı və onların döyüş hazırlığının fasiləsiz yüksəldilməsi və təkmilləşdirilməsi, həmçinin, müharibə tələbatının iqtisadi təchizatı, elm və texnikanın son nailiyyətlərini öyrənərək ondan alınan nəticələri müharibədə tətbiq etmək, əhalinin müharibənin aparılmasına mənəvi-siyasi hazırlığını təşkil etmək və s. ibarətdir [13, 19].

Məhz buna görə, 1991-ci ilin oktyabrında ikinci dəfə öz müstəqilliyinə qovuşan Azərbaycan Respublikası ərazi bütövlüyünü qorumaq və sərhədlərini möhkəmləndirmək məqsədi ilə suveren subyekt olaraq, öz dövlətçilik sisteminin bir sıra vacib strukturlarını, xüsusilə, onun mühüm tərkib hissəsi olan Silahlı Qüvvələrini yenidən yaratmağa başladı [6] və SSRİ-nin hərbi akademiyalarında təhsil almış, MDB-nin regionlarında çalışan bütün azərbaycanlı zabitlər bu mühüm vəzifənin həyata keçirilməsinə cəlb olundular. Onlar Ulu Öndər Heydər Əliyevin çağırışına dəstək verərək, öz doğma ölkələrinə qayıtdılar və Azərbaycanda ordu quruculuğunun yaradılmasına öz töhfələrini verdilər [9, 50]. Lakin peşəkar milli kadrların azlığı ordu quruculuğunun inkişafına mane olur və təcili olaraq orduda yüksək təhsilli kadrların hazırlanması işinə başlamağı tələb edirdi.

Dövlətin vacib komponenti olan Silahlı Qüvvələrin tabeliyində hərbi təhsil sisteminin düzgün və hərtərəfli qurulması onun qarşısında dayanan təxirəsalınmaz məsələlərdən idi. Ölkəmizin gələcək taleyi və Silahlı Qüvvələrin səviyyəsinin hərbi təhsil sisteminin keyfiyyəti ilə sıx bağlı olduğunu nəzərə alsaq, onu deyə bilərik ki, müasir texnologiyanın yenilikləri ilə ayaqlaşan güclü ordunun yaradılmasında peşəkar hərbi kadrları hazırlayan bu sistemin müstəsna rolu vardır.

Dövlətin ümumi təhsil sisteminin xüsusi sahəsini təşkil edən hərbi təhsil sistemi bir sıra özünəməxsus özəlliklərə sahibdir. Hərbi təhsil sisteminin əsas vəzifəsi hər an əldə silah ölkənin müdafiəsinə qalxan, onu qorumağı bacaran və tabeçiliyində olanları da bu mədsəd ətrafında birləşdirməyə qadir, döyüşün

taktiki və əməliyyat-taktiki, strateji xüsusiyyətləri ilə bağlı çevik və düzgün qərarlar verən və praktik olaraq onu həyata keçirmək qabiliyyətinə, hazırlığına malik peşəkar hərbi kadrların hazırlanmasıdır [3. 36; 10. 62].

Hələ sovet dönəmində Azərbaycanda fəaliyyət göstərən 1 hərbi peşə məktəbi (C.Naxçıvanski adına hərbi lisey) və 2 hərbi məktəbdə (Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik məktəbi) [2. 55; 8. 64], həmçinin ittifaqın bir çox şəhərlərində yerləşən hərbi məktəblərdə hərb peşəsinə yiyələnən azərbaycanlı zabit kontingenti formalaşmışdı.

Sovetlər birliyinin çətin vaxtlarında bu gün milli hərbi kadrlarımız üçün baza rolunu oynayan C.Naxçıvankinin adını daşıyan ixtisaslaşdırılmış hərbi məktəbin yaradılması, məhz milliyətcə azərbaycanlı olan hərbi kadrların sayının artırılmasına, onlarda hərbi peşəyə maraq və məhəbbətin oyanmasına, xalqımızın qəhrəmanlıq ənənələrinin təbliğinə və bununla da dövlətçilik tariximizin gələcəkdə yenidən davam etdirilməsinə hesablanmış strateji bir addım idi ki, bunu da hələ o zaman Azərbaycan KP MK-nın I katibi vəzifəsində çalışan, xalqımızın Ümummilli Lideri Heydər Əliyev etməyi bacarmışdı [4; 12].

Azərbaycanda fəaliyyət göstərən hərbi təhsil ocaqlarının yenidən qurulması işinə müstəqilliyimizin ilk illərindən başlanılmış, peşəkar hərbi kadrların hazırlanması niyyətilə Silahlı Qüvvələrin qoşun hissələrində hərbi aviasiya kadrları, hərbi feldşerlər və gizirlərə olan ehtiyacın ödənilməsi məqsədi ilə müvafiq məktəblər açılmışdır [1].

Peşəkar milli zabit bankının artırılması sahəsində görülən işlərin zirvəsi isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında verilmiş fərman oldu [7].

Belə ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, hərb işi sahəsində elmi tədqiqatların aparılmasını, dövlət oraqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini təmin etmək məqsədi ilə 1999-cu ilin 20 fevralında Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında fərman imzaladı [7].

Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması ordu quruculuğunun daha uğurla aparılmasına hesablanmış və yüksək səviyyəli zabit kadrların hazırlanması zərurətindən irəli gəlmişdir. Akademiyanın təşkilindən əvvəlki illərdə zabitlərimizin ali hərbi biliklərə yiyələnməsi üçün onlar xarici ölkələrə göndərilirdilər. Lakin 1997-ci ildə peşəkar ali kadrların hazırlanması işi respublikanın daxilində də təşkil edilməyə başlanıldı və bu sahədə milli hərbi ənənələrə arxalanaraq ilk addımlar atıldı.

Həmin il Müdafiə Nazirinin 02 oktyabr tarixli əmri ilə Müdafiə Nazirliyinin Döyüş Hazırlığı İdarəsinin tərkibində 8 ixtisas üzrə 4 aylıq ali

akademik kurs yaradıldı. Qardaş Türkiyə Cümhuriyyətinin zabitlərinin iştirakı ilə aparılan dərslərə hərbi hissələr və idarəetmə strukturlarında xidmət edən məsul vəzifəli zabitlər cəlb edildilər. Lakin təcrübə göstərdi ki, mənimsənilməsinə ehtiyac duyulan biliklərin hamısını 4 ay ərzində əhatə etmək mümkün deyil. Bunun üçün kursda təhsil müddəti 9 aya qədər uzadıldı [5].

1998-cı ildə Ali Akademik Kursun ilk təntənəli buraxılışı keçirildi. Dinləyicilərin yarıdan çoxu tədris ilini əla (23,6%) və yaxşı (34,8%) akademik göstəricilərlə başa çatdırmışdılar. Həmin il Azərbaycan Respublikası Müdafiə Nazirliyinin idarə və xidmətlərinə, o cümlədən Silahlı Qüvvələrin hərbi hissələrinə 24 məzun göndərildi [9, 24-25].

Ümumiyyətlə, yüksək səviyyəli taktiki və operativ təfəkkürlü milli zabit karların hazırlanmasını nəzərdə tutan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması ölkəmiz üçün hərbi təhsilin tamamilə yeni mərhələsi idi.

Bu təhsil ocağı yarandığı ilk gündən ölkəmizin milli mənafelərinə sadaqətli olan və dövlətimizin müdafiəsi zamanı ordunun strateji yükünü öz çiyinlərində daşımağa qadir milli kadrların yetişdirilməsi, o cümlədən, müxtəlif strukturlarda çalışan şəxslərin təkmilləşdirilməsi məqsədilə mühüm addımlar atmağa başladı.

Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldıqdan sonra atılan ilk addım onun əsasnaməsinin hazırlanması oldu. Əsasnamə "Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu"na, Müdafiə Nazirinin əmr və direktivlərinə, həmçinin, digər müvafiq qanunlara uyğun olaraq qısa müddətdə hazırlandı. Ümumilikdə, tədris prosesinin təşkili və dinləyicilərin qəbulu haqqında 14 bölmədə təlimatları özündə əks etdirən Əsasnamə 1999-cu ilin fevralında Ulu Öndər Heydər Əliyevin imzaladığı fərmanda qarşıya qoyulan bütün vəzifələrə cavab verir və bütövlükdə, akademiyanın fəaliyyətini tənzimləyirdi.

Əsasnamədəki "Hərbi Akademiyanın qarşısında duran əsas vəzifələr" bölməsində qeyd edilir:

1. Hərb elmləri üzrə yüksək nəzəri biliklərə və praktiki vərdişlərə yiyələnmiş, hərbi hissələrin döyüş əməliyyatlarının təşkili, idarə olunması, silah və texnikanın döyüşdə səmərəli tətbiq olunması bacarığına malik olan, düzgün qərar qəbul etmək və bu qərarı ən təsirli şəkildə həyata keçirməyə qadir olan, sərbəst mühakimə yürüdə bilən, döyüş əməliyyatları planlarını tərtib etmək və bu planları həyata keçirmək bacarığı inkişaf etmiş ali hərbi təhsilli komandir və qərargah zabitlərinin hazırlanması;

2. Respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, hərbi kadrların hazırlanmasının təkmilləşdirilməsi məsələsinin həllinə yönəldilmiş fundamental elmi-tədqiqat işlərini təşkil etmək və həyata keçirmək;

3. Elmi, pedaqoji kadrların hazırlanması, komandir və müəllim heyətindən olan zabitlərin ixtisaslarını artırmaq;

4. Hərbi hissələrin döyüş bacarığının yüksəldilməsinə yönəldilmiş hərbi-elmi tədqiqatlar aparmaq və təkliflər vermək;

5. Yüksək vəzifələrdə çalışan şəxslərə respublikamızın müdafiəsi ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi, hərbi-siyasi məsələlərin öyrədilməsini təşkil etmək [8, 26-27].

Azərbaycan Respublikası Hərbi Akademiyası öz fəaliyyətini Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri, respublika Müdafiə Nazirinin əmrləri və bu əsasnamənin tələbləri çərçivəsində nizamlayır və həyata keçirir.

Azərbaycan Silahlı Qüvvələri Hərbi Akademiyasının əsasnaməsində Akademiyanın struktur quruluşu da aydın göstərilmişdir. Buraya idarəetmə orqanları, əsas bölmələr (kurslar, kafedralar, akademik kurslar, elmi bölmələr, dinləyici bölmələri) və tədris-təlimat bölmələri daxildir [8, 27].

Hərbi Akademiyaya dinləyicilərin qəbulu bu barədə təsdiq olunmuş Təlimata uyğun olaraq həyata keçirilir [8, 28].

Əsasnaməyə əsasən, Silahlı Qüvvələrdə ən azı 6 il xidmət etmiş və 32 yaşa qədər tabor (diviziyon) komandirləri və 35 yaşa qədər briqada, alay komandirinin müavinləri, qərargah, həmçinin, əməliyyat bölməsinin rəisləri hərbi akademiyada təhsil almaq hüququna malik idi.

Hərbi Akademiyada məşgələlər əsasən NATO sistemi üzrə həyata keçirlir.

Akademiyada Müdafiə Nazirliyinin rəhbəredici sənədlərinin tələblərinə uyğun olaraq həm ordu, həm də dinləyicilər üçün lazım olan dərs vəsaitləri, metodiki tövsiyələr hazırlanır.

Dinləyicilərin hazırlığının keyfiyyətinə nəzarət məqsədilə akademiyanı bitirən məzunların biliyi 100 ballıq şkala ilə qiymətləndirilir [9, 27]. Məzunların biliyi qiymətləndirilərkən burada imtahan qiymətindən əlavə, onların il ərzində dərslərə davamiyyəti, nizam-intizam, ümumi davranış, məşğələlərdəki iştirakları, gündəlik hazırlıqları və s. amillər də diqqətdə saxlanılır.

1999-cu il iyulun 12-də Akademiyanın ilk dinləyiciləri qardaş Türkiyə Cümhuriyyətinə təcrübə mübadiləsinə göndərildilər. Səfər çərçivəsində azərbaycanlı zabitlər Türkiyənin Quru Qoşunlarının hərbi məktəbləri və onların döyüş təcrübəsi ilə yaxından tanış oldular.

1999-cu ilin 30 iyulunda Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası ilk buraxılışını etdi. Həmin buraxılışda 30 məzun akademiyanı bitirərək Silahlı Qüvvələrin müxtəlif idarə və müəssisələrində qulluğa cəlb olundular. Həmin gün akademiyanın nəzdində yaradılmış "Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə" kursları da ilk buraxılışını edir və ilk tədris ilini 13 nəfər bitirdi [11, 37].

**Nəticə**

Tarixə nəzər yetirib, hadisələrin baş verdiyi tarixi şəraiti təhlil etmək, baş vermiş mühüm hadisələri dəqiq təhlil etmək və bundan ibrət dərsi və yaxşı nümunə götürərək daim irəliyə doğru inkişaf etmək və tərəqqi istiqamətində addımlamaq çox vacibdir. Həm dövlətçilik, həm də onun tərkib hissəsi olan ordu quruculuğu sahəsində bizə miras qalmış mütərəqqi ideya və prinsipləri daim diqqətdə saxlamaq və yeri gəldikdə, ondan təcrübədə istifadə etmək lazımdır.

XX əsrin sonlarında Ümummilli Lider Heydər Əliyevin imzası ilə həyata vəsiqə alan Azərbaycan Respublikkası Silahlı Qüvvələri Hərbi Akademiyasının yaradılması haqqında tarixi fərmanla bu təhsil ocağı bundan sonra da əsrlər boyu ordumuz üçün dövlət mənafeyinə sadiq, cəsur, savadlı və peşəkar hərbi kadrlar yetişdirəcəkdir.

Bu gün biz əminliklə deyə bilərik ki, ölkəmizdə milli hərbi kadrların hazırlanması sahəsində dövlət tərəfindən müəyyənləşdirilmiş vəzifələrin həllinə yüksək səviyyədə nail olunmuşdur.

Ötən illər ərzində Silahlı Qüvvələrin Hərbi Akademiyası uğurlu bir inkişaf yolu keçərək dövlətimizin hərbi təhsil sistemində özünə layiq yer tutmuşdur. İndi ordumuzun bütün hərbi hissə və birləşmələrini, yüksək idarəçilik strukturlarını məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı Silahlı Qüvvələrin Hərbi Akademiyasının məzunları idarə edirlər. Bu ali təhsil ocağında yetişən hər bir zabit üçün həmin təhsil ocağında əldə edilən biliklər onların xidmətində dönüş nöqtəsi, bir başlanğıc və dövlətimizin müdafiə qüdrətinin artırılmasına bir töhfədir.

## Ədəbiyyat


1. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin nitqi. 25 iyun 1998-ci il. //"Azərbaycan" qəzeti, 26 iyun 1998-ci il. s.1.
2. Cəfərov N, Çobanov M, Paşayeva Q. Azərbaycanşünaslığın əsasları. Bakı, AzAtaM, 2013, 352 səh.
3. Hərbi təhsil haqqında. // Hərbi bilik, №1(35), yanvar-fevral 1999, s.35-37.
4. Heydər Əliyev və ordu quruculuğu. Bakı, Adiloğlu nəşriyyatı, 2006. 480 s.
5. https://azeridefence.com/general-leytenant-heydər-piriyev-hərbi-akademiyanin azərbaycanin-mudafiə-sənayesinin-inkisafinda-boyuk-rolu-olacaq/.Süleymanov R, Aslanlı O. General-leytenant Heydər

Piriyev: Hərbi Akademiyanın Azərbaycanın müdafiə sənayesinin inkişafında böyük rolu olacaq. 30 noyabr 2019-cu il.
6. httprepublic.preslib.azaz_d4.html. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 5 sentyabr 1991-ci il № 334.
7. http://www.e-qanun.az/framework/5132. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 20 fevral 1999-cu il. № 107.
8. Mahmudzadə S. Hərbi akademiya: ilk məzunlar, yeni qayğılar. Bakı, Hərbi nəşriyyat, 2000. 152s.
9. Piriyev H, Əliyev N. Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyası – 20 il. Bakı: AFPoliqrAF, 2019, 212 s.
10. Rzayev N. Ümumi təhsil sistemində Hərbi təhsilin – AAHM-nin yeri və rolu. // Hərbi bilik, № 5(59). Sentyabr-oktyabr, 2002. s.59-72.
11. Sülüymanov M. Hərbi Akademiyanın ilk buraxılışı. Hərbi bilik №4(40), iyul-avqust, 1999, s.37.
12. Süleymanov M. Milli hərbi kadrların hazırlanmasında Heydər Əliyev uzaqgörənliyi. // Xalq qəzeti, 26 iyun 2016-cı il. s.9.
13. Şıxlı S. Mən Azərbaycan zabitiyəm. Bakı, Hərbi nəşriyyat, 2000, 94 s.

# AZƏRBAYCAN-RUSIYA ƏLAQƏLƏRI VƏ AVRASIYA İQTİSADİ İTTIFAQI

***Aypara Sədi qızı Rüstəmova***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

**Açar sözlər:** *Azərbaycan Respublikası, Rusiya Federasiyası, Azərbaycan-Rusiya əlaqələri, Avrasiya İqtisadi İttifaqı, Gömrük İttifaqı*

*Məqalədə Azərbaycan-Rusiya əlaqələri fonunda Azərbaycanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü məsələsinə nəzər salınır.Qeyd edilir ki, Azərbaycan ərazilərini işğal edən Ermənistanla eyni ittifaqda ola bilməz.Məqalədə xalqın, siyasi partiyaların, politoloqların fikirlərinin bu məsələdə dövlətin mövqeyi ilə üst-üstə düşməsi təhlil edilir.*

## AZERBAIJANI-RUSSIAN RELATIONS AND THE EURASIAN ECONOMIC UNION

**Aypara Sadi gizi Rustamova**

**Key words:** *Azerbaijan Republic, Russian Federation, Azerbaijan - Russian relations, Eurasian Economic Union, Customs union.*

*The article examines the issue of Azerbaijan's membership in the Eurasian Economic Union against the background of Azerbaijani-Russian relations. It is noted that Azerbaijan cannot be represented in one union with Armenia occupying its territory. The article analyzes the coincidence of the views of the people, political parties and political scientists with the position of the state on this issue.*

## АЗЕРБАЙДЖАНО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ И ЕВРАЗИЙСКИЙ ЭКОНОМИЧЕСКИЙ СОЮЗ

**Айпара Сади кызы Рустамова**

**Ключевые слова:** *Азербайджанская Республика, Российская Федерация, Азербайджано - российские связи, Евразийский экономический союз Таможенный союз.*

*В статье рассматривается вопрос членства Азербайджана в Евразийском экономическом союзе на фоне азербайджано-российских отношений. Отмечается, что Азербайджан не может быть представлен в одном союзе с Арменией, оккупирующей его территорию. В статье анализируется совпадение взглядов народа, политических партий и политологов с позицией государства по данному вопросу.*

XX əsrin 90-cı illərində SSRİ dağıldıqdan sonra, müstəqillik arzusunun gücü ilə 70 ilə yaxın eyni siyasi, iqtisadi, mədəni ittifaqda olan 15 respublikanın hər biri bir qütbə çəkildi. Bu qütbləşmə bəzi respublikalara hərc-mərclik, bəzilərinə ərazi itkisi, bəzilərinə siyasi və iqtisadi böhran gətirdi.

Ermənistan SSR-in 1988-ci ildən Azərbaycana qarşı başlayan ərazi iddiası Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan tərəfindən işğalı ilə nəticələndi. Ermənistan SSR ərazisində əsrlərlə yaşayan azərbaycanlılar öz ata-baba torpaqlarından qovuldu, həmçinin, işğal olunmuş Dağlıq Qarabağdan qaçqın düşdülər. Nəticədə bir milyon azərbaycanlı evsiz, vətənsiz qaldı [2 ].

İqtisadi cəhətdən bir-birinə zəncir kimi bağlanan respublikalar tədricən özlərinə gələrək yeni şəraitdə çətinliklər içərisində suveren dövlətlərini qurmağa başladılar. Bu çətinliklər həm iqtisadi, həm də siyasi sahədə özünü göstərdi. Nəhəng zavodların işi dayandı, nəqliyyat fasilələrlə işlədi. Tədricən ölkələrin suverenliyinin digər dövlətlər tərəfindən tanınması beynəlxalq münasibətlərin nizamlanmasına şərait yaratmış oldu.

Özünü SSRİ-nin varisi elan edən Rusiya Federasiyası da öz müstəqilliyini ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafı üzərində yenidən qurmağa başladı. Rusiya Federasiyası, öz növbəsində Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri oldu. 1992-ci il oktyabrın 4-dən Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələr səviyyəsində diplomatik münasibətlər quruldu [26, s.12]. Azərbaycanda Rusiya Federasiyasının, Rusiyada isə Azərbaycan Respublikasının səfirlikləri açıldı. Azərbaycanda Rusiya səfirliyi ilə yanaşı, Rusiya Federasiyasının subyektləri olan Tatarıstan Respublikasının (31 dekabr 1992) və Dağıstan Respublikasının (15 avqust 1996) nümayəndəlikləri də fəaliyyət göstərdi [5].

1992-ci ilin oktyabr ayında "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" bağlanan müqavilə Rusiya Dövlət Duması tərəfindən 1997-ci ilin dekabrında ratifikasiya edildi [19]. 2004-ci ildə Bakı Bəyannaməsi, 2008- ci ildə Moskva Bəyannaməsi qəbul edildi [16].

Bu sənədlərlə yanaşı, tərəflər arasında iqtisadi, ticari, mədəni və s. əlaqələrin qurulması və inkişafına aid çoxsaylı sazişlər bağlandı. Azərbaycan və Rusiya arasında indiyədək 140 sənəd imzalanıb. Qəbul edilmiş hüquqi

sənədlər və normativ aktlar Azərbaycan və Rusiya arasındakı münasibətlərin dövlətlərin müstəqilliyinə və suverenliyinə qarşılıqlı hörmət, ərazi bütövlüyü, mövcud sərhədlərin dəyişdirilməməsi, bir-birinə zor və güc tətbiq etməmək, insan hüquq və azadlıqlarının tanınması və beynəlxalq hüququn digər prinsiplərinə uyğun şəkildə inkişaf etməsinə şərait yaratmışdır.

Yaradılan möhkəm hüquqi baza iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, yanacaq-energetika, elm və təhsil, mədəniyyət, idman və digər sahələrdə əlaqələrin genişləndirilməsinə imkan vermişdir.

Qəbul olunmuş hüquqi sənədlərlə yanaşı, dövlət rəhbərlərinin qarşılıqlı səfərləri zamanı söylədikləri konseptual çıxışlar və bəyanatlar da iki ölkə arasındakı əlaqələrin inkişafına xidmət etmişdir.

Azərbaycan və Rusiya Prezidentlərinin səfərləri hər iki ölkənin münasibətlərinin daha da aydınlaşmasına və inkişafına təkan verdi [3, s.20]. Bundan sonra ölkələrimiz arasında hökumətlərarası, parlamentlərarası əlaqələr də formalaşdı. Qeyd etmək yerinə düşər ki, səfər çərçivəsində (2001) V.V.Putin Bakı Slavyan Universitetində olmuşdur. Universitetin Elmi Şurasının qərarı ilə Rusiya Federasiyasının Prezidenti V.V. Putinə "ölkələrimiz arasında elmi, iqtisadi və humanitar əlaqələrin inkişafı və möhkəmləndirilməsi istiqamətindəki xidmətlərinə, yüksək hazırlıqlı mütəxəssislərin yetişdirilməsi üçün müvafiq şəraitin yaradılmasına, inteqrasiya proseslərinə göstərdiyi qayğıya görə Bakı Slavyan Universitetinin "Fəxri doktoru" adı verilmişdir [3, s.37].

Qədim tarixə malik olan Azərbaycan-Rusiya əlaqələri artan və genişlənən xətlə inkişaf edir. Xalqlarımız bir-birinə qaynayıb qarışmış, qarışıq nigahlar bağlanmışdır. Hazırda Azərbaycanda 120 min rus əhali yaşayır. Azərbaycanda fəaliyyət göstərən 340-dan çox məktəbdə rus dilində təhsil aparılır [27, c.196]. Rusiyanın aparıcı universitetlərinin iki filialı mövcuddur. Rusiyanın bir sıra informasiya agentliklərinin Azərbaycanda müxbir məntəqələri var və rus dilində 50-dən çox qəzet və jurnal nəşr edilir. 2010-cu il siyahıyaalınmasına əsasən Rusiya Federasiyasında 603,070 nəfər etnik azərbaycanlı yaşayır [8]. Bu xalqlar yaşadığı dövlətlərin bərabərhüquqlu vətəndaşı kimi hər iki ölkənin siyasi, iqtisadi, mədəni həyatında yaxından iştirak edir, özlərinin ictimai, dini təşkilatlarını yaradaraq sərbəst fəaliyyət göstərirlər.

Azərbaycanda Rusiya mədəniyyəti günləri, Rusiyada Azərbaycan mədəniyyəti günlərinin mütəmadi keçirilməsi ölkələr arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayır.

Azərbaycan-Rusiya iqtisadi əlaqələri uğurla davam edir. Hər iki ölkə bir-birinin iqtisadiyyatına investisiyalar qoyur. Rusiya və Azərbaycanı qonşu dövlətlər kimi həm dəmir yolları, həm avtomobil yolları, həm də sərnişin və yükdaşımaları üçün hava yolları birləşdirir. Azərbaycan və Rusiya nəqliyyat və tranzit sahəsində əməkdaşlıq edir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat

dəhlizlərinin inkişaf etdirilməsi iki ölkə arasındakı iqtisadi əlaqələrin genişlənməsinə şərait yaradır. Rusiya Azərbaycan iqtisadiyyatına 4 milyard dollar investisiya qoyub [25, c.106]. Azərbaycan Rusiyadan 5 milyard dollar dəyərində hərbi təyinatlı məhsullar almışdır. Azərbaycan bazarında Rusiyanın iştirakı ilə təxminən 700 birgə şirkət fəaliyyət göstərir. Azərbaycan Rusiyanın 83 subyektindən 78-i ilə iqtisadi əlaqələr saxlayır [28, c.123].

Ölkələrimiz arasında çoxtərəfli əlaqələr Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində də genişlənmişdir. İllərlə bir yerdə olan respublikalar Rusiya Federasiyasının təklifi ilə 1991-ci ildə Müstəqil Dövlətlər Birliyini yaratdılar. Ermənistanla müharibə şəraitində olan Azərbaycan uzun müddət Ermənistanın da daxil olduğu MDB-yə üzv olmaqda tərəddüd etdi. Rusiyanın ATƏT-in Minsk qrupunun (1992) həmsədri olması və bu qurumun Ermənistana təsir edə biləcəyi ehtimalı ilə Azərbaycan da MDB-yə üzv oldu (20 sentyabr1993) [22, c.93]. İllər keçdi, həm MDB çərçivəsində, həm də ikitərəfli əməkdaşlıq çərçivəsində Azərbaycanın Rusiya ilə əlaqələri genişləndi. Azərbaycan bölgədə iri neft, qaz, nəqliyyat layihələri həyata keçirməyə başladı.

XXI əsrin qlobal çağırışları fonunda Azərbaycan Respublikasının strateji tərəfdaşı Rusiya Federasiyası Avropa İttifaqına alternativ olaraq Avrasiya İqtisadi İttifaqında (Aİİ) birləşmək layihəsini irəli sürdü. Həmin dövrdə dünyada 85 regional ticari və iqtisadi birliklər və təşkilatlar fəaliyyət göstəririd [29, c.8]. Onu da qeyd etmək lazımdır ki, bu təşkilatlar içərisində həqiqi inteqrsiya modeli olaraq Avropa İttifaqı inkişaf edə bilmişdir. Qərb dövlətləri və siyasətçiləri Aİİ-nin yaranması haqqında ideyanı SSRİ-nin bərpası kimi də qiymətləndirdilər. ABŞ-ın keçmiş dövlət katibi Hillari Klinton Avrasiya ideyasına qarşı belə bəyənatla çıxış etmişdi: "ABŞ İqtisadi inteqrasıya adı altında Sovet İttifaqının yeni versiyasının yaranmasına yol verməməyə çalışacaqdır. Hazırda bölgənin sovetləşməsinə cəhdlər göstərilir. Bu ittifaq Gömrük İttifaqı, Aİİ və ya başqa cür adlana bilər. Bu barədə aldana bilmərik - biz həqiqi məqsədin nə olduğunu bilirik, prosesi ləngitmək və dayandırmaq üçün səmərəli yollar tapmağa çalışırıq" [31].

2010-cu ildən başlayaraq Rusiya, Belarusiya və Qazaxıstanın Avrasiya İqtisadi İttifaqının (Aİİ) yaradılması təşəbbüsü 2014-cü ildə gerçəkləşdi [23, c.35; 30, c.9]. May ayının 29-da 28 bölmədən, 118 maddədən ibarət Müqavilə imzalandı [9].

Aİİ 2015-ci il yanvar ayının 1-dən fəaliyyət göstərməyə başladı [24, c.17].

Sonradan Ermənistanın, Qırğızıstanın da üzv olduğu AİB - İran və Çinlə də ticarət əməkdaşlığı haqqında saziş imzalanmışdır.

Azərbaycanın AİB-yə üzv olması barədə təkliflər və dəvətlər cəmiyyətdə zaman-zaman müzakirə edilmişdir. Avrasiya İiqtisadi İttifaqının təşəbbüsçüsü olan Rusiya Federasiyasının Xarici İşlər Naziri S.Lavrov 2014-cü

ildə Bakıda səfərdə olarkən bildirmişdir ki, "Aİİ tərəfdaşlarımızın üzünə açıqdır. Azərbaycanın, eləcə də hər hansı ölkənin AİI-yə daxil olmasına müsbət yanaşardıq". Rusiyanın İqtisadi İnkişaf Naziri Aleksey Ulyukayevin fikrinə görə, Azərbaycanın istər AİI, istər Gömrük İttifaqında iştirakı məntiqli olardı. Nazir öz fikrini belə bildirmişdir: "Azərbaycan MDB-nin azad ticarət rejimindən faydalanır. Amma daha irəli getmək lazımdır. AİI təkcə malların azad ticarət bazarı deyil, həm də burada xidmətlər, sərmayə, işçi qüvvəsi də nəzərə alınır. Bu biznesin qorunması deməkdir" [6]. Bu cür təkliflər Azərbaycan xalqında həm narahatçılıq, həm də bəzi dairələrdə ümid yaratmışdı.

Ermənistan Respublikasının da AİI-yə qoşulacağı təqdirdə cəmiyyətdə Azərbaycanın Dağlıq Qarabağla bağlı narahatlığı var idi. Bununla əlaqədar fikirlərə münasibət bildirən S.Lavrov qeyd etmişdir ki, "Qarabağ beynəlxalq danışıqların predmetidir. Bu münaqişə beynəlxalq prinsiplər əsasında həll olunmalıdır. Ermənistan isə bəyan edib ki, Ümumdünya Ticarət Təşkilatına beynəlxalq səviyyədə qəbul olunmuş sərhədlər çərçivəsində üzv olub" [10]. Belarusiya Respublikası Xarici İşlər Nazirinin birinci müavini Aleksandr Mixneviç Ermənistanın AİI-yə qoşulmasına dair müqavilənin ratifikasiyası haqqında qanun layihəsini parlamentdə təqdim edərkən bildirmişdir: "Dağlıq Qarabağın Ermənistan ərazisi olmaması barədə nota sazişə əlavə olunub…"Ermənistanın AİI-yə qoşulmasından sonra, Dağlıq Qarabağ bu ittifaqın bir hissəsi olmayacaq" [11].

AİI yaranandan Azərbaycan cəmiyyətində həm dövlət, həm də ictimaiyyət səviyyəsində bu təşkilata üzv olub-olmama və bu üzvlüyün Azərbaycana nə verə biləcəyi məsələləri müzakirə olunmağa başladı. Qeyd etmək lazımdır ki, Azərbaycanın AİI-yə üzv ölkələrinin hamısı ilə ikitərəfli yaxşı münasibətləri vardır. Azərbaycan Respublikası Prezidentinin qeyd etdiyi kimi, AİI-nın təşəbbüskarı "Rusiya bizim üçün münasibətlərimizin ən yüksək səviyyədə olduğu çox mühüm və dəyərli tərəfdaş, dost və qonşudur" [4, s.206].

Lakin problem ondadır ki, bu ittifaqın üzvlərindən biri olan Ermənistan Azərbaycanla müharibə vəziyyətindədir. Belə bir vəziyyət bu ölkələr arasında bütün iqtisadi əlaqələrin ləğvinə gətirib çıxarmışdır. Azərbaycanın da bu ittifaqa üzv olması Ermənistanın bölgədəki layihələrdən uzun illər təcrid olunmasının aradan qalxması üçün ideal variant ola bilərdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Rusiya bu gün» Beynəlxalq İnformasiya Agentliyinin direktoru Dmitri Kiselyovla müsahibəsi zamanı "Azərbaycan AİI-yə üzv olmağı planlaşdırırmı?" sualına - "İnteqrasiya yolu ilə getmək üçün əlbəttə, əsaslandırma — motivasiya lazımdır. O iqtisadi, sosial, siyasi və hər hansı digəri ola bilər"- cavabını vermişdir [7].

Azərbaycanın AİI-yə qoşulmasına ölkə ictimaiyyətinin münasibəti Prezidentin fikirləri ilə üst-üstə düşür. Cəmiyyətin müxtəlif təbəqələrinin də rəyinə görə Azərbaycanın AİI-yə qoşulması Dağlıq Qarabağ münaqişəsinin

həlli istiqamətində atılacaq addımlardan asılıdır. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının xarici əlaqələr şöbəsinin rəhbəri Hikmət Hacıyev Azərbaycanın mövqeyinin birmənalı olduğunu bildirib: "Azərbaycanın ərazi bütövlüyü heç bir halda danışıqlar mövzusu ola bilməz" [17].

Qarabağ Azadlıq Təşkilatının sədri A.Nağının fikrinə görə isə "Azərbaycan Qarabağla Aİİ-yə qoşulmağa razılaşa bilər. Çünki, BMT-yə üzvlük də Qarabağla birlikdə olub" [15].

2015-ci ilin may ayında Azərbaycan və Rusiya xarici işlər nazirlərinin Moskva görüşündən sonra Sergey Lavrov bəyan etmişdi ki, Qarabağ problemi bundan sonra Rusiyanın xarici siyasətinin prioritetini təşkil edəcək və Rusiya bu məsələ ilə bundan sonra daha intensiv formada məşğul olacaq. Moskva tərəfindən Azərbaycan tərəfinə belə ümidverici bəyanatlar səsləndirilməsindən sonra Azərbaycanın Aİİ-yə və Gömrük İttifaqına qoşulması ilə bağlı təkliflərə mövqeyini açıqlayan politoloq Q.Hüseyinliyə görə üzvlük belə bir şəraitdə mümkündür: "Qarabağ problemi beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilir və bundan sonra Azərbayacan Aİİ və Gömrük İttifaqı ilə bağlı məsələyə müsbət reaksiya verir" [19]. Azərbaycan və Rusiya xarici işlər nazirlərinin Moskva görüşündən sonra yaranmış vəziyyəti təhlil edərək demək olar ki, Qarabağ münaqişəsinin həllində ciddi dönüş ola bilər [7].

AXCP sədrinin müavini Razi Nurullayev 2013-cü il Azərbaycanda prezident seşkiləri ərəfəsində Putinin Bakıya gəlməsini Azərbaycanın Aİİ-yə qoşulması barədə ilkin razılığın əldə olunması ilə əlaqələndirərək, narahatlığını ifadə etmişdir [1]. Razi Nurullayevin narahatçılığına səbəb Rusiya Rederasiyasının Prezidenti V.Putinin Gümrüdə keçirilən Ermənistan-Rusiya regionlararası forumunda bildirdiyi fikir olmuşdur [12]. V.Putin bildirir: "Zaqafqaziyaya gəldikdə, biz buradan getməyə heç vaxt hazırlaşmamışıq. Əksinə, biz Zaqafqaziyada öz mövqelərimizi möhkəmləndirməyə hazırlaşırıq" [13]. Politoloq Rasim Musabəyov qeyd edir ki, rəsmi olmasa da Rusiya politoloqlarının fikrinə görə yeddi rayonun əvəzində Azərbaycan Avrasiya İttifaqına üzv ola bilər. Lakin bu, "Rusiyadan şirnikləndirici təklif ola bilər". Belə bir şərt də Rusiya rəsmi dairələrindən irəli sürülərsə və şərtlərin detalları açıqlanarsa, müzakirələr aparılıb, birmənalı fikir söyləmək olardı [17].

Rusiyalı ekspert, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru Serqey Markovun Azərbaycan Aİİ-yə üzv olduğu təqdirdə "bu ilin axırına qədər 5 rayon tamamilə Azərbaycana qaytarılacaq və azərbaycanlı ailələr öz evlərinə qayıdacaq" fikrinə münasibət bildirən politoloq Zərdüşt Əlizadəyə görə, 5 rayonun qaytarılması Azərbaycan üçün müsbət məsələdir: "Bu istiqamətdə proseslərin inkişafı münaqişənin mərhələli həllinin əlamətidir. ...Müsbət cəhətlərdən biri də o ola bilər ki, Azərbaycan Ermənistan və Dağlıq Qarabağla iqtisadi münasibətləri bərpa edə bilər. Münaqişənin dayanması və

Azərbaycanın onlarla iqtisadi münasibətlərə start verməsi onlar üçün də çox müsbətdir. Amma mənfi cəhət odur ki, Rusiya sülhməramlıları azad edilmiş ərazilərdə yerləşə bilər. Digər tərəfdən Azərbaycandan tələb edə bilərlər ki, Dağlıq Qarabağın olmayan statusunu da tanısın”. Politoloq bunun yolyerilməz olduğunu bildirmişdir [14].

Rusiya politoloqlarının zaman-zaman Ermənistanın işğal etdiyi 7 rayonun qaytarılması fikrinə münasibət bildirən politoloq Ərəstun Oruclu qeyd edir ki, “Rusiya 7 rayonu qaytarmağın əvəzində Dağlıq Qarabağla təmas xəttimizə “sülhməramlı” yerləşdirmək istəyir. Bu da Rusiya qoşunlarının Azərbaycan ərazisinə yeridilməsi deməkdir. Onlar bununla da vəziyyəti daha yaxından “idarə etmək” istəyir. Bir sözlə, rus ordusu Qarabağa gələrsə, onları çıxarmaq da çətin olacaq” [18].

UNESKO-nun dosenti, AMEA Hüquq və İnsan haqları İnstitutunun əməkdaşı, Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov isə hesab edir ki, AİI-yə üzv olan ölkələr üçün Azərbaycan bölgədə öz mövqeyi olan perspektiv tərəfdaşdır. AİI-nın nəzəriyyədən əməli işə keçməsi üçün “İpək yolu”nun keçdiyi bölgələrdə konfliktlərin həllinə çalışmaq lazımdır. İki Qafqaz ölkəsi olan Ermənistan və Azərbaycan arasındakı Qarabağ münaqişəsi Rusiyanın təşəbbüsü ilə dəniz daşımalarından asılılığını azalmaq istəyən Azərbaycan, İran, Türkiyə, Çin, digər mərkəzi Asiya ölkələrinin də daxil olduğu qlobal layihələrin reallaşması üçün ciddi maneədir [20, c. 53].

Qeyd etmək lazımdır ki, Avrasiya İnkişaf Bankı İnteqrasiya Tədqiqatları Mərkəzinin “Avrasiya İnkişaf Bankının İnteqrasiya barometri” layihəsi üzrə MDB ölkələri arasında aparılan sorğu nəticəsisində də GUAM ölkələrinin, xüsusilə də Azərbaycanın AİI-yə üzvlüyə münasibəti bütün parametrlərə görə mənfi olmuşdur [21 c.22].

Beləliklə, Azərbaycanda AII-yə inteqrasiya ilə bağlı gedən müzakirələr nəticəsində aydın olmuşdur ki, xalqın, siyasi partiyaların, ziyalıların fikri dövlətin mövqeyi ilə üst-üstə düşür. Azərbaycan xalqının yekdil fikri budur ki, Qarabağ münaqişəsinin həlli yolunda əməli addımlar atılacağı təqdirdə Azərbaycanın siyasi olmayan AİI-yə daxil olma məsələsinə baxıla bilər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının AİI-yə daxil olan ölkələrlə (Ermənistan xaric) sıx iqtisadi, siyasi, mədəni və elmi-texniki əlaqələri mövcuddur. Rusiya Federasiyası ilə əlaqələr isə strateji tərəfdaşlıq səviyyyəsindədir.

## Ədəbiyyat

1. Azərbaycan Avrasiya İttifaqına qoşulacaqmı? http://deyerler.org/170480-azjrbaycan-avrasiya-dttifaqdna-qoeulacaqmde.html14 avqust 2013
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qaçqınların və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş ümumrespublika

müşavirəsində nitqi - Respublika sarayı, 27 iyun 1998-ci il https://lib.aliyev-heritage.org/print.php?lang=az&page=8296056

3. Əliyev H. Müstəqilliyimiz əbədidir.K.32, yanvar, 2001 - mart, 2001. Bakı: Azərnəşr, 2010, 512 səh. s.20.
4. Əliyev İ.H. Rusiya Federasiyasinin Prezidenti Vladimir Putin ilə təkbətək görüş / İnkişaf – məqsədimizdir. Çıxışlar, nitqlər,bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. Bakı: Azərnəşr, 2019, 392 səh. s.206.
5. https://azerbaijan.mid.ru/web/azerbaijan-az/subjects
6. http://az.strategiya.az/news.php?id=10077 02.06.2014
7. https://az.sputniknews.ru/azerbaijan/20161018/407394850/prezident-aliev-karabah-kompromiss-vozmozhen.html
8. https://sputnik.az/politics/20150527/400149554.html
9. http://www.demoscope.ru/weekly/2011/0491/perep01.php
10. https://online.zakon.kz/document/?doc_id=31565247
11. http://deyerler.org/210561-sergey-lavrov-vazjrbaycandn-avrasiya-dttifaqdna-djvjt-edilmjsi-ilj-badld-heg-bir-formal-vj-ya-rjsmi-tjklif-olmaydbv.html
12. http://deyerler.org/234166-ermjnistandn-add-yj-qoeulmasdndan-sonra-dadldq-qarabad-bu-quruma-daxil-olmayacaq.html
13. http://deyerler.org/181692-vladimir-putin-vrusiya-cjnubi-qafqazda-gz-mgvqeljrini-mghkjmljndirmjk-niyyjtindjdirv.html
14. http://deyerler.org/309147-zjrdget-zhlizadj-v5-rayonun-qaytardlmasd-mgqabilindj-azjrbaycandan-ciddi-ggzjetljr-tjljb-edilj-biljrv.html 14 aprel 2016
15. http://deyerler.org/226058-akif-nadddan-avrasiya-dttifaqd-agdqlamasd.html
16. http://www.e-qanun.az/framework/2590
17. http://www.eqanun.az/framework/15611
18. http://www.teleqraf.az/index.php/aktual/3615-%E2%80%9C7-rayonun-qaytar%C4%B1lmas%C4%B1%E2%80%9D-bizim-xeyrimiz%C9%99-deyil
19. https://sputnik.az/politics/20150527/400149554.html
20. Азербайджан заключил выгодный договор с Россией. Газ., "Коммерсантъ" 14 октября 1992 г.
21. Гусейнов Р. «Евразийские транзитные проекты, как фактор решения армяно-азербайджанского нагорно карабахского конфликта”// «Право и Политология», май 2017, № 35, стр. 52-56.s.53.
22. Задорин И.В, Мальцева Д.В. , Шубина Л.В. .Отношение населения стран СНГ к основным аспектам Единого экономического пространства // ЭЭИ, № 1 (26) февраль 2015, с.5-25. с.22.

23. Калиш Я. В. Евразийская интеграция: идейные основания, политический опыт, вызовы и перспективы: дисс. на соиск. уч. ст. к. полит. наук. /Федеральное Государственное Автономное Образовательное Учреждение Высшего Образования «Российский Университет Дружбы Народов».Москва, 2018, 208 с. с.93.
24. Кембаев Ж.М. Региональная интеграция в Евразии: основные признаки, проблемы и перспективы // Российский юридический журнал. 2016. № 1. С. 32-45.с.35.
25. Курылев К. П., Станис Д.В. Процесс Развития Евразийской Интеграции: История, Современные Проблемы и Перспективы // Современная Наука, 2015 №4, с.13-18, стр.17.
26. Нуриев Э.Э. Российско-азербайджанские отношения в современных геополитических реалиях // «Проблемы национальной стратегии». М., 2011. № 1. с. 106.
27. Российско-Азербайджанские отношения за 20 лет. История и перспективы. Баку: SAM, 2011, 122 с. стр.12.
28. Рустамова А. Деятельность общественных организаций российских общин в Азербайджанской Республике. Государство и право народов Кавказа: становление, развитие, современное состояние /Материалы Международной научнопрактической конференции. Махачкала, 14–15 декабря 2018 г. Сборник научных статей. – Махачкала, 2019, - 248 с. с.196.
29. Рустамова А.С. Законодательные акты, регулирующие азербайджано-российские (дагестанские) отношения / Материалы Международной научно-практической конференции «Правовая культура народов Кавказа: становление, трансформация и перспективы». Махачкала, 26-27 ноября 2020 г. Сборник научных статей. Махачкала: ИП Джамалудинов Типография А-4, 2020, 154 с.120-127. с.123.
30. Шумаев В.А., Галушкин А.А. и др. Современные проблемы региональной экономической интеграции (на примере Европейского союза и Евразийского экономического союза. -Москва: ЮСТИЦИЯ, 2016. -268 с.
31. Чарльз Кловер. “Клинтон обещает не допустить возникновения нового Советского Союза” https://inosmi.ru/politic/20121208/203094353.html 08.12.2012

# CÜMHURİYYƏT ORDUSUNDA MİLLİ KADR SİYASƏTİ

***Atamalı Xudam oğlu ŞAHBAZOV***
*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası*
*atamsh72@yahoo.com*

**Açar sözlər**: *Cümhuriyyət ordusu, milli kadrlar, hərbi məktəblər, Ümumi Qərargah, milli kadrların hazırlanması və yerləşdirilməsi*

Məqalədə Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğu, milli kadrların hazırlanması prinsipləri, onlara qarşı xidməti tələblərin müəyyənləşdirilməsi, qoşun hissələrində kadrların seçim dinamikası, milli kadrların peşə səviyyəsinin təkmilləşdirilməsi siyasəti zəngin arxiv materialları əsasında araşdırılmışdır.

## НАЦИОНАЛЬНАЯ КАДРОВАЯ РОЛИТИКА В АРМИИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

**Атамалы ШАХБАЗОВ**

**Ключевые слова**: *Республиканская Армия, национальные кадры, военные школы, Главный Штаб, подготовка национальных кадров*

На основе архивных материалов в статье исследованы принципы строительство Азербайджанской Армии, подготовки, расстановки и обучения национальных кадров, определение основных требований к ним при прохождении воинской повинности, показано динамика подбора и политика совершенствования профессионального уровня национальных кадров в воинских частях.

## NATIONAL PERSONNEL POLICY IN THE ARMY OF THE DEMOCRATIC REPUBLIC OF AZERBAIJAN

**Atamali SHAHBAZOV**

**Keywords**: Republic‘s Army, national military personnel, military schools, General Headquarter, training, placement of national personnel.

Based on archival materials, the article analyses the principles of formation of the Azerbaijan Army, preparedness, placement and training of national military personnel, determining the main requirments for them during military service, depicts the dynamics of selection and policy of improving the professional level of national personnel in the military units.

**Giriş.** Müsəlman Şərqində ilk parlamentli Respublika kimi 23 ay mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanın dövlətçilik tarixində şərəfli bir mərhələni təşkil edir. Cümhuriyyət qurucularının misilsiz xidmətləri sayəsində ölkədə son dərəcə böyük əhəmiyyətə malik işlər görülmüş və böyük uğurlar əldə edilmişdi. Bu uğurlardan biri də qısa müddət ərzində döyüşkən ordunun yaradılması idi. Belə bir ordunun yaradılması yalnız müstəqil dövlət quruculuğu baxımından deyil, həm də konkret tarixi şəraitdə Azərbaycanın ərazi bütövlüyünə və mövcudluğuna qarşı istiqamətlənmiş real təhlükənin qarşısının alınması baxımından böyük əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə qarşıda duran vəzifələrin səmərəli həllinə nail olmaq üçün Azərbaycan hökuməti tərəfindən müvafiq siyasət hazırlanmış, dövlətin və xalqın bütün potensialı bu vəzifələrin icrasına səfərbər edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaradılması ümumdövlət vəzifəsinə çevrilmiş və bu prosesin milli dəyərlər üzərində aparılması ordunun qısa müddət ərzində formalaşmasının əsas səbəblərindən biri olmuşdu.

**Cümhuriyyət Hərbi Nazirliyinin milli kadr siyasəti.** Müstəqilliyin ilk aylarında ordu quruculuğu Cümhuriyyət hökumətinin rəsmi dəvəti əsasında Azərbaycana gəlmiş Osmanlı Türkiyəsinin hərbi qüvvələri ilə milli hərbi qüvvələrin bazasında yaradılmış Qafqaz İslam Ordusunun tərkibində aparılsa da, Mudros sülh müqaviləsinin şərtlərinə əsasən Osmanlı hərbi qüvvələri Azərbaycanı tərk etmək məcburiyyəti qarşısında qalanda, hökumətin qərarı ilə Cümhuriyyətin Hərbi Nazirliyi bərpa edildi və Cümhuriyyət hökuməti ordu ilə bağlı bütün məsuliyyəti öz üzərinə götürdü [1]. Hökumətin o dövr üçün uzaqgörənliyini və ordu quruculuğuna xüsusi diqqətinin təsdiqini Hərbi nazirliyin təşkilatlandırılmasının çar Rusiyası ordusunda tam artilleriya generalı hərbi rütbəsinə qədər yüksəlmiş təcrübəli hərbçi Səməd bəy Mehmandarova həvalə edilməsində görmək mümkündür. Cümhuriyyət ordusu ilə bağlı aparılan çoxsaylı araşdırmaların nəticəsi kimi tam əminliklə demək mümkündür ki, məhz general Səməd bəy Mehmandarovun əvvəlcə Hərbi nazirin müavini, 25 dekabr 1918-ci il tarixdən isə hökumətin qərarı ilə Hərbi nazir təyin edilməsi Cümhuriyyət ordu quruculuğunun səmərəli və peşəkar səviyyədə aparılmasında və bu prosesin düzgün istiqamətləndirilməsində tarixi əhəmiyyət kəsb etdi [2]. Çünki, Səməd bəy Mehmandarov çox zəngin hərbi təcrübəyə malik olmaqla yanaşı, həm də vətəninə və xalqına sadiq peşəkar hərbçi idi. Ordunun qısa müddət ərzində formalaşdırılması üçün onun tərəfindən görülməsi və həyata

keçirilməsi vacib olan işlərin yol xəritəsi müəyyən edildi. Cümhuriyyət ordusuna savadlı və peşəkar hərbçilər dəvət edildi. Ordunun lazımi hərbi təcrübübəyə malik zabit və hərbi məmurlarla komplektləşdirilməsinə və milli kadrların hazırlanmasına diqqət artırıldı. Səməd bəy Mehmandarov özü və hərbi nazirliyin zabitləri, hərbi məmurları davamlı surətdə xidməti ezamiyyətlərə gedir, ordunun problemləri ilə yerindəcə tanış olur və xidmətin daha da təkmilləşdirilməsi üçün hökumət qarşısında vəsatətlər qaldırırdılar.

Məlumdur ki, Cümhuriyyət ordusu mürəkkəb bir tarixi şəraitdə yaradılırdı. Ordunun formalaşdırılması üçün bir sıra obyektiv çətinliklər kimi yetərli sayda milli kadrların olmaması idi. Bunu nəzərə alaraq, general Səməd bəy Mehmandarov ilk vaxtlar xeyli sayda qeyri-azərbaycanlı zabitləri orduya qəbul edərək, məsul vəzifələrə təyin etdi. Lakin sonradan milli zabit kadrları yetişdikcə və təcrübə topladıqca onların məsul vəzifələrə təyinatına üstünlük verdi. General Səməd bəy Mehmandarov Cümhuriyyət ordusunda xidmət edən zabit və hərbi məmur heyətinə qarşı çox yüksək tələbkarlıq nümayiş etdirirdi. O, hələ orduda zabit və hərbi məmurların kəskin çatışmadığı zamanlarda belə, intizamsızlıq etmiş və dövlət malını mənimsəmiş zabit və hərbi məmurlarlara qarşı qətiyyətli mövqe tutur, onları tutduqları məsul vəzifələrin, önəmindən aslı olmayaraq, Cümhuriyyət ordusundan uzaqlaşdırırdı. Xidmətdə olarkən spirtli içkilərin qəbulu qadağan edilirdi. Belə hallara yol vermiş zabit və hərbi məmurlar isə hərbi xidmətə və dövlət müəssisələrində işə qəbul hüququnu itirməklə, Cümhuriyyət ordusundan dərhal tərxis edilirdi [3].

Zabit rütbəsində olan hərbi qulluqçular və hərbi məmurlar arasında nizam-intizamın möhkəmləndirilməsi və baş vermiş neqativ hallara hüquqi qiymət verilməsi məqsədi ilə isə Hərbi nazir 20 yanvar 1919-cu il tarixli 29 nömrəli və 10 fevral 1919-cu il tarixli 68 nömrəli əmrləri ilə bütün hərbi hissələrdə "Alay məhkəmələri" və "Zabit şərəf məhkəmələri"nin yaradılması barədə göstəriş verdi [4]. Həmin məhkəmələrin tərkibinə yüksək mənəvi keyfiyyətlərə malik vətənpərvər və vicdanlı zabitlərin seçilməsi təmin edildi. Bu qəbildən olan məqsədyönlü işlər milli, vətənpərvər və peşəkar zabit kadrların hazırlanması və onların milli ruhda tərbiyə edilməsinə təkan verdi. Bunun nəticəsi idi ki, Cümhuriyyətin süqutu ərəfəsində komanda vəzifələrinin böyük əksəriyyətinə artıq azərbaycanlılar və ya müsəlman dinindən olan zabitlər tuturdular.

Cümhuriyyət Hərbi Nazirliyinin rəhbərliyi dövlətin müstəqilliyinə sədaqətli olan kadrların sağlam ruhda formalaşması, onların vasitəsi ilə xalqın mübariz milli keyfiyyətlərinin ordunun şəxsi heyətinə aşılanması üçün də müvafiq tədbirlər həyata keçirirdi. Azərbaycan dilinin ordunun dövlət dilinə çevrilməsi, qəhrəmanlıq tarixin öyrənilib təbliğ edilməsi, ordu ilə xalq arasındakı əlaqələrin gücləndirilməsi və milli dəyərlərin ordu daxilində təbliğatı

belə tədbirlərdən idi. Mövcud olan və yeni yaradılan hərbi hissələrə Azərbaycanın tarixi ərazilərinin adları verilirdi [5].

Orduda komandaların Azərbaycan dilində verilməsi tələb kimi irəli sürülürdü [6]. Dili öyrənə bilməyən komanda vəzifələrindəki (yəni əsgərlərlə birbaşa işləyən) zabitlər isə ordudan dərhal kənarlaşdırılırdı. Məsələn, Cümhuriyyət ordusunda xidmət etdiyi 5 (beş) ay ərzində Azərbaycan dilini öyrənə bilmədiyinə görə Hərbi nazirin 258 nömrəli 21 may 1919-cu il tarixli əmri ilə Cümhuriyyət ordusu sıralarından 10 (on) qeyri-azərbaycanlı zabit tərxis edilmişdi [7, s. 480-481].

Bundan əlavə, zabitlərdə milli-mənəvi keyfiyyətlərin formalaşdırılmasında dini dəyərlərə ehtiramla yanaşmasına da xüsusi diqqət yetirilirdi. Bu zaman məsələyə prinsipial münasibət nümayiş etdirilir, dini dəyərlərin təbliğində Vətənə sədaqət hislərinin aşılanmasına xüsusi yer verilirdi. Hərbi Nazirliyin rəhbərliyi milli ordu daxilində digər dinlərə qarşı da tolerant yanaşırdı. Məhz buna görə idi ki, həm xristian dininə mənsub zabit və hərbi məmurlara öz dini mərasimlərinin icrası üçün şərait yaradılır, həm də xristian bayramlarında bu dinə mənsub hərbi qulluqçulara istirahət verilirdi [8].

Hərbi nazirin 6 yanvar 1919-cu il tarixli 9 №-li əmrinə əsasən hərbi xidmətə qəbul edilən hər bir zabitin və əsgərin Azərbaycan dövlətinə sədaqət andı içməsi şərt kimi irəli sürülmüşdü [7, s.88]. Zabit və hərbi məmurların aylıq məvacibləri ödənilməklə ildə bir dəfə 30 (otuz) gün və ya iki ildə bir dəfə 60 (altmış) gün müddətinə məzuniyyətə buraxılma qaydaları da Hərbi nazirin 01 yanvar 1919-cu il tarixli 3 №-li əmri ilə müəyyən edilmişdi [7, s.80]. Zabit və hərbi məmurların asudə vaxtlarının səmərəli təşkil olunması, məişət şəraitinin yaxşılaşdırılması, onların ucuz və keyfiyyətli qidalanmaları üçün qarnizonlarda zabit klublarının təşkili üçün Hərbi Nazirliyin büdcəsindən maliyyə ayrılmışdı. Bu klublar hətta qarnizonlardan kənarda yerləşən əlahiddə alaylarda da təşkil edilmişdi [9].

Hərbi qulluqçulara ərzaq normalarında da köklü dəyişiklik edilmişdi. Belə ki, zabit və hərbi məmurlar da daxil olmaqla bütün şəxsi heyətin qida rasionu tez bir zamanda milliləşdirilmişdi. Hərbi nazirin 11 dekabr 1918-ci il tarixli 7 nömrəli əmri ilə şəxsi heyətə milli mətbəxə aid plov, dolma, bozbaş, sup və piti kimi yeməklərin verilməsi ordunun qida menyusuna daxil edilmişdi [7, s.30]. Yeməklərin yalnız kərə yağı ilə bişirilməsi tələb kimi irəli sürülürdü [10]. Eyni zamanda, Hərbi nazirlik zabitlər üçün geyim formaları qaydaları və tələbləri də hazırlamışdı. Yeni qaydaları uyğun olaraq çar ordusundakı baş geyim forması olan furajkalar Cümhuriyyət ordusunda qadağan edilirdi və bütün mövsüm üçün zabitlərə papaq gəzdirməsi tələb edilirdi. Yeni baş geyim formasına keçid üçün zabit heyətinə bir ay vaxt verilirdi. Papaqların rəngləri artilleriya, süvari, mühəndis qoşunlarında və qərargahlarda qara rəngdə müəyyən edilirdi. Süvari bölmələrində papaqların üst hissəsi 1-ci alay üçün ağ,

2-ci alay üçün göy, 3-cü alay üçün qırmızı və 4-cü alay üçün isə narıncı rəngdə müəyyən edilmişdi. Piyada bölmələri üçün isə rəng sarı-qəhvəyi idi. Baş geyim forması bütün general, zabit və əsgər heyəti üçün eyni formada olmalı idi [17, s.67].

Arxiv sənədlərin təhlili zamanı aydın olur ki, Cümhuriyyət ordusunda hərbi xidmətdə olanlar iki kateqoriyaya ayrılmışdılar. Həqiqi hərbi xidmətdə olan zabitlər və xidmətə qəbul edilmiş hərbi məmurlar (həkimlər, baytarlar, molla və imamlar, inzibati və təsərrüfat işçiləri). Hərbi məmurlar zabitlər kimi ərzaq payı və bütün növ təminatlar alırdılar. Zabitlərin xidmətinə tətbiq edilən tələblər və qaydalar onlara da şamil edilmişdi.

Ordu tərkibində kadr məsələləri ilə isə Ümumi Qərargah məşğul olurdu. Zabit və hərbi məmur heyətinin seçimi, təyini, yerdəyişməsi və tərxis əmrləri bu idarə vasitəsi ilə həyata keçirilirdi. Cümhuriyyət Hərbi Nazirliyində əmrlər qoşun növü və xidmətlər üzrə ayrı-ayrılıqda verilirdi. Müasir Azərbaycan Ordusundan fərqli olaraq, Cümhuriyyət Hərbi Nazirliyində zabit və hərbi məmurların təyinatı, yerdəyişməsi və tərxis edilməsi ilə bağlı ayrıca şəxsi heyət üzrə əmrlər verilməmiş, onlar ümumi əmrlərdə, xüsusi paraqraflarda öz əksini tapmışdı. Həmin əmrlər "Ümumi qərargah", "Baş qərargah idarəsi", "Hərbi Nazirliyin dəftərxanası", "İntendant idarəsi", "Artilleriya idarəsi", "Mühəndis idarəsi", "General-kvartirmeyster idarəsi", "Yerli briqada hissəsi", "Hərbi-məhkəmə hissəsi", "Hərbi-sanitar hissəsi" və "Hərbi-baytar hissəsi" üzrə ayrılmışdı [11]. Əmrlər aidiyyəti üzrə həmin idarələrdə tərtib edilmiş və Hərbi nazirə təsdiq üçün Ümumi Qərargaha və ya Növbətçi generala təqdim edilmişdi. Bütün əmrlərin qeydiyyatı mərkəzləşdirilmiş şəkildə Hərbi Nazirliyin dəftərxanasında aparılmışdı [12].

Ordu quruculuğu prosesinin aparıldığı bir vaxtda ordunun qanunvericilik bazası, zabit və hərbi məmurların hüquq və səlahiyyətləri də işlənib hazırlanmışdı. Orduda zabit və hərbi məmur heyətinə qarşı xidməti tələblər müəyyənləşdirilmiş və onların xidmətdə irəliləmələri və yeni hərbi rütbələrə irəli çəkilmələri üçün qaydalar da təsbit edilmişdi. Cümhuriyyət ordusunun qanunvericilik bazası hazırlananadək Çar ordusunda istifadə edilmiş 1869-cu il tarixli "Hərbi Xidmət haqqında Toplu ("СВП" rus dilində)" əsas götürülmüşdü [7, s.90]. Həmin Qanunvericilik Toplusu 1889-cu ilədək 20 il ərzində hərbi xidmətlə bağlı bütün qanunvericiliyi özündə əks etdirən 14 kitabdan ibarət olmuşdu və bu kitablar altı hissə altında birləşdirilmişdi. Bu hissələr belə idi: I hissə - Hərbi idarəçilik (Hərbi Nazirlik, Hərbi dairələr, Yerli qəza hərbi idarələri, Qoşunların hərbi dövrdə səhra idarəçiliyi), II hissə - Nizami qoşunlar (Qoşunları tərkibi və idarəçiliyi, Kompleklәşdirilmə, Hərbi Nazirlikdə həqiqi hərbi xidmət, Təltif, təqaüd və şəxsi heyətə aid digər ödəmələr), III hissə - Qeyri-nizami qoşunlar (Kazak qoşunlarının tərkibi və idarəçiliyi, Kazak qoşunlarında həqiqi hərbi xidmət, Onların hüquq və

vəzifələri, Qoşun təsərrüfatı), IV hissə - Hərbi müəssisələr (İntendant, Artilleriya, Mühəndis, Hərbi-təhsil, Hərbi-islah), V hissə - Hərbi təsərrüfat (Hərbi Nazirlik üçük tədarük, Qoşunların təminatı, Qoşunlarda daxili təsərrüfat, Hərbi Nazirlik üzrə hesabatlar və xəzinə üzrə hesabatlar), VI hissə - Hərbi cinayət, İntizam və Hərbi məhkəmə Nizamnamələri [13].

Hərbi nazirin və Ordunun Baş Qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviçin 23 oktyabr 1919-cu il tarixdə imzaladığı 491 nömrəli əmrlə Hərbi Nazirliyin istinad etdiyi 1869-cu il tarixli yuxarıda qeyd edilən Toplunun təkmilləşdirilməsi və Azərbaycan reallığına uyğunlaşdırılması üçün komissiya yaradılmışdı. Həmin komissiyanın sədri general-leytenant Məmməd bəy Sulkeviç, üzvləri isə Ümumi Qərargah, Artilleriya, Mühəndis, İntendant idarələrinin və eləcədə Hərbi-sanitar, Hərbi-baytarlıq və Hərbi-məhkəmə hissələrinin nümayəndələri idi. Həmin əmrdə qeyd edilirdi ki, "komissiya işinə dərhal başlamalı və 01 yanvar 1920-ci il tarixədək həmin qanunvericilik Toplusunun mühüm hissələrini Azərbaycan reallığına uğyunlaşdırmalıdı" [14, s.361-362]. Lakin Qarabağda erməni-daşnak qüvvələrinin xain hücumları nəticəsində başlanan hərbi əməliyyatlar və bolşevik Rusiyasının Azərbaycanı işğal etməsi bu işi tamamlamağa imkan vermədi.

Cümhuriyyət Hərbi nazirinin əmrlərindən, habelə zabit heyətinin təltif və attestasiya sənədlərindən orduda zabit kadrlarının və hərbi məmurların xidmətə qəbulu, təyinatı, yerdəyişməsi, tərxisi və növbəti rütbələr verilməsinin hansı qaydada həyata keçirildiyini tam aydın etmək mümkün olmuşdu. Belə ki, Hərbi Nazirliyin Ümumi Qərargahı qoşunlarda vakant vəzifələrə görə zabitlərin ilkin seçim prosesini təşkil edir və onların müvafiq vəzifələr təyin olunması üçün Hərbi nazir qarşısında təkliflər verirdi. Öncə, meyarlara uyğun olan namizədlər Hərbi nazirin əmri ilə briqada, alay komandiri və onların müavini vəzifələrinin icrasına buraxılır və həmin zabitlər özlərini doğrultduqları halda həmin vəzifələrə təsdiq olunurdurlar. Digər kateqoriyadan olan zabitlər isə hərbi hissələrdə müvafiq vəzifələrə təyin olunmaları üçün diviziya və ya əlahiddə hərbi hissə komandirlərinin sərəncamına göndərilirdilər. Bəzi hallarda isə kiçik zabit heyətinin birbaşa Hərbi nazirin əmri ilə hərbi hissələrdə müvafiq vəzifələrə təyin olunduğunu da görmək mümkündür. Bu kateqoriyadan olan zabit heyətinin təyini zamanı onların əvvəlki xidmətləri və təcrübələri nəzərə alınırdı. Diviziya komandirləri və tabeliyində hərbi hissələr olan idarə rəisləri kiçik komandir vəzifələrində olan zabitlərin hərbi hissə daxilində vəzifələr üzrə yerdəyişmələrini aparma səlahiyyətinə malik olmuşdurlar.

Hərbi məmurların xidmətə qəbulu isə diviziya komandirləri və idarə rəislərinin əmrləri ilə həyata keçirilir və həmin komandirlərin vəsatəti əsasında Hərbi nazirin əmrlərinə daxil edilirdi. Məhz bu səbəbdən, Hərbi nazirin hərbi məmurların xidmətə qəbul və ya xidmət yerlərinin dəyişdirilməsi əmrlərində vəzifələrin icrasına başlama tarixləri əmrlərin imzalama tarixlərindən fərqlidir.

Yəni onların vəzifələrə təyin olunma tarixləri hərbi hissə komandirlərinin bu barədə imzaladıqları əmrin tarixindən götürülürdü.

Xidmətə qəbul üçün birbaşa Hərbi Nazirliyin Ümumi Qərargahına müraciət edən hərbi məmurlar isə Hərbi nazirin əmri ilə bir qayda olaraq qoşunlarda vakant olan vəzifələr təyin edilir və ya müvafiq vəzifələrə təyin edilməsi üçün hərbi hissə komandirlərini sərəncamına göndərilirdi. Diviziya komandirləri və ya tabeliyində hərbi hissələr olan idarə rəisləri hərbi məmur ştat kateqoriyalı vəzifələr üzrə hərbi hissə daxili vəzifələr üzrə yerdəyişmə aparma səlahiyyətlərinə malik idilər. Həm zabit, həm də hərbi məmur heyətinin hərbi hissələr arasındakı yerdəyişmələri və ya ehtiyata buraxılmaları isə Hərbi nazirin səlahiyyətlərinə aid olmuşdu. Hərbi hissələrdəki daxili yerdəyişmələr barədə diviziya qərargahları və idarələr mütəmadi olaraq Ümumi Qərargaha məlumat verirdirlər. Bütün zabit və hərbi məmurların uçotu məhz bu qərargahda aparılırdı. General vəzifələrinə təyin edilmə və həmin kateqoriyada olan heyətin yerdəyişmələri isə Nazirlər Şurası sədrinin səlahiyyətlərinə daxil idi [15]. Hərbi nazir öz əmri ilə general vəzifələrinə təyin edilməsi üçün planlaşdırılan zabitləri öncə vəzifələrin icrasına buraxır və bir müddətdən sonra həmin zabitlərin vəzifələrə təyin olunması barədə Hökumət qarşısında vəsatət qaldırırdı.

Zabit heyətinə növbəti hərbi rütbələrin verilməsi qaydaları da Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 nömrəli əmri ilə təsdiq edilmişdi. Həmin əmrdə hərbi rütbədə olma müddətləri bitmiş zabitlərə növbəti hərbi rütbələrin ildə üç dəfə verilməsi müəyyən edilmişdi. Həmin tarixlər “Novruz bayramı”, “Ramazan” və “Qurban bayram”larına təsadüf edirdi. Xidmətdə və eyni zamanda döyüş əməliyyatlarında fərqlənənlər üçün isə vaxtından əvvəl növbəti hərbi rütbələrə təqdim edilməyə məhdudiyyət qoyulmamışdı. Döyüşlərdə fərqlənən və ilkin zabit hərbi rütbəsinə təqdim edilən kiçik komandirlər isə Gəncə Praporşiklər məktəbində sınaq imtahanlarında iştirak etməli idilər [7, s. 306]. Növbəti hərbi rütbələrə isə zabitlər yalnız Cümhuriyyət ordusunda 6 (altı) ay həqiqi hərbi xidmət keçdikdən sonra təqdim oluna bilərdilər [16].

Hərbi nazirin 22 yanvar 1919-cu il tarixli 38 nömrəli əmri ilə Cümhuriyyət ordusunda xidmətdə olan bütün zabit heyəti üçün (yeni hərbi rütbə alan və ya xidmətə qəbul edilənlər istisna olmaqla) həqiqi hərbi xidmətə başlama tarixinin 25 noyabr 1918-ci il tarixi müəyyən edilmişdi (səbəb məlum deyil) [7, s.126]. Cümhuriyyət ordusunda Hərbi nazir yalnız ilkin zabit hərbi rütbəsi olan “praporşik (kiçik leytenant)” hərbi rütbəsi vermə səlahiyyətinə malik olmuşdu. Digər növbəti hərbi rütbələr isə Hərbi Nazirliyin vəsatəti əsasında Nazirlər Şurası sədrinin əmri ilə verilmişdi [17, s.16].

Bundan əlavə, Hərbi nazirin 21 may 1919-cu il tarixli 258 nömrəli əmrində zabit və hərbi məmur heyətinin ildə dörd dəfə olmaqla (1 yanvar, 1 aprel, 1 iyul və 1 oktyabr tarixlərinə) xidməti və mənəvi keyfiyyətləri haqqında Hərbi Nazirliyin Ümumi Qərargahına məlumat verilməsi tələb olunurdu [7,

s.482]. Bununla bir növ zabit və hərbi məmur heyətinin attestasiyası aparılırdı. Haqqında mənfi rəylər verilən zabitlər barədə müvafiq qərarlar qəbul edilirdi. Bununla da Cümhuriyyət ordusunda kadrlarla işin tamamlanmış bir sistemi yaradılmışdı. Bu sistem kifayət qədər işlək və milli maraqlara cavab verən bir sistem idi. Bunun nəticəsi idi ki, vaxt ötdükcə ordu tərkibində milli kadrların sayı artır və onlar daha məsuliyyətli vəzifələrə irəli çəkilirdilər.

Digər bir maraqlı məqam isə, Cümhuriyyət Hərbi Nazirliyinin Naxçıvan bölgəsində də zabit kadrlarının hazırlanmasında göstərdiyi səylərdir. Arxiv sənədlərində 1919-cu ilin əvvəllərində Naxçıvan bölgəsinə xüsusi tapşırıqla ezam edilmiş zabitlər və eləcədə Naxçıvan bölgəsindən olan yerli müdafiə dəstələrində xidmət edən bir qrup hərbi qulluqçu haqqında da məlumatlar öz əksini tapmışdı. Belə ki, Hərbi Nazirlik Şərur və Naxçıvan bölgəsində polkovnik Kərbəlayı Xan Naxçıvanskinin komandanlıq etdiyi yerli özünü müdafiə qüvvələrinin formalaşdırılması və təlimi üçün 3-cü Gəncə, 1-ci Cavanşir və 2-ci Bakı piyada alaylarından 12 (on iki) zabiti 01 mart 1919-cu il tarixdən 01 may 1919-cu il tarixədək həmin bölgəyə xüsusi ezamiyyətə göndərmişdi. Həmin zabitlərə ümumi komandanlıq 2-ci Bakı piyada alayının zabiti podpolkovnik Hüseyn bəy Ququşevə həvalə edilmiş və onlar Şərur-Naxçıvan qəzası qoşunları komandanı polkovnik Kərbəlayı Xan Naxçıvanskiyə müvəqqəti olaraq tabe edilmişdirlər.

Podpolkovnik Hüseyn bəy Ququşevin Ümumi Qərargahın rəisi general-mayor Həbib bəy Səlimova ünvanladığı 03 may 1919-cu il tarixli 174 nömrəli hesabatda üç ay ərzində bölgədə baş verən hadisələr və ezam edilmiş zabitlərin fəaliyyətləri haqqında ətraflı məlumat verilmişdi [18]. Məhz Cümhuriyyət Hərbi Nazirliyinin Naxçıvan əhalisinin və onların yaratdıqları özünü müdafiə qüvvələrinin erməni daşnak qüvvələrinə və İran ərazisindən həmin bölgəyə soyğunçuluq üçün keçən silahlı quldur dəstələrinə qarşı mübarizəsi üçün birləşdirilməsində və peşəkar səviyyədə hazırlanmasında mühüm rol oynaması bölgənin ermənilər tərəfindən işğal edilməsinə imkan verməmişdi. Ümumiyyətlə, Cümhuriyyət Hərbi Nazirliyi Naxçıvan bölgəsi ilə daimi sıx əlaqədə olmuşdu. Cümhuriyyət Hərbi Nazirliyinin Ümumi Qərargaha və Növbətçi Generala aid arxiv sənədlərində Şərur-Naxçıvan qəzası qoşunları komandanı polkovnik Kərbəlayı Xan Naxçıvanskinin Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarova ünvanladığı çoxlu sayda məktub və raportlar saxlanılmaqdadır. Həmin raportlardan aydın olur ki, Naxçıvan bölgəsində xidmət edən yerli zabit heyətinə ilkin və növbəti hərbi rütbələrin verilməsi məhz Cümhuriyyət Hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarov tərəfindən aparılmışdı.

Polkovnik Kərbəlayı Xan Naxçıvanskinin Naxçıvan şəhərindən 27 fevral 1919-cu il tarixdə Hərbi nazirə ünvanladığı raportların birində Şərur və Naxçıvan bölgəsinin erməni quldurlarından təmizlənməsində göstərdikləri

igidliklərə görə 25 (iyirmi beş) hərbi qulluqçuya ilkin zabit hərbi rütbələrin verilməsi barədə vəsatət qaldırması və Hərbi nazirin 29 mart 1919-cu il tarixli 155 №-li əmri ilə 15 nəfərə "milis praporşiki", 10 nəfərə isə piyada qoşunları üzrə "praporşik" hərbi rütbəsi verilməsi bunun bariz nümunəsidir [7, s.306]. Cümhuriyyət Hərbi Nazirliyi eyni zamanda ölkənin digər güc strukturlarında xidmət edən və əvvəllər orduda hərbi xidmətdə olmuş zabitlərin həmin qurumlarda xidmətə qəbulu və növbəti hərbi rütbələrdə irəli çəkilməsində də söz sahibi olmuşdu. Belə ki, həmin Nazirliklər namizədləri xidmətə qəbul və ya növbəti rütbəyə təqdim etməzdən öncə Hərbi nazirlə razılaşdırılmalı idilər [7, 225,272]. Bununla da Hərbi Nazirlik tərəfindən bir növ ehtiyatda olan zabit kadrlarının uçotu aparılmışdı.

Cümhuriyyət ordusu sıralarında ilk vaxtlar kifayət qədər qeyri-azərbaycanlı zabit və hərbi məmurlar həqiqi hərbi xidmətdə olmuşdurlar. Belə ki, Cümhuriyyət Hərbi Nazirliyinin 07 noyabr 1918-ci il tarixdən 28 aprel 1920-ci il tarixədək fəaliyyəti dövründə Cümhuriyyət ordusundakı bütün mövcud olmuş ştatlarda 1140 (min yüz qırx) zabitin və 406 (dörd yüz altı) hərbi məmurun adı keçir. Həmin zabit heyətindən Hərbi Məktəbin 24 aprel 1920-ci il tarixli son buraxılışını 132 (yüz otuz iki) nəfər ilkin zabit hərbi rütbəsi alan yunkerləri (kursantları) çıxmaq şərti ilə 1008 zabit müxtəlif vaxtlarda Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətdə olmuşdurlar. Yuxarıda göstərilən tarixlərdə Cümhuriyyət ordusunda 27 general həqiqi hərbi xidmətdə olmuşdu. Onlardan say tərkibi belə idi 2 "tam artilleriya generalı", 2 "general-leytenant", 23 "general-mayor". Həmin generalların milli mənsubiyyətləri isə belə idi: 16 azərbaycanlı, 6 gürcü, 3 rus, 1 çərkəz və 1 Polşa tatarı. Digər kiçik rütbəli zabitlərin milli mənsubiyyəti isə xidmət dəftərçələrindəki qeydlərə əsasən bu şəkildə olmuşdu: 72 gürcü, 155 rus, 14 ukraynalı, 6 tatar, 6 türk, 6 polyak, 5 ləzgi, 1 osetin, 1 çeçen, 1 avar, 3 litvalı və 4 alman (rus mənşəli). 76 nəfərin isə milli mənsubiyyətini müəyyən etmək mümkün olmamışdı. Hərbi məmurlarda isə milli mənsubiyyətə görə məlumatlar bir qədər fərqli şəkildə olmuşdu: 6 gürcü, 99 rus, 18 ukraynalı, 12 yəhudi, 5 yerli alman və 2 litvalı [19, s.24]. Hər iki kateqoriyadan (zabit və hərbi məmurlar) olan heyətin milli mənsubiyyətinə görə məlumatlarının təhlili onu göstərir ki, hərbi məmurlara nisbətən zabit heyəti əsasən azərbaycanlılardan ibarət olmuşdu. Bu nisbət xüsusi ilə də Cümhuriyyətin süqutuna doğru daha da artmışdı.

Cümhuriyyət Hərbi Nazirliyinin yalnız Gəncə Praporşiklər Məktəbi (sonralar Hərbi nazirin 09 noyabr 1919-cu il tarixli 522 nömrəli əmri ilə "Hərbi Məktəb" kimi təşkil olunmuş) zabit rütbəsində buraxılışlar etmişdi [14, s.445]. Digər mövcud olmuş (mühəndis, hərbi dəmir yolu, hərbi feldşer, baytar, sürücü) hərbi məktəbləri çavuş və əsgər heyətinə aid təkmilləşdirmə, ixtisas artırma və ya ixtisas dəyişmə məktəbləri kimi fəaliyyət göstərmişdi. Həmin hərbi məktəblərdən yalnız Mühəndis məktəbində zabit rütbəsində olan hərbi

qulluqçuların ixtisas dəyişmə kurslarında iştirak etməsi Hərbi nazirin müvafiq əmrlərində öz əksini tapır [20, s.252].

Cümhuriyyət Hərbi məktəbləri yalnız "piyada", "süvari" və "artilleriya" ixtisasları üzrə zabit kadrları hazırladığı üçün orduda "mühəndis", "avtomobil", "hərbi dəmir yolu", "rabitə", "silah mühəndisi" və digər ixtisasları üzrə zabit kadrlarına böyük tələbat olmuşdu. Həmin tələbatı Cümhuriyyət Hərbi Nazirliyi Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasındakı Hərbi Attaşeliyi və digər ölkələrdən Azərbaycana pənah gətirmiş zabit kadrları vasitəsi ilə qismən də olsa ödəmişdi. Belə ki, Diplomatik Missiya və Hərbi Attaşelik Aparatı yuxarıda göstərilən ixtisaslar üzrə Gürcüstan ərazisində yaşayan əvvəllər Çar ordusunda hərbi xidmətdə olmuş əsasən müsəlman dinindən olan zabitlərin Cümhuriyyət ordusunda həqiqi hərbi xidmətə cəlb edilməsi məqsədi ilə səmərəli iş aparmışdı [21]. Hərbi Attaşelik Aparatı Cümhuriyyət ordusunda hərbi xidmət keçmək arzusunda olan yuxarıda göstərilən ixtisaslar üzrə zabitlərin şəxsi işlərini Ümumi Qərargaha göndərmiş və Ümumi Qərargahda həmin zabitlərin məlumatları tam araşıdırldıqdan sonra onların həqiqi hərbi xidmətə qəbulu barədə qərarlar qəbul edilmişdi.

Bundan əlavə, Hərbi Nazirliyin səmərəli fəaliyyətləri nəticəsində Gürcüstan Respublikasının hərbi məktəblərində xeyli sayda azərbaycanlı zabitlərin müəyyən ixtisaslar üzrə təkmilləşdirilməsi mümkün olmuşdu. Belə ki, Tiflis şəhərindəki aviasiya kursuna 6, radioteleqraf kursuna 4 isə zabit ixtisas dəyişmə və təkmilləşdirmə kurslarında təhsil almışdı [22, s.629]. Gürcüstan Respublikası ilə hərbi əməkdaşlıq barədə 1919-cu il iyunun 16-da imzalanmış hərbi Sazişdən sonra isə gürcü zabitlərinin Cümhuriyyət ordusunda hərbi xidmət keçmək imkanı da yaranmışdı [23, s.108-110]. Qarşılıqlı razılaşmaya əsasən, gürcü zabitləri döyüş əməliyyatlarında iştirak etmədən Cümhuriyyət ordusu sıralarında həqiqi hərbi xidmət keçmək imkanı da əldə etmişdirlər. Qeyd etmək lazımdır ki, Cümhuriyyət ordusu sıralarında gürcü millətindən olan 6 general, 72 zabit və 6 hərbi məmur xidmət etmişdi [19, s.754-758, 785]. Onlardan ikisi, Cümhuriyyət ordusunun General-Kvartirmeysteri polkovnik Vasiliy Dmitriyeviç Karqaleteli və Hərbi məktəbinin rəisi polkovnik Konstantin Davidoviç Çxeidze Azərbaycan Hökumətinin 21 mart 1920-ci il tarixli qərarı ilə xüsusi nümunəvi xidmətlərinə görə vaxtından əvvəl "general-mayor" hərbi rütbəsinə layiq görülmüşdülər [24].

**Nəticə.** Hərbi Nazirliyin yuxarıda göstərilən səmərəli və planlı fəaliyyətlər nəticəsində Cümhuriyyət ordusu qısa bir müddət ərzində döyüşkən bir orduya çevrilmiş, kifayət qədər kadr ehtiyatı olan və Azərbaycan ərazilərinə soxulmaq istəyən Ermənistan ordu birliklərini dəfələrlə məğlubiyyətə uğratmışdı. Vətəninə və xalqına sadiq olan Azərbaycanlı zabit və hərbi məmurlar bu döyüşlərdə qəhrəmanlıqla vuruşmuş və bəziləri şəhidlik zirvəsinə ucalmışdı. Hərbi Nazirliyin kadrlarının seçimində əqidə bütövlüyü, dürüstlük,

zabit əyilməzliyi və vəzifə borclarına sədaqət prinsiplərinə ciddi əməl etməsi qısa biz zamanda belə ordunun formalaşdırılmasına imkan vermişdi.

Cümhuriyyət ordusunun şanlı tarixi bu gündə gənc nəslin hərbi-vətənpərvlik ruhda tərbiyə olunmasında öz aktuallığını itirməmişdir. Ordumuzun şanlı tarixi və döyüş yolu bizim qürur mənbəyimiz olmalıdır. Bu gün müasir Azərbaycan Ordusu Cümhuriyyət Ordusunun varisi kimi əzəli torpaqlarımız olan Dağlıq Qarabağı geri qaytarır və ədalətsizliyi bərpa edərək tarix yazır. Eşq olsun Şanlı Azərbaycan Ordusuna!

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2898, s.2, iş.22,səh. 4
2. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2894, s.6, iş.2, səh. 4
3. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2894, s.6, iş.1, səh.62
4. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 897, s.2, iş.23,səh. 45
5. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2898,s.2,iş.5, səh.419
6. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 897, s.1, iş.171,səh. 3
7. Атамалы Шахбазов, Сборник приказов по Военному Ведомости. Баку; Издательства "Маариф", 2018, Том I, с. 504
8. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2903, s.1, iş.1, səh. 3
9. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2894, s.6, iş.2,səh. 33
10. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2894, s.6, iş.2,səh. 47
11. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 897, s.2, iş.23,səh. 38
12. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 897, s.2, iş.24, səh. 1
13. “Свод военных постановлений” http://militera.lib.ru/regulations/ruslaw/svp1869/index.html
14. Атамалы Шахбазов, Сборник приказов по Военному Ведомости. Баку; Издательства "Маариф", 2018, Том II, с. 568
15. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2894, s.1, iş.1, səh.24
16. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2894, s.1, iş.40, səh.8-9
17. Азербайджанская Демократическая Республика (1918-1920) Армия *(Документы и материалы).* Баку; Издательство “Азербайджан”, 1998, с.401
18. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2898, s.2, iş.22, səh.72-73
19. Şahbazov A.X. Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun zabit və hərbi məmurları. Bakı; Maarif Nəşriyyatı, 2020,s. 815.
20. Атамалы Шахбазов, Сборник приказов по Военному Ведомости. Баку; Издательства "Маариф", 2018, Том III, с. 392

21. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2898, s.2, iş.22, səh.39
22. Süleymanov M.S. Azərbaycan Xalq Cümhuriyyətinin Hərb tarixi cild II, Firuzan Nəşriyyatı, 2014, 694 s.
23. Азербайджанская Демократическая Республика (1918-1920) Армия. Главное Архивное Управление при Кабинете Министров Азербайджанской Республики. Баку: Издательство Азербайджан, 1998, с.439
24. Azərbaycan Respublikasının Dövlət Arxivi, fond 2894, s. 1, iş 39. səh.142

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2020, 2 (29), s.112-123**

# AZƏRBAYCANDA İQTİSADÇI HAZIRLIĞI
(1920-1929-cu illər)

***Abbas Qadir oğlu Seyidov***
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
abbas.seyidov@gmail.com

**Açar sözlər:** *iqtisadçı hazırlığı, Azərbaycan, sovetlər, Bakı Politexnik İnstitutu*

*Məqalədə, göstərilən dövr ərzində Azərbaycan SSR-də iqtisadçı kadrların hazırlanması istiqamətində atılan addımlardan söz açılır. Bildirilir ki, çar Rusiyası dönəmində bir, iki kommersiya tipli məktəbdən başqa Azərbaycanda bu sahədə kadr hazırlayan tədris müəssisəsi olmamışdır. Elə bu səbəbdən də çar Rusiyası dönəmində Azərbaycanda bir nəfər də ali təhsilli iqtisadçı kadr hazırlanmamışdı. Azərbaycanda sovet hakimiyyəti qurulan zaman ölkədə kütləvi savadsızlıq hökm sürürdü. 1920-ci ildə respublika üzrə bütün müəllimlərin yalnız üç faizi ali təhsilli, qalanları isə orta, aşağı və evdə təhsil almışlar idi. Yeni yaranmış dövlətin ali təhsilli mütəxəssislərə olan tələbatını o zamanlar yeganə ali təhsil ocağı olan Bakı Dövlət Universiteti ödəyirdi. Bu vəziyyəti nəzərə alan Azərbaycan rəhbərləri M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunun açılışına nail oldular.*

## ПОДГОТОВКА ЭКОНОМИСТОВ В АЗЕРБАЙДЖАНЕ (1920-1929 гг.)

***Аббас Сеидов***

**Ключевые слова:** *подготовка экономистов, Азербайджан, Советы, Бакинский политехнический институт.*

*В статье рассматриваются шаги, предпринятые для подготовки экономистов в Азербайджанской ССР в 1920-е годы. Во времена царской России в Азербайджане не было учебных заведений для обучения в этой области, за исключением двух коммерческих школ. Поэтому в тот период не было экономистов, подготовленных в Азербайджане. На момент создания Советского Союза в Азербайджане царила массовая неграмотность. В 1920 году только три процента всех учителей в стране имели высшее образование, а остальные имели среднее, низшее*

*или домашнее образование. Потребности новообразованного государства в высокообразованных специалистах удовлетворял Бакинский Государственный Университет – единственное в то время высшее учебное заведение. Принимая это во внимание, руководству Азербайджана удалось открыть Бакинский Политехнический Институт имени М. Азизбекова.*

## ECONOMIST TRAINING IN AZERBAIJAN
(1920-1929)

***Abbas Seyidov***

**Keywords:** *Economist training, Azerbaijan, Soviets, Baku Polytechnic Institute*

*The steps taken in the economist training in Azerbaijan SSR in the 1920s are discussed in the article. At the period of Tsarist Russia, there were no educational institutions in Azerbaijan to train in this field, except for two commercial schools. Therefore, not a single economist was highly educated in Azerbaijan during this period. By the time of the establishment of the Soviet Union in Azerbaijan, mass illiteracy prevailed in the country. In 1920, only three per cent of all teachers in the country had tertiary education, whilst the rest had secondary, lower or home education. The requirements of the newly formed state for highly educated specialists were met by the Baku State University, the only tertiary education institution at that time. Taking into account this situation, the leaders of Azerbaijan managed to open the Baku Polytechnic Institute named after M. Azizbayov.*

Oktyabr inqilabından sonra sovetlərin hakimiyyətə gəlməsi ölkənin "Kommunist ideologiyası" adı altında inqilabi metodlarla idarə olunmasını surətləndirdi. Bu prinsip əsasında başqa xalqlar kimi azərbaycanlıların da sosial-iqtisadi və ictimai-siyasi həyatında yeni tip mədəniyyət quruculuğu, elmi, texniki baxımdan kommunist ideologiyasına söykənən kadrların hazırlanması prinsipi əsas götürüldü. Bütün normativlərin bu əsasda yerinə yetirilməsi nəzərdə tutuldu. Üzdə elə görüntü yaradılırdı ki, guya hər şey xalqın xeyrinə həll olunur. Əslində məqsəd bir partiyanın diktaturasını yaratmaqdan ibarət idi. V.İ.Lenin bir partiyanın diktaturasını etiraf etməklə, bildirirdi ki, biz bunun üzərində dayanmışıq və bu dayaqdan düşə bilmərik.

Azərbaycan SSR-in yeni yaradılan Xalq Maarif Komissarlığı respublikada bütün mədəni-maarif işlərinə rəhbərlik etməyə başladı. Bu prosesləri həyata keçirmək üçün elə ilk günlərdə sovet hökuməti xalq təhsilini yeni istiqamətləndirən bir neçə dekret və sərəncamlar verdi. İlk Xalq Maarif komissarı Dadaş Bünyadzadənin imzası ilə 1920-ci il mayın 10-da ana dilində dərs keçilən, pulsuz icbari politexnik məktəblərin təşkili haqqında dekret nəşr olundu. Bir sıra tədbirlərlə yanaşı, dövlət və məktəb kilsədən, məsciddən tamamilə ayrıldı. Bu və ya bir çox başqa neqativ hallarla yanaşı, yeni yaranmış hökumət Azərbaycanda iqtisadiyyatın, maarif və ali məktəb işinin yeni şəraitdə qaydaya salınmasına səy göstərdi. Bu işdə ilk vaxtlar Azərbaycan hökumətinə başçılıq edən Nəriman Nərimanovun böyük rolu oldu. 1920-ci ilin avqust ayında yeni cəmiyyət qurucuları olan peşəkar işçi qüvvəsi hazırlamaq üçün N.Nərimanovun imzası ilə Texniki Peşə Təhsili Komitəsi təsis edildi [1, s.202-203].

Ölkədə kütləvi savadsızlıq hökm sürürdü. 1920-ci ildə respublika üzrə bütün müəllimlərin yalnız üç faizi ali təhsilli, qalanları isə orta, aşağı və evdə təhsil almışlar idi [2, f.411, s.4, i.653, b.51]. Yeni yaranmış dövlətin ali təhsilli mütəxəssislərə olan tələbatını o zamanlar yeganə ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin gücü ilə ödəməyin mümkün olmamasını dərk edən Azərbaycan rəhbərləri yeni yollar aramalı oldular. Elə M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunun açılışı da bu ehtiyacın məhsulu idi.

Gənc sovet respublikası olan Azərbaycan SSR-in iqtisadi inkişafı ilə əlaqədar Azərbaycan İnqilab Komitəsinin qarşısında bir sıra təxirəsalınmaz vəzifələr dayanırdı. Onların ən başlıcalarından biri ixtisaslı, həm də iqtisadçı kadrların hazırlanması idi ki, bunun da özünəməxsus xüsusiyyətləri və müxtəlif cəhətləri var idi. Bu dövrdə digər elm sahələri ilə yanaşı marksist-leninçi iqtisad elminin yaradılması böyük əhəmiyyət kəsb etməyə başladı. Təbii ki, xalq təsərrüfatının inkişafını düzgün planlaşdırmaq, onun ayrı-ayrı sahələrinin gələcək inkişaf yollarını müəyyən etmək iqtisad elminin nailiyyətlərindən asılı idi. Azərbaycanda sovet iqtisad elminin yaradılması və inkişaf etdirilməsi yeni yaranan dövlətin ilk günlərindən tarixi zərurət kimi meydana çıxdı. Bu zərurət ilk növbədə iqtisad yönümlü elm ocaqlarından və iqtisadçı elmi kadrlardan asılı idi. Çar Rusiyası dönəmində bir, iki kommersiya tipli məktəbdən başqa (xüsusi ticarət məktəbi, hesabdarlar hazırlayan məktəb) Azərbaycanda bu sahədə kadr hazırlayan tədris müəssisəsi olmamış və bu məktəblər əslində kadr ocaqlarına çevrilə bilməmişdi.

Bütün bunların nəticəsi idi ki, iqtisadiyyat üzrə tədris müəssisələri olmadığından, çar Rusiyası dönəmində Azərbaycanda bir nəfər də ali təhsilli iqtisadçı kadr hazırlanmamışdı. Tək-tək olanlar isə ticarət texnikumu və sənət məktəblərində yetişdirilən orta təhsilli kadrlar idilər.

Azərbaycan Xalq Maarif Komissarı D.Bünyadzadə 6-21 may 1921-ci il tarixlərdə keşirilən I Ümumazərbaycan Sovetlər qurultayında milli ziyalı kadrların olmamasının səbəbini belə izah etmişdi: “Bizim Azərbaycanda əsrlər boyu heç bir iş görülməmişdir. Bu yaxınlarda əhalinin siyahıya alınması zamanı məlum olmuşdur ki, cəmi 62 nəfər ali təhsilli müsəlman vardır. Bunun səbəbi aydındır. Çünki, Azərbaycanın ali məktəbi yox idi. Digər tərəfdən, imperialistlər heç vaxt Azərbaycana hər hansı bir maarif vermək fikrində olmamışlar” [3, s.117].

İlk əvvəl bir çox rusiyalı alimlərin Azərbaycan SSR-ə dəvət olunması müəyyən elm sahələrinin və xüsusən də Sovet iqtisad elminin yaradılmasına və inkişafına mühüm təsir göstərdi. Onların köməyi ilə bir sıra elm və tədris müəssisələri - Bakı Dövlət Universiteti (1919) [4], Bakı Politexnik İnstitutu (1921), Azərbaycanı tədqiq edən və öyrənən Cəmiyyət (1923), Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (1929) və digər - kafedra, fakültə və şöbə şəklində iqtisad elmi ocaqları yaradıldı. O zaman Azərbaycana dəvət olunan rusiyalı alimlərin qarşısında iqtisadçı mütəxəssislər yetişdirmək və iqtisad elmini daha da inkişaf etdirmək kimi iki mühüm vəzifə dururdu. Bu sahədə M.Əzizbəyov adına Bakı Politexnik İnstitunun “İqtisadiyyat” fakültəsi mühüm rol oynadı [5, s.29].

1920-ci ilin əvvəllərində Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun təşəbbüsü ilə Bakı Politexnik məktəbinin bazası əsasında ali texniki-iqtisadi elm və təhsil ocağının yaradılması haqqında məsələ qaldırıldı. Həmin ilin may ayında isə Azərbaycan Xalq Maarif Komissarı D.Bünyadzadənin rəhbərliyi altında ali texniki-iqtisadi məktəbin təşkili məsələsini həyata keçirmək üçün Komitə təşkil edildi. 1920-ci il mayın 26-da Komitə Bakı Politexnik ali məktəbinin açılmasını təşkil edən komissiyanın birinci iclasını çağırdı. Komissiyanın sədri görkəmli rus alimi, professor L.A.İşkov, üzvləri isə A.M.Levin, A.A.Lebedev, prof. L.Q.Qurviç, mühəndis Qadaski, prof. A.N.Derjavin, Dombrovski və mühəndis Abramoviç idi [6, s.26].

Komissiya beş ay Bakı Politexnik İnstitutunun təşkili, ümumi planı və Nizamnaməsi ilə məşğul oldu. Nəhayət, 1920-ci il noyabrın 16-da N.Nərimanovun imzası ilə Azərbaycan İnqilab Komitəsinin Bakı Politexnik məktəbinin M.Əzizbəyov adına Bakı Politexnik İnstitutuna çevrilməsi və dekabr ayının 12-də isə Azərbaycan Xalq Maarif Komissarlığının Bakı Politexnik İnstitutunun açılması haqqında dekretləri elan olundu. Sonuncu dekretdə göstərilirdi ki, keçmiş Bakı Politexnikumunun bazası əsasında yaradılmış politexnik institutunda beş fakültə - “Neft sənayesi”, “Elektro-mexanika”, “Inşaat-mühəndis”, “Kənd təsərrüfatı” və “İqtisadiyyat” fakültələri açılır. Bu dekretdən bir qədər sonra M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunun elmi şurası professor-müəllim heyəti məsələsinə baxdı və prof.

N.A.Dubrovski institutun rektoru və "İqtisadiyyat" fakültəsinin dekanı seçildi [5, s.30].

1921-ci ilin yanvar ayının 2-dən etibarən öz işinə başlayan "İqtisadiyyat" fakültəsi qısa müddət ərzində yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında mühüm rol oynadı. Burada ötən əsrin 20-ci illərində respublikanın xalq təsərrüfatı üçün iqtisadçı, plançı, statistik, mühasib, maliyyəçi və iqtisad elminin nəzəri sahəsi ilə bağlı kadrlar hazırlanması həyata keçirilirdi. Bu institutun müxtəlif ixtisaslı, o cümlədən iqtisadçı kadrların hazırlanmasında, keçid dövrünün ixtisaslı kadra olan tələbatının ödənilməsindəki rolu o dövr üçün əvəzolunmaz idi.

Azərbaycan Kommunist Partiyası yeni iqtisadçı kadrların respublikada sosializm quruluşunun əsaslı surətdə inkişafında rolunu nəzərə alaraq, bu kadrların hazırlanmasına məsul olan professor-müəllim heyətinin tərkibinə xüsusi diqqət verirdi. Təbii ki, uzun müddət Azərbaycan xalqının elm, savad üzünə həsrət qalmasının nəticəsində "İqtisadiyyat" fakültəsinə ilk dəfə qəbul edilən tələbələrin 1-2 faizi türk (azərbaycanlı) idi. Azərbaycan Xalq Komissarlar Soveti və Azərbaycan Ali İqtisadi Şurasının qarşısında duran ən mühüm vəzifələrdən biri iqtisadçı kadr hazırlığını planlaşdırmaq və yetişdiriləcək kadrların iqtisad elminin müxtəlif sahələri üzrə ixtisaslaşmasını düzgün müəyyənləşdirmək idi. BPİ-nin "İqtisadiyyat" fakültəsində sənaye, statistika, kooperativ-ərzaq, əməyin mühafizəsi, maliyyə və xarici ticarət şöbələrinin açılması nəzərdə tutulurdu [7, f.150, s.1, i.1, v.51].

Professor-müəllim heyətinin azlığı və maddi çətinliklər ucbatından bunları tam həyata keçirmək mümkün deyildi. 1921-ci ilin yazında I kursa qəbul edilən 145 nəfərin 18-i türk (azərbaycanlı) idi [7, f.150, s.1, i.1, v.37]. Ən pisi isə o idi ki, qəbul edilən 43 nəfər qadın içərisində bir nəfər də olsun türk (azərbaycanlı) yox idi.

Yüksək ixtisaslı iqtisadçı kadr hazırlığını gücləndirmək və sovet iqtisad elminin müxtəlif sahələrini tədris etmək məqsədilə 1922/23-cü dərs ilinin başlanğıcında fakültə Elmi şurası tərəfindən RSFSR, Ukrayna SSR ali məktəblərindən Azərbaycan SSR-də işləməyə professorlar dəvət edildi. Nəticədə dəvət edilənlərin hesabına 1922-ci ilin axırlarında fakültədə işləyən professor-müəllim heyətinin sayı 21-ə çatmışdı.

1921/22-ci dərs ilində qəbul edilən tələbələrin ictimai tərkibinə diqqət artırılırdı. İctimai mənşəcə şübhəli olanlar təhsildən kənar edilirdilər. 1920/21-ci dərs ilində 244 nəfər tələbə sonradan 127 nəfərə və 1922-ci ilin yazında qəbul edilən 145 nəfər isə 116 nəfərə endirilmişdi. Qəbulda əsasən Qızıl Ordu sıralarından tərxis olunanlara üstünlük verilirdi.

1922-ci il üçün Azərbaycan Xalq Maarif Komissarlığı M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunun "İqtisadiyyat" fakültəsinə köməklik üçün maliyyə vəsaiti ayırmasına baxmayaraq, həmin ilin payızında RSFSR hökuməti

tərəfindən Azərbaycan SSR ali məktəblərinə 10 min manat qızıl pul göndərilmiş və bunun nəticəsində respublikada kadr hazırlığı o cümlədən iqtisadçıların yetişdirilməsi işi bir qədər yaxşılaşmışdı. “İqtisadiyyat” fakültəsində tələbələrin sayı artıb, 700 nəfərə çatmışdı [5, s.31]. Tələbələrin orta yaş səviyyəsi 25-30 arasında idi [8, s.4]. Maddi çətinliklərə baxmayaraq, Azərbaycan xalq təsərrüfatının ali təhsilli iqtisadçılara artan tələbatını ödəmək üçün 1922/23-cü dərs ilində instituta 460 nəfər tələbə qəbul edilmiş, sonradan tələbələrin tərkibinin yoxlanması və təmizlənməsi nəticəsində bu rəqəm 454-ə, ilin sonunda isə 425 nəfərə enmişdi. Bu isə institutun bütün fakültələrində təhsil alanların 30 faizini təşkil edirdi.

1923-cü ildə maddi çətinliklər ucbatından M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunun (BPİ) vəziyyəti xeyli ağırlaşdı. Respublika Mədənçilər ittifaqı və Azneft İnstitutu BPİ-nin “Texnoloji” fakültəsini hamiliyə götürdülər. Çünki, “Kənd təsərrüfatı” və “İqtisadiyyat” fakültələrinin neftlə əlaqəsi yox idi. Lakin XII Ümumbakı partiya konfransında bu məsələyə baxıldıqdan sonra, respublikanın bir sıra təşkilatları-Xalq Maliyyə Komissarlığı, Ticarət Komissarlığı və Azərbaycan Həmkarlar İttifaqı kadr hazırlığını dayandırmamaq üçün fakültəyə yaxından yardım göstərdilər. 1923-cü ildə iqtisadçı kadr hazırlanması işinə 41.948 min manat (Zaqafqaziya bonu ilə) pul vəsaiti ayrıldı [7, f.150. s.1, i.19. v.338].

Elə həmin ilin yayında SSRİ MİK-in 10 avqust 1923-cü il qərarına əsasən M. Əzizbəyov adına Bakı Politexnik İnstitutuna kömək məqsədi ilə böyük yardım göstərildi [9, s.25]. 1923-cü ildə BPİ-nin “İqtisadiyyat” fakültəsinə olan 28,945 milyon manat (Azərbaycan bonu ilə) yardım nəticəsində fakültə daha bir dərs ili üçün tələbə qəbul edərək, iqtisadi təhsil alanların sayını, dinləyicilərlə birlikdə 593 nəfərdən 1015 nəfərə çatdırdı [10, s.20].

1923-cü ilin may ayında institut üzrə 3 nəfər kadr hazırlandı. Məzunların üçü də iqtisadçı, biri isə qadın idi. 1924-cü ilin yazında 5 nəfər iqtisadçı kadr yetişdirildi. Lakin M.Əzizbəyov adına BPİ-nin iqtisadiyyat fakültəsinin ömrü uzun olmadı. RK(b)Partiyasının XIII qurultayı tərəfindən (may, 1924-cü il) “Ali məktəb və gənclər” haqqında qəbul etdiyi qərarda göstərilirdi ki, yüksək ixtisaslı kadrların hazırlanıb xalq təsərrüfatının müxtəlif sahələrinə göndərilməsi zəruri olsa da, iqtisadi vəziyyətin ağırlığı üzündən bəzi ali məktəblərin bağlanması lazım bilinir. XIII qurultayın qəbul etdiyi qərara əsasən, 1924-çü ildən etibarən bir sıra ali məktəblər bağlandı. Respublikamızın xalq təsərrüfatı üçün iqtisadçı kadr hazırlayan yeganə iqtisadi təhsil ocağı - M Əzizbəyov adına BPİ-nin “İqtisadiyyat” fakültəsi də bağlanmaq təhlükəsi ilə üz-üzə qaldı. 1924-cü il avqust ayının 13-də Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən “İqtisadiyyat” fakültəsinin bağlanması haqqında instituta sərəncam göndərildi. Həmin il sentyabr ayının 4-də isə Xalq Maarif Komissarlığının məktubunda fakültənin ikinci və üçüncü kurslarının saxlanması

haqqında göstəriş verildi. Bu dövrdə Azərbaycan SSR-də iqtisadçı kadrların sayı cəmi 35 nəfər olub, respublika üzrə bütün kadrların (ali və orta ixtisas üzrə) yalnız 0,3 faizini təşkil edirdi [5, s.33].

Azərbaycan SSR-də yüksək ixtisaslı iqtisadçı kadrların çox az olduğunu görən “Qlavprofobr” (Xalq Maarif Komissarlığı Baş peşə təhsili idarəsi – A.S.) fakültə qarşısında belə vəzifə qoydu ki, 1925-ci ildən gec olmayaraq buraxılan iqtisadçıların sayı artırılsın. Nəticədə 1925-ci ildə 4, 1926-cı ildə 64 və 1927-ci ildə 259 nəfər iqtisadçı hazırlandı. Cəmi beş buraxılış nəticəsində Azərbaycan SSR-in xalq təsərrüfatı üçün 339 nəfər iqtisadçı kadr hazırlandı. Bunların içərisində cəmi 44 nəfər türk (azərbaycanlı) var idi. Bu da bütün yüksək ixtisaslı iqtisadçıların 12,9 faizini təşkil edirdi.

Nailiyyətlərə baxmayaraq, M.Əzizbəyov adına Bakı Politexnik İnstitutunun “İqtisadiyyat” fakültəsi 1927-çi il iyun ayının 15-də rəsmi olaraq bağlanıldı. İyirminci illərdə yüksək ixtisaslı kadr, o cümlədən iqtisadçılar hazırlanması ilə əlaqədar olaraq, Azərbaycan SSR-in xalq təsərrüfatı üçün cəmi 339 nəfər iqtisadçı kadr yetişdirildi. İqtisadçılar içərisində 2 nəfər (türk) azərbaycanlı da daxil olmaqla, 80 qadın var idi. Qalanları əsasən milli tərkibcə yəhudi (39 faiz), rus (30 faiz) və erməni (25 faiz) idi [11, s.51-52].

1922-ci il yanvarın 18-dən 1927-ci il iyun ayının 15-dək BPİ-nin “İqtisadiyyat” fakültəsinin dekanı vəzifəsində işləyən rusiyalı prof. V.A.Udintsevin Azərbaycan SSR-də iqtisadçı kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur. O, iqtisadi fənlərin tədrisi prosesinin təşkili işinə, düzgün qoyuluşuna öz bilik və bacarığını əsirgəməmiş, xalq təsərrüfatı üçün yüksək ixtisaslı iqtisadçılar dəstəsinin yetişdirilməsinin təşkilatçısı kimi tanınmışdır.

1923-cü ilin ortalarında müxtəlif ixtisaslar üzrə xarici ölkələrdə 72 nəfər tələbə təhsil alırdı. Bu tələbələrdən 2 nəfəri Almaniyada, 2 nəfəri isə Fransada iqtisad elmi üzrə ixtisaslaşdırılırdı. RSFSR ali məktəblərinə göndərilən tələbələrin sayı ildən-ilə artırılırdı. Təkcə 1923/24-cü dərs ilində Azərbaycandan müttəfiq respublikalara 131 nəfər tələbə göndərilmişdi. 1924/25-ci dərs ilində RSFSR ali məktəblərində 111 nəfər, 1927/28-ci dərs ilində 150 nəfər, 1928/29-cu ildə isə 211 nəfər Azərbaycan SSR-in xalq təsərrüfatı üçün kadr hazırlanmışdı. Bunların içərisində iqtisad təhsili alanların da sayı az deyildi. Görkəmli partiya və dövlət xadimi Müzəffər Nərimanov da 1921-1925-ci illərdə K.V.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunun “İqtisadiyyat” fakültəsini bitirmişdi [12, s.10].

Azərbaycan SSR xalq təsərrüfatının iqtisadçı kadrlara olan tələbatını nəzərə alaraq, ötən əsrin 20-ci illərində yüksək ixtisaslı kadrlarla bərabər, orta ixtisas təhsilli iqtisadçıların da hazırlanmasına ciddi fikir verilmişdir. 1924/1925-ci dərs ilində Bakı Sənaye-İqtisad Texnikumunda 205 nəfər, 1925/26-cı ildə 258 nəfər, 1926/27-ci ildə 313 nəfər və 1927/28-çi ildə isə 401 nəfər tələbə təhsil almışdı [13, s.61].

Orta ixtisaslı iqtisadçıların milli tərkibinə gəldikdə, burada azərbaycanlılar üstünlük təşkil etmiş və onların sayı ildən-ilə artmışdı. Məsələn, 1925-ci ilin yanvarında Bakı Sənaye-İqtisad Texnikumunda təhsil alan 205 tələbədən 64 nəfəri, həmin ilin dekabrında isə 258 tələbədən 113 nəfəri türk (azərbaycanlı) olmuşdur. 1928/29-cu ildə həmin texnikumda 80, Nuxa İqtisad Texiikumunda 35 nəfər iqtisad təhsili almışdır. Təəssüf ki, Bakı Sənaye-İqtisad Texnikumu kadr hazırlığını uzun müddət davam etdirə bilməmiş, 1928-ci ildə bağlanmışdı.

Göstərilən dövr ərzində Sovet Azərbaycanında nəinki xalq təsərrüfatı üçün ixtisaslı iqtisadçı kadrlar, həmçinin iqtisadçı elmi kadrlar yetişdirilməsinə də xüsusi diqqət ayrılmışdı. Bu məsələ ilə bağlı qeyd etmək yerinə düşər ki, milli iqtisadçı alimlərin yetişdirilməsində o dövrdə Azərbaycan SSR-ə ezam olunan, yaxud da işə cəlb olunan rusiyalı alimlərin böyük rolu olmuşdur. Sonralar isə, azərbaycanlı alimlər müstəqil olaraq iqtisadçı kadrlar hazırlanması işini davam etdirmişlər. XX əsrin 20-ci illərinin milli iqtisadçı elmi kadrları sırasına daxil olan B.Həsənbəyov, Q.Sultanov, H.Dadaşov, Ə.Dadaşov, Ə.Fərəcov, R.Şabanov, A.Məmmədbəyov, İ.İsmayılov, M.Məmmədov, Ə.Quliyev və b. rusiyalı alimlərin yetişdirmələri idi.

ÜİK(b)P MK-nın iyul (1928) və noyabr (1929) plenumlarından sonra Sovet Azərbaycanında iqtisad elminin inkişaf etdirilməsi sahəsində əsaslı dönüş yarandı. Bu plenumların qərarlarının həyata keçirilməsi ilə marksist-leninçi iqtisad elmində mövcud olan bir sıra problemlər həll edildi. İyul (1928) Plenumunun “Yeni mütəxəssislər hazırlanmasını yaxşılaşdırmaq haqqında” qərarında göstərilirdi ki, bu dövrdən etibarən yeni mütəxəssislər hazırlanması bütün partiyanın ən mühüm vəzifəsinə çevrilir. Noyabr (1929) Plenumunda kadr hazırlığına baxılarkən, bu məsələyə dair yeni qərar qəbul edildi. Plenumun qərarında deyilirdi: “MK lazım bilir ki, həm sənaye üçün, həm də tiçarət maliyyə, plan və statistika orqanları üçün iqtisadçılar hazırlanması işi əsaslı surətdə yaxşılaşdırılsın; ali iqtisad məktəblərinin sistemi və istiqaməti qaydaya salınsın; xalq təsərrüfatının tələbatı ilə əlaqədar olaraq, müvafiq ali məktəblərə, fakültələrə, şöbələrə, daha müəyyən məqsəd istiqaməti verilsin” [11, s.54-55].

Respublikanın xalq təsərrüfatını yeni kadrlarla təmin etmək məqsədilə Bakı Partiya Komitəsinin 1928-ci il sentyabr Plenumunda “Ali məktəblərin işi haqqında” xüsusi məsələ müzakirə elildi. Plenum respublikada kadr ocaqlarının sayını artırmaq və milli kadrların hazırlanmasına xüsusi diqqət verməyi qərara aldı. AK(b)P-nin XVIII Ümumbakı Partiya Konfransının da ən mühüm məsələlərindən biri kadrların hazırlanması idi. Burada göstərilirdi ki, hazırkı zamanda kadr məsələsi ən böyük məsələlərdən biridir və bizim üçün... xüsusilə, türk (azərbaycanlı) kadrları lazımdır [5, s.35-36].

1929-çu ildə təşkil edilən Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun İqtisadiyyat şöbəsi nəinki xalq təsərrüfatı üçün ixtisaslı iqtisadçı kadrların,

həmçinin iqtisadçı elmi kadrların yetişdirilməsi sahəsində mühüm rol oynamışdı. Beləliklə, ötən əsrin iyirminci illərində müttəfiq respublikalardan dəvət olunmuş və xüsusən də rusiyalı alimlər Azərbaycan SSR-də iqtisadçı kadrlar hazırlanması və sovet iqtisad elminin inkişaf etdirilməsində mühüm rol oynadılar.

Faktlar göstərir ki, həmin dövrdə başqa sahələrlə yanaşı, iqtisadçı ixtisasına yiyələnmək istəyənlər heç də az deyildi. Professor Əliqulu Fərəcov [8] xatirələrində göstərir ki, onun özü Bakı Politexnik Institutunun "İqtisad" fakültəsinə 1923-cü ildə - 25 yaşında daxil olmuşdur. "İqtisad" fakültəsində dörd qrupda cəmləşən ümumiqtisad yönümlü 23 fənn tədris olunurdu. Birinci qrupa Siyasi iqtisad, Rusiya xalq təsərrüfatı tarixi və Rusiya iqtisadi fikir tarixi, Qərbi Avropa ölkələrinin xalq təsərrüfatı tarixi, İqtisadi siyasət fənləri daxil idi. İkinci qrupa maliyyə, pul və pul dövriyyəsi, İqtisadi coğrafiya, Statistika, Mühasibat uçotu nəzəriyyəsi, Təsərrüfat hesabı, Kommersiya yazışması fənləri daxil idi. Üçüncü qrupda Kooperasiya nəzəriyyəsi və tarixi, Istehlak kooperasiyası və kooperativ hüququ kimi fənlər cəmlənmişdi. Dördüncü qrup Ümumi hüquq nəzəriyyəsi və Sovet konstitusiyası, Müsəlman hüququ, Mülki hüquq, Ticarət-sənaye hüququ, Etnoqrafiya, Müsəlman şərqi tarixi, digər fənləri əhatə edirdi. Kooperativ–ticarət bölməsində tədris olunan fənlər də maraq doğurur. Buraya Yaxın Şərq ölkələrinin durumu, Xarici ticarət, Kooperativ hüququ və mənzil kooperasiyası, Kooperativ hüququ və istehsal kooperasiyası, Banklarda mühasibat uçotu, Ümumi mühasibat uçotunun kooperativ mühasibatı fənləri daxil idi.

Nəhayət, "İqtisad" fakültəsinin sənaye bölməsində trestlər və sindikatlar, kommunal təsərrüfatı, fabrik-zavod mühasibatı kimi fənlər tədris olunurdu. Göründüyü kimi, bütün bölmələr üzrə tədrisi nəzərdə tutulmuş fənlər kifayət qədər olsa da, bir çox vacib fənlər diqqətdən kənarda qalmışdı. Lakin nəzərə alınmalıdır ki, o zamanlar lazımi təcrübə toplanmamışdır. Bu sahədə ilk addımlar atılırdı. Doğrudan da, sonrakı illərdə tədris planları dəfələrlə dəyişdirilmiş, müxtəlif fənlər əlavə edilmiş, tədris işi təkmilləşdirilmiş və keyfiyyətcə yaxşılaşdırılmışdır. İlk vaxtlar qiyabi bölmə olmadığı üçün tələbələrin çoxu praktiki işi təhsil ilə paralel aparmalı olurdu. Bunu nəzərə alaraq, tələbələrə mühazirələrdə sərbəst iştirak etməyə icazə verilirdi. Bir qayda olaraq, dərslər ikinci növbədə keçirilirdi. Belə tədris sistemi işləyən tələbələr üçün əlverişli şərait yaradırdı.

Təsərrüfatın bütün sahələrində, sənayedə, bir sözlə, ictimai-iqtisadi həyatda gedən dəyişikliklər və yeniliklər müxtəlif sahələr üzrə yeni, daha geniş profilli iqtisadçı kadrlar tələb edirdi. Institutda kadrların 4-5 ilə hazırlanması nəzərə alınarsa, mütəxəssis qıtlığının səbəbini asan izah etmək olar. Yüksək ixtisaslı ali təhsilli kadrların hazırlanması işini günün tələbləri səviyyəsində təkmilləşdirmək və davam etdirməklə yanaşı, kadrların hazırlanmasının yeni

üsul və yolları da axtarılır və tapılırdı. Məsələ burasındadır ki, əslində Azərbaycanda iqtisadçı kadrların hazırlanması elə istehlak kooperasiyalarının meydana gəlməsi və inkişafı ilə sıx bağlı olmuşdur.

1923-cü il sentyabrın 1-dən Ə.Fərəcovun təsərrüfat hesablı birillik mühasibat və ticarət kursları fəaliyyət göstərməyə başlayır. Dövlət buraya əlavə xərc çəkmirdi. Azərbaycanın bir çox iqtisadçı kadrları, məhz belə kurslarda dərs demək və ya təhsil almaqla püxtələşmişdir. Bu kurslarda tətbiq olunan tədris planları sonralar müəyyən dəyişikliklərə uğramaqla ali təhsil müəssisələrində müvəffəqiyyətlə davam etdirilmişdir. Prof. Ə.Fərəcov etiraf edirdi ki, onun özü mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili üzrə ilk dərsliyi məhz, burada, 1928-ci ildə yazıb, nəşr etdirmişdir. Bu iş Azərbaycanda iqtisadiyyat üzrə ana dilində ilk əsər olmuşdur.

Maliyyə, mühasibat uçotu, əmtəəşünas və başqa sahələr üçün kadrlar hazırlayan kurslar 1930-cu ilə qədər davam etmiş və müxtəlif sahələr üzrə kadr qıtlığını qismən aradan qaldıra bilmişdir. Lakin 1925-ci ildən sonra, xüsusilə «bərpa dövrü» deyilən mərhələ başa çatdıqdan və «sənayeləşmə» deyilən dövrün başlanğıcından yüksək ixtisaslı kadrlara tələbat birə-beş artmış oldu. Belə bir şəraitdə dövlət kooperasiya sistemi və bütövlükdə xalq təsərrüfatının bütün sahələri üçün kadr hazırlığının yeni, əsaslandırılmış elmi və elmi-metodik sisteminin hazırlanmasının vacibliyini dərk etməyə bilməzdi. İqtisadçı mütəxəssislərin qıtlığı göz qabağında idi. Buna görə də 1923-cü ildə Bakıda Sənaye-İqtisad Texnikumu, 1925-ci ildə isə Bakı Kooperativ-Ticarət Texnikumu fəaliyyətə başladı. Bu təhsil müəssisələri orta ixtisaslı iqtisadçı kooperatorlar, istehlak kooperasiyası üzrə mütəxəssislər hazırlanması işini qaydaya salmalı idi. Doğrudan da, bu texnikumlar öhdələrinə düşən işi dövrünə görə müvəffəqiyyətlə yerinə yetirə bildilər. Bu kurslar və texnikumlar orta təhsilli, geniş profilli iqtisadçı kadrlar hazırlamaqla yanaşı, bu sahələr üzrə gələcək müəllim kontingentinin də formalaşmasında müəyyən rol oynamışdı. Lakin görülən tədbirlər, texnikumların açılması və s. yüksək ixtisaslı iqtisadçı kadrlara olan tələbatı tam ödəyə bilməmişdi. Hətta 1928-ci ildən Bakıda fəaliyyətə başlayan, müxtəlif sahələr üzrə mühasib və statistika işçiləri hazırlayan Sosialist Uçotu İnstitutu da bu sahədə vəziyyətin tam qaydaya düşməsini təmin edə bilmədi. Bu çətinliyin aradan qaldırılmasında 1928-ci ildə Azərbaycan Dövlət Universitetində açılmış "İqtisad" fakültəsi [14, s.124-144] xeyli rol oynadı.

## Ədəbiyyat


1. Azərbaycan tarixi. Yeddi cilddə. Altıncı cild (aprel 1920-iyun 1941), Bakı: 2000.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond 411, siyahı 4, iş 653, vərəq 51.
3. Отчет Всеазербайджанскому съезду Советов. Стенографический отчет. Баку: 1922.
4. Атакишиев А.М. История Азербайджанского Государственного Университета. Баку: 1989.
5. Qəribov Ə. İyirminci illərdə Sovet Azərbaycanında iqtisadçı kadrların hazirlanması və iqtisad elminin inkişafinda rus alimlərinin rolu. Azərbaycan SSR EA Xəbərləri, İqtisadiyyat seriyasi, 1974, № 1, s.27-41.
6. 10 лет АПИ, Баку: 1931.
7. Azərbaycan SSR MDOİA, fond 150, siyahı 1.
8. Фараджев А. Воспоминании из истории подготовки экономических кадров в Азербайджанской ССР (1920-1967), Баку: 1968.
9. Nikişin A. Doğru yolda, Bakı: 1931.
10. Юркеевич З. Народное образование в АССР за 1923/1924 учебный год. Баку: 1925.
11. Qəribov Ə. İyirminci illərdə Sovet Azərbaycanında iqtisadçı kadrların hazırlanması., Azərbaycan SSR EA Xəbərləri, İqtisadiyyat seriyası, 1977, №2, s.45-55.
12. Bağırov M. Müzəffər Nərimanov, Bakı: 1966.
13. Azərbaycanda Xalq Maarifi (1920—1927), Bakı: 1928.
14. Атакишиев А.М. История Азербайджанского Государственного Университета. Баку: 1989.

**MÜNDƏRİCAT**

***Aytən Zabil qızı Abbasova-Quliyeva.*** DONALD TRAMP ADMİNİSTRASİYASI DÖVRÜNDƏ ABŞ-ın YAXIN ŞƏRQ SİYASƏTİ: TÜRKİYƏ VƏ İSRAİLLƏ MÜNASİBƏTLƏR.............................................3
***Afiq Nəsrəddin oğlu Abdullayev.*** HERALDİKANIN PREDMETİ VƏ ELEMENTLƏRİ.........................................................................................10
***Naibə Əhmədova.***ERMƏNİLƏRİN QUZEY AZƏRBAYCANA KÖÇÜRÜLMƏSI MƏSƏLƏSİ XIX ƏSR RUSİYA TARİXŞÜNASLIĞINDA .......................................................................17
***İradə Hüseynova.*** TƏCAVÜZKAR ERMƏNİSTANA TARIXI DƏRS: AZƏRBAYCAN XALQININ VƏTƏN MÜHARİBƏSİ ................................28
***Səba Ramiz qızı Hüseynova.*** AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI MİLLİ VƏ ÜMUMBƏŞƏRİ İDEOLOGİYA KİMİ..................................................48
***Təranə Murad qızı İsayeva.***ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI..........56
***Muhittin Hasan Hüseyin oğlu Kavık.***İDİL KALMIKLARININ TÜRK XALQLARI VƏ RUSİYA İLƏ ƏLAQƏLƏRİ............................................62
***Kürşad Ahmet oğlu KÖSE.*** RUS SALNAMƏLƏRİNƏ GÖRƏ ƏMİR TEYMURUN FƏALİYYƏTLƏRİ.................................................................73
***Namiq Məmmədov.*** MÜASİR TÜRKİYƏNİN SEÇKİ SİSTEMİ..................80
***Musayeva Sahibə Xəlil qızı.*** ŞƏKİ-ZAQATALA BÖLGƏSİ MULTİKULTURAL VƏ TOLERANTLIQ ƏNƏNƏLƏRİNİN ƏN GÖZƏL NÜMUNƏSİDİR..........................................................................................90
***Əzizağa Tofiq oğlu Qəni-zadə.*** AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASININ YARADILMASI TARİXİNDƏN..........................................................................................95
***Aypara Sədi qızı Rüstəmova.*** AZƏRBAYCAN-RUSIYA ƏLAQƏLƏRI VƏ AVRASIYA İQTİSADİ İTTIFAQI............................................................103
***Atamalı Xudam oğlu ŞAHBAZOV.*** CÜMHURİYYƏT ORDUSUNDA MİLLİ KADR SİYASƏTİ ..........................................................................112
***Abbas Qadir oğlu Seyid.*** AZƏRBAYCANDA İQTİSADÇI HAZIRLIĞI (1920-1929-cu illər)..........................................................................124

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2020, 2 (29)*

***Çapa imzalanmış 05.11.2020-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 17***
***Sifariş 140, sayı 200***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:** jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***